# 28 MAY MÜSTƏQİLLİK GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 112 (8991) ŞƏNBƏ, 28 may 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İLHAM ƏLİYEV "Böyük Qayıdış"a start verdi

## Prezident və birinci xanım Mehriban Əliyeva Zəngilanda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər

### Prezident İlham Əliyev Müstəqillik Günü münasibətilə paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 28 May - Müstəqillik Günü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımdakı fotonun üzərində bu sözlər yer alıb: "Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır! Yaşasın güclü, müstəqil Azərbaycan!"

### Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan rayonundan foto paylaşıb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Zəngilan rayonundan Prezident İlham Əliyevlə birgə fotosunu paylaşıb. AZƏRTAC fotonu təqdim edir.

### Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonuna səfəri

2-7

## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonuna səfəri

# İLHAM ƏLİYEV "Böyük Qayıdış"a start verdi

## Prezident və birinci xanım Mehriban Əliyeva Zəngilanda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər









Mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlət başçısı və birinci xanım əvvəlcə Ağalı kənd meydanı ilə tanış olublar. Kənd meydanında otuz ilə yaxın müddətdə işğal altında qalmış əzəli torpaqlarımızda sülhün əbədi təmin olunmasını təcəssüm etdirən göyərçin abidə-fəvvarə kompleksi yaradılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fəvvarəni işə saldılar.

Sonra dövlət başçısı və birinci xanım kənd meydanında yaradılmış Dövlət Xidmətləri Mərkəzi ilə tanış olublar. Bildirilib ki, burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcək. Bunlardan məqsəd kənd sakinlərinin dövlət xidmətlərinə rahat çıxışı təmin etməkdir. Məsələn, kənd sakinlərinin "ASAN" və ya "DOST" xidmətlərinə müraciət üçün rayon mərkəzinə getmələrinə ehtiyac qalmayacaq. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək. Vətəndaş birbaşa videobağlantı ilə "DOST" mərkəzlərinin sosial agentinə müraciət edəcək və müraciəti yerindəcə həll olunacaq.



Kənd ağıllı idarəetmə mərkəzi (situasiya mərkəzi) ilə tanışlıq zamanı SİNAM şirkətinin rəhbəri Elçin Əliyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verdi ki, "Ağıllı kənd" üçün "ağıllı həllər" də nəzərdə tutulub. Bundan əsas məqsəd istismar xərclərinin azalmasından, yaşayış səviyyəsinin isə yüksəldilməsindən ibarətdir. Əsas məsələ yüksəksürətli internetdir. Ağalı kəndindəki internetin sürəti ölkə üzrə orta sürətdən dəfələrlə artıqdır.

Dövlət başçısı və birinci xanım Ağalı kənd meydanında "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri ilə də tanış oldular.

Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması, bioqaz enerjisindən istifadə kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "golf car"la kəndin ərazisini gəzdilər, 5 nömrəli üçotaqlı evə baxdılar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndində "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi ilə də tanış oldular.

Ailə sağlamlıq mərkəzində tele-tibb sisteminin təqdimatı zamanı dövlət başçısına və birinci xanıma məlumat verildi ki, tele-tibb vasitəsilə xəstənin qanında arterial təzyiq, oksigen təchizatı, triqleserin və şəkər ölçülür, ürək ritmi, dəri örtüyü və göz bəbəyinin görüntüsü əldə edilir. Cihazlardan toplanan məlumatlar xüsusi planşetlə platformaya ötürülür, ürək, ağ ciyər, böyrək, dalaq, lor (qulaq, burun, boğaz), dermatoloji xəstəliklərin, həmçinin qalxanabənzər və mədəaltı vəzin müayinəsində istifadə edilir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Salam Doktor" platforması üzərindən əhaliyə xidmət göstərən azərbaycanlı həkimlərlə videobağlantı vasitəsilə söhbət etdilər.

*Ardı 3-cü səh.*

## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonuna səfəri

# İLHAM ƏLİYEV "Böyük Qayıdış"a start verdi

## Prezident və birinci xanım Mehriban Əliyeva Zəngilanda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər

*Əvvəli 2-ci səh.*

**Mehriban xanım ƏLİYEVA:** Salam.

**Prezident İlham ƏLİYEV:** Salam.

Danimarkada yaşayan həkim **Məsud AŞİNA:** Möhtərəm cənab Prezident, salam. Mehriban xanım, salam.

Sizi öz adımdan və həmkarlarım adından Danimarkadan salamlayıram. Mən Bakıda anadan olmuşam, 33 ildir Danimarkada yaşayıram, nevrologiya üzrə professoram. Bakıdan olan travmatoloq Siyamak Nani, - beş ildir İsveçdə yaşayır və mənim kiçik qardaşım Harvarddan, Bostondan Sait Aşina da bizimlə bir yerdədir. O da Bakıda anadan olub, amma tibb universitetini Danimarkada bitirib.

Həkim Cavid Baloğlanov da bizimlə bir yerdədir, "Salam Doktor"u təmsil edirik. Fürsətdən istifadə edərək Sizə təşəkkürümü bildirmək istəyirəm ki, belə bir imkan yaradılıb. Biz bu texnologiyadan istifadə edəcəyik. Əsas məqsəd ondan ibarətdir ki, seminarlar, konsultasiyalar, konsiliumlar keçirək, teletibb imkanından maksimum istifadə edib hər zaman Qarabağ zonasında, bizim Zəngəzurda olaq. Sizə təşəkkürümü bildirmək istəyirəm, çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

"Salam Doktor" şirkətinin tibbi direktoru **Cavid BALOĞLANOV:** Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, bir məsələni də vurğulamaq istəyirəm, bizim "Salam Doktor" platformamızın xüsusiyyəti ondan ibarətdir ki, bu, Azərbaycanda ilk milli platformadır və tərəfimizdən istehsal olunmuş milli proqram təminatıdır.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Sizi görməyimə şadam. Bu təşəbbüsə qoşulduğunuza görə sizə minnətdaram. Mən çox şadam ki, xaricdə yaşayan azərbaycanlılar azad edilmiş torpaqların bərpası ilə bağlı fəal çalışırlar, işləyirlər. Bu platformanın həyata keçirilməsində, əlbəttə ki, xaricdə yaşayan soydaşlarımız da mühüm rol oynayıblar. Bildiyiniz kimi, keçən ay Dünya Azərbaycanlılarının Qurultayı ilk dəfə olaraq Şuşada keçirilmişdir. Hamımızın böyük arzusu idi ki, bir gün bu qurultay Şuşada keçirilsin, buna da nail olduq. Xaricdə yaşayan yüzlərlə azərbaycanlı doğma Şuşamıza gəlib burada öz ürək sözlərini deyə biliblər. Əlbəttə ki, dünya azərbaycanlılarının azad edilmiş torpaqlarda bərpa işlərinin aparılmasında da böyük rolu ola bilər. Artıq var, biz bunu görürük. Bax, bugünkü bizim videobağlantımız bunu əyani şəkildə göstərir.

Bildiyiniz kimi, biz azad edilmiş torpaqları müasir mütərəqqi texnologiyalara əsaslanmış böyük bir məkan kimi görmək istəyirik və indi olduğumuz Ağalı kəndinin timsalında bunu görürük. Ona görə aparıcı Qərb ölkələrinin texnologiyaları, o cümlədən tibb sahəsində və digər sahələrdə burada tətbiq edilərsə, əlbəttə ki, biz istədiyimizə nail ola bilərik.

Bu gün biz videoformatda görüş keçirərək bir-birimizi görürük. Amma arzu edirəm ki, siz buraya da gələsiniz, azad edilmiş digər yerlərdə, o cümlədən Ağalı kəndində də olasınız və bu gediş-gəliş daimi olsun.

Mən qurultay zamanı xaricdə yaşayan soydaşlarımıza üz tutaraq demişdim ki, istərdim, hər biriniz heç olmasa ildə bir dəfə Azərbaycana, Qarabağa, Zəngəzura gələsiniz və bizim bu canlı bağlantımız, qəlbdən-qəlbə gedən bu bağlar daha da möhkəm olsun. Bu gün burada iştirak etdiyiniz üçün sizə təşəkkürümü bildirirəm.

Həkim **Məsud AŞİNA:** Təşəkkür edirəm, cənab Prezident, biz hər zaman hazırıq. Mən özüm də Şuşa qurultayında iştirak etdim. Mənim üçün çox qürurlu gün idi. Mən sonuncu dəfə 1984-cü ildə Şuşada olmuşdum. Artıq bu il Şuşaya gəlmişdim. Çox böyük həyəcan keçirdim. Biz hər zaman orada olmalıyıq, həmişə bir yumruq kimi Sizin yanınızda olmalıyıq.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Qarabağ Azərbaycandır!

**Azərbaycanlı həkimlər:** Qarabağ Azərbaycandır! Sağ olun.

* * *

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kənddəki uşaq bağçasında yaradılan şərait barədə məlumat verildi. Həmçinin kənd tam orta məktəbinə baxış zamanı distant təhsil həllərinin təqdimatı keçirildi.

Bakıdakı Heydər Əliyev adına Müasir Təhsil Kompleksi ilə canlı bağlantıda **Prezident İlham ƏLİYEV** dedi: Əminəm ki, Ağalı məktəbi ilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin arasında əlaqələr bundan sonra da davam edəcək. Burada oxuyan uşaqlar gələcəklər Bakıya, sizin şagirdlərinizlə, eyni zamanda müəllim heyəti ilə görüşəcəklər. Yəni bu təmaslar davamlı olmalıdır, həm distant təhsillə bağlı, eyni zamanda canlı təmaslara da böyük ehtiyac var. Yaxın günlərdə ilk vətəndaşlar burada məskunlaşacaqlar. Ondan sonra yaxşı olardı ki, siz müəllimlər və eyni zamanda uşaqlar buraya gələsiniz, bu gözəlliyi görəsiniz, necə deyərlər, bu videobağlantı artıq canlı bağlantıya keçsin.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçasının binasında monolit dəmir-beton, xarici və daxili divarların hörgü işləri, kommunikasiya xətlərinin çəkilişi və damın quraşdırılması üzrə işlər tam başa çatdırılıb, daxili və xarici bəzək işləri görülür. Göründüyü kimi, "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır.

Dövlət başçısına və birinci xanıma "Ağıllı kənd" layihəsinə dair stendin təqdimatında "Ernst & Young" şirkəti ilə birgə hazırlanmış "İqtisadi səmərəliliyin təhlili"nin əsas məqamları, kəndin perspektiv inkişaf planı və kənd bazarının planı, həmçinin şəhər evi tipli üç nəfərədək ailələrin məskunlaşması üçün evlərin planı barədə məlumat verildi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağalı kəndinin sakinləri ilə görüşdülər.

Dövlət başçısı görüşdə çıxış etdi.

*Bax: səh. 4*







## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonuna səfəri

# İLHAM ƏLİYEV "Böyük Qayıdış"a start verdi

## Prezident və birinci xanım Mehriban Əliyeva Zəngilanda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər



## Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, ilk növbədə sizi qarşıdan gələn Müstəqillik Günü münasibətilə təbrik edirəm. Sizə və bütün Azərbaycan xalqına daim rifah, xoşbəxtlik arzulayıram. Müstəqillik Günü ərəfəsində biz sizinlə görüşürük, Ağalı kəndində, dirçələn Ağalı kəndində. Bunun çox böyük rəmzi mənası var. Çünki Ağalı kəndinin yenidən qurulması və belə müasir vəziyyətə gətirilməsi müstəqilliyimizin möhkəmlənməsindən asılı idi. Bu gün hər bir Azərbaycan vətəndaşı və əminəm, hər bir insan, ümumiyyətlə, görür ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir.

İlk Xalq Cümhuriyyəti yaradılanda vəziyyət fərqli idi. Əlbəttə, rus imperiyasının dağılması nəticəsində Azərbaycan xalqı 104 il bundan əvvəl müstəqilliyə qovuşdu. Ancaq birinci respublika çox yaşaya bilmədi, süqut etdi, cəmi iki ilə yaxın müddət ərzində yaşamışdır. Düzdür, bir çox önəmli addımlar atılmışdır və Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini biz daim hörmətlə anırıq. Ancaq, eyni zamanda, onu da bilməliyik ki, müstəqillik cəmi iki il çəkdi. Ondan sonra Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi, müstəqilliyi qoruya bilmədi və Azərbaycan xalqı azadlıqdan məhrum edildi. Bununla bərabər, hamımız yaxşı bilirik ki, o vaxt Ermənistan millətçiləri xalqımıza və gənc Xalq Cümhuriyyətinə qarşı təcavüzə başlamışdılar və bunun nəticəsində Azərbaycan xalqı böyük əzablar yaşamışdır.

Onu da artıq nəinki Azərbaycanda, dünyada bilirlər ki, dövlət müstəqilliyimiz elan olunandan bir gün sonra Azərbaycan Xalq Cümhuriyyəti bizim qədim şəhərimiz olan İrəvanı Ermənistana təhvil verdi və bu, bağışlanmaz bir cinayət idi. Beləliklə, bizim qədim diyarımız bizdən ayrı düşdü.

Amma Azərbaycan Xalq Cümhuriyyəti süquta uğrayandan bir neçə ay sonra Zəngəzur da bizim əlimizdən alındı. Bu tarixi də hər kəs bilməlidir, 1920-ci ilin noyabrında sovet hakimiyyətinin qərarı ilə heç bir əsas olmadan tarixi diyarımız Qərbi Zəngəzur Azərbaycandan ayrıldı və Ermənistana verildi. Bu, xalqımıza qarşı növbəti düşmənçilik və ədalətsizlik idi. Çünki Zəngəzurun şərqində də, qərbində də Azərbaycan xalqı əsrlər boyu yaşamışdır və indiki Ermənistan ərazisində olan Qərbi Zəngəzurun bütün toponimləri, bütün kəndlərin milli tərkibi Azərbaycan xalqına məxsus idi.

Müasir Azərbaycan müstəqilliyə qovuşandan sonra da vəziyyət təxminən eyni idi. Çünki iki il ərzində - 1991-ci ilin oktyabrından 1993-cü ilə qədər Ermənistan Azərbaycana qarşı növbəti təcavüz etmişdir və müstəqillik elan olunandan dörd ay sonra Ermənistan dövləti xalqımıza qarşı Xocalı soyqırımını törətmişdir. Ondan üç ay keçəndən sonra Şuşa işğal olundu, Laçın işğal olundu və 1993-cü ilin aprelində Kəlbəcər işğal olundu. Beləliklə, Ermənistanla Qarabağ arasında canlı bağlantı yaradıldı.

Biz 1993-cü ildə də eyni vəziyyətlə üzləşə bilərdik. Yəni müstəqilliyimiz faktiki olaraq böyük təhlükə altında idi, sözdə var idi, amma de-fakto yox idi. Çünki Azərbaycan müstəqil siyasət apara bilmirdi. Müstəqillik, əsl müstəqillik məhz odur ki, sən müstəqil siyasət apara bilirsən, yoxsa yox. Əks təqdirdə bu, sadəcə olaraq, şərti xarakter daşıyır.

1993-cü ildən başlayaraq xalq Ulu Öndərə müraciət edib onu hakimiyyətə dəvət edəndən sonra əsl müstəqillik həyatımız başlamışdır. Bu gün burada olmağımız, Ağalı kəndinin açılışında iştirak etməyimiz məhz müstəqilliyimizin möhkəmlənməsinə bağlıdır. Nə XX əsrin əvvəllərində, nə də sonlarında müstəqilliyimiz möhkəm olmamışdır. Ona görə xalqımız böyük faciələrlə üzləşmişdi. Həm Şərqi Zəngəzur, həm Qarabağ işğala məruz qaldı. Ovaxtkı hakimiyyət torpaqlarımızı qoruya bilmədi. Ancaq bu gün müstəqilliyimiz möhkəmdir və bunun nəticəsində biz İkinci Qarabağ müharibəsində qələbə qazandıq, tarixi qələbə qazandıq. Bunun nəticəsində düşməni diz çökdürdük və bunun nəticəsində bu gün biz buradayıq.

Biz müstəqilliyimizin möhkəmlənməsi istiqamətində çox böyük işlər görmüşük. Siyasi cəhətdən tam müstəqilik. Heç bir ölkə bizim iradəmizə təsir edə bilməz və bunu artıq hər kəs bilir ki, Azərbaycanla hesablaşmaq lazımdır, Azərbaycanın mövqeyini nəzərə almaq lazımdır. Azərbaycan özünə hörmət edən dövlətdir və hər kəsdən bu hörməti tələb edir və bunu əldə edir.

Biz iqtisadi cəhətdən müstəqilik. Bu gün iqtisadi cəhətdən müstəqil ölkələrin sayı o qədər də çox deyil. Bunu yaxın tarix göstərib. Ancaq biz tam müstəqilik, heç kimdən asılı deyilik, öz həyatımızı özümüz qururuq və heç bir yardıma, kreditə ehtiyacımız yoxdur. Əksinə, biz özümüz indi bəzi ölkələrə kreditlər veririk. Məhz iqtisadi müstəqillik nəticəsində bu gün, bax bu Ağalı kəndi deyə bilərəm ki, dünyanın ən mütərəqqi kəndlərinin birinə çevrilib. Bunu biz etmişik, öz gücümüzlə və azad edilmiş bütün digər torpaqlarda öz gücümüzlə bərpa işlərini aparırıq və indi nəhəng layihələr icra edilir. Bu haqda Azərbaycan xalqı müntəzəm olaraq məlumatlandırılır.

Siyasi və iqtisadi müstəqillik imkan verdi ki, biz öz həyatımızı bildiyimiz kimi quraq, Azərbaycan xalqının qədim ənənələri, dəyərləri əsasında dövlət quraq və bu dövlətdə rahat yaşayaq. Bu gün dünyada gedən proseslər hər birimizin gözü önündədir. Azərbaycan sabitlik, təhlükəsizlik diyarıdır, deyə bilərəm ki, adasıdır. Bunu artıq bütün dünya görür və bilir. Əlbəttə, biz müstəqil olmasaydıq, yəni, sözün əsl mənasında, müstəqil olmasaydıq, erməni işğalına son qoya bilməzdik. Çünki bu işğalı şərtləndirən hansı amillər olub, əlbəttə ki, xarici amillər. Ermənistan özü nə hərbi, nə siyasi, nə iqtisadi cəhətdən hətta orta səviyyəli dövlət sayıla bilməz. İndi Ermənistandakı vəziyyət göz qabağındadır. Əlbəttə, biz bu xarici amilləri nəzərə almalıyıq. Amma, eyni zamanda, bu, bizi dayandıra bilməzdi. Müharibənin ilk günlərindən son gününə qədər mən demişdim ki, heç kim və heç nə bizi dayandıra bilməz. Ancaq Ermənistan rəhbərliyi bizə tarix verməlidir, nə vaxt bizim torpağımızdan rədd olur, onda biz dayanmağa hazırıq və sözümüzə də əməl etdik. Ona görə əgər müstəqil siyasət aparmasaydıq, ola bilər ki, bu xarici amillər, Ermənistanın xarici havadarları, onların bəzilərinin bizə hədə-qorxu gəlməsi bizi bu işdən çəkindirə bilərdi. Ancaq çəkindirmədi. Çünki güclü iradə göstərdik, xalqımız birləşdi və bunun da təməlində, əlbəttə ki, həmrəylik, milli qürur, ləyaqət və güc dayanır.

Bu gün güc amili ön plandadır. Mən bu haqda hələ on il bundan əvvəl demişdim. Mənim çıxışlarımın hamısı mətbuatda var. Dedim ki, beynəlxalq hüquq işləmir. Biz özümüzü aldatmamalıyıq, daha güclü olmalıyıq, güc toplamalıyıq. Lazım olarsa, düşməni güc yolu ilə torpağımızdan qovmalıyıq. Bunu demişəm də, bunu etmişəm də.

Bundan sonra da güc amili dünyada hakim olacaq. Bunu indi yaxın tarix də göstərir. Ona görə bundan sonra da güclü olmalıyıq və güclü oluruq. Bu gün iqtisadi göstəricilərimiz çox müsbətdir. Deyə bilərəm ki, dünya miqyasında ən sürətlə inkişaf edən ölkələrdən biri Azərbaycandır. Hərbi gücümüzü də artırırıq. Müharibədən sonra yeni silahlı birləşmələr yaradılır, yeni texnika alınır və bundan sonra da biz bunu edəcəyik. Çünki biz güclü olmasaq, istədiyimiz kimi yaşaya bilmərik. Biz istəyirik ki, azad yaşayaq. Biz istəyirik ki, bundan sonra heç kim bizim işimizə qarışmasın. Buna ehtiyac yoxdur. Biz elə gözəl dövlət qurmuşuq ki, bu gün bir çoxları buna həsəd aparır. Heç kim gəlib bizə dərs oxumasın, məsləhət verməsin, öyrətməsin. Buna ehtiyac yoxdur.

Mən Prezident kimi hər dəfə bu cəhdləri dəf edəndə xalqa arxalanıram, dövlətimizin gücünə arxalanıram, o cümlədən hərbi, iqtisadi və siyasi gücünə. 44 günlük Vətən müharibəsi həm xalqımızın gücünü, həm də mənəvi keyfiyyətlərini göstərdi. Biz ermənilərdən fərqli olaraq dinc əhaliyə qarşı müharibə aparmamışıq. Biz ermənilərdən fərqli olaraq etnik təmizləmə aparmamışıq. Biz Ermənistandan fərqli olaraq şəhər və kəndləri yerləyeksan etməmişik. Biz azərbaycanlıyıq, bu, bizə yaraşmaz. Bizim təfəkkürümüz, bizim adət-ənənələrimiz və dədə-babalardan qalan miras bunu qoymaz. Bütün dünya bunu gördü ki, azərbaycanlılar necə məharətlə, peşəkarlıqla, fədakarlıqla və ləyaqətlə vuruşdular, öz vəzifə borclarını yerinə yetirdilər və Qarabağ münaqişəsini müharibədən sonra siyasi yollarla həll etdilər. Biz bu məsələni həll etmişik, Ermənistan istəsə də, istəməsə də bunu bütün dünya qəbul edir. Biz Dağlıq Qarabağ münaqişəsini həll etmişik. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Qaldı ki, Dağlıq Qarabağ inzibati ərazisinə, bu ərazi Azərbaycan ərazisində yoxdur. Ona görə beynəlxalq qurumların leksikonunda Dağlıq Qarabağ sözü yoxdur və son Brüssel görüşü bunu bir daha göstərdi. Düzdür, Ermənistanda indi bu məsələ ilə bağlı yenə də hay-haray qaldırıblar və necə deyərlər, başlarını divara vururlar, amma bu, reallıqdır və onlar bu reallıqla barışmağa məcburdurlar.

Dağlıq Qarabağ münaqişəsi həll olunub, Minsk qrupu öz fəaliyyətini başa vurub. Minsk qrupu ilə bağlı mən öz fikirlərimi demişdim, bir daha təkrar etməyə ehtiyac yoxdur və indi postmünaqişə dövrüdür. Biz bu dövrdə yaşayırıq və postmünaqişə dövründə də biz gündəliyi diktə edirik və müharibədən keçən ilyarım ərzində nəyi istəmişiksə, ona nail olmuşuq. Nəyi demişəmsə, buna biz nail olmuşuq, ya da ki, nail oluruq. Birincisi, bütün dünya, aparıcı ölkələr və aparıcı beynəlxalq təşkilatlar yeni reallıqları qəbul ediblər. Bu, çox vacib idi, çünki başqa cür də ola bilərdi. Bu, bizim çox böyük siyasi uğurumuzdur. İkincisi, bizim gündəliyimiz artıq aparıcı beynəlxalq təşkilatlar tərəfindən əsas kimi götürülür. Mən demişdim ki, biz Ermənistanla sərhədləri müəyyən etməliyik. Ermənistan bundan imtina edirdi, ilyarım imtina edirdi. Amma nəticə nə oldu? Mayın 24-də Azərbaycan-Ermənistan sərhədində komissiyaların birinci görüşü keçirildi. Bunun çox böyük mənası var. Həm o nöqteyi-nəzərdən ki, biz bu sərhədləri müəyyən edəcəyik və bu, çox vacibdir. Çünki ermənilər o sərhədləri də zəbt etmişlər. Digər tərəfdən bu, avtomatik olaraq Ermənistanda revanşist, faşist qüvvələr tərəfindən Azərbaycana qarşı irəli sürülən ərazi iddialarına da rəsmən son qoyur. Çünki əgər biz sərhədləri müəyyən ediriksə, hansı dırnaqarası "Dağlıq Qarabağ" statusundan söhbət gedə bilər?! Qarabağ zonası var, Qarabağ diyarı var. Bu, Azərbaycan ərazisidir və bütün dünya bunu qəbul edir. Ona görə Azərbaycan-Ermənistan sərhəd delimitasiyası üzrə komissiyaların birinci iclasının çox böyük əhəmiyyəti var.

Digər məsələ, biz demişdik ki, Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsi imzalanmalıdır. Ermənistan bundan boyun qaçırmağa can atırdı. Çünki sülh müqaviləsi ölkələrin ərazi bütövlüyünün qarşılıqlı surətdə tanınması deməkdir. Amma nəticə etibarilə biz buna da nail olduq və artıq Azərbaycan öz işçi qrupunu müəyyən edib. Daha bir vacib məsələ, Zəngəzur dəhlizinin açılmasıdır. Ermənistan hər zaman buna da maneçilik törətməyə çalışırdı. Amma yenə də, Brüssel görüşünün rəsmi açıqlamasına baxın, artıq həm dəmir yolu, həm avtomobil yolunun Mehridən, Zəngəzurdan keçməsi müəyyən olunub. Yəni biz buna da nail oluruq və mən demişdim ki, nail olacağıq. Yəni biz gündəliyi diktə edirik. Nəyin hesabına? Əlbəttə ki, müharibənin nəticələrinin hesabına. Çünki biz qalib dövlətik, Ermənistan məğlub edilmiş dövlətdir. Bu reallığı hər kəs qəbul etməlidir və edir. Əlbəttə ki, bu amil Azərbaycan-Ermənistan təmasları əsnasında ön plandadır.

Digər səbəb nədir? Bizim gücümüz. Ermənistan xarici dəstək olmadan ayaqda dura bilməz. Bunu onlar da yaxşı bilirlər. Amma biz? Biz müharibəni bütün təzyiqlərə, hədə-qorxulara rəğmən elə aparmışıq və istədiyimizə nail olmuşuq. "Öldü var, döndü yoxdur" demişik, buna əməl etmişik və indi qalib xalq kimi üzümüz ağ, alnımız açıq yaşayırıq.

Əlbəttə, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Amma bununla bərabər, biz heç bir qeyri-real tələb də irəli sürmürük. Biz deyirik ki, ərazi bütövlüyümüzü tanıyın, gəlin sərhədləri müəyyən edək, hərə öz ölkəsində yaşasın, bir-birinin işinə qarışmasın. Biz bunu deyirik və mənim tərəfimdən irəli sürülmüş sülh müqaviləsi üçün 5 əsas prinsipin mahiyyəti də budur. O cümlədən bir-birinə qarşı ərazi iddialarından əl çəkmək prinsipi də böyük önəm daşıyır və Ermənistan rəhbərliyi bu 5 prinsipi qəbul edib. İndi nə isə əlavə etmək istəyir, amma əsas fundamental prinsiplər budur. O ki qaldı, ermənilərin Azərbaycanda yaşamasına - istər Qarabağ bölgəsində, istər başqa yerlərdə bu məsələdə heç bir problem yoxdur. Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bütün xalqların nümayəndələri rahat yaşayırlar, bütün hüquqlardan istifadə edirlər. Heç vaxt Azərbaycanda milli, dini zəmində ayrı-seçkilik olmayıb və olmayacaq. Ona görə Azərbaycanda yaşayan ermənilərin hüquqları, təhlükəsizliyi Azərbaycanda yaşayan digər xalqların təhlükəsizliyi, hüquqları qədər önəmlidir. Burada hansısa xüsusi imtiyazdan söhbət gedə bilməz. Bir də ki, dünyada, Avropada təcrübə var. İndi Avropada müxtəlif konvensiyalar var. Həm Avropa Şurası ölkələri bu konvensiyalara qoşulublar, həm Avropa İttifaqı ölkələri çərçivəsində qaydalar və rəsmi sənədlər var. Orada hər şey göstərilib və biz bu ümumbəşəri trend, yəni meyil məcrasında gedirik. Ermənistan əgər hansısa xüsusi tələb irəli sürərsə, bilməlidir ki, bizim də bir çox tələblərimiz ola bilər. Bax buraya çox da uzaq olmayan məsafədə bizim qədim torpağımız Qərbi Zəngəzurdur. Biz Ermənistana qarşı ərazi iddiası ilə çıxış etmirik ki? Etmirik. Amma əgər onlar bizə qarşı ərazi iddiası ilə çıxış edəcəksə, biz niyə etməməliyik? Tarix var. Hər kəs açsın baxsın kitablara, ensiklopediyalara: nə vaxt Qərbi Zəngəzuru bizdən ayırıb Ermənistana verdilər? 1920-ci ilin noyabrında.

*Ardı 5-ci səh.*

## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonuna səfəri

# İLHAM ƏLİYEV "Böyük Qayıdış"a start verdi

## Prezident və birinci xanım Mehriban Əliyeva Zəngilanda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər

*Əvvəli 4-cü səh.*



O ki qaldı ermənilərin Azərbaycanda yaşamasına, bu tarixi də hər kəs yaxşı bilir. Rus-İran müharibəsindən sonra XIX əsrin əvvəllərində İrandan və Şərqi Anadoludan ermənilər kütləvi surətdə köçürülüb və Azərbaycanda, Qarabağda məskunlaşdırılıb. Bunu biz hamımız yaxşı bilirik. O ki qaldı 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasına, onun da heç bir əsası yox idi. Bu, qanunsuz bir addım idi, sadəcə olaraq, bir saat bombasını Azərbaycanın canına yerləşdirmək, istənilən an onu partlatmaq və xalqımızı məhv etmək məqsədi daşıyırdı. Heç bir əsası yox idi ki, orada hansısa bir muxtar vilayət yaradılsın. Özü də Şuşanı da salmışdılar onun içinə.

Mən nə üçün bunu deyirəm, çünki Ermənistanda faşistlər hələ, necə deyərlər, baş qaldırmağa cəhd göstərirlər və onlara elə gəlir ki, əgər onlar hakimiyyətdə olsaydılar, müharibənin nəticələri başqa cür ola bilərdi. Qətiyyən yox! Onlara elə gəlir ki, əgər onlar hakimiyyətə gəlsələr, nə isə əldə edə bilərlər. Qətiyyən yox! Əksinə, əgər istəmirlərsə ki, onların başı bir daha əzilsin, otursunlar və bu tərəfə heç baxmasınlar. Biz hələ ki, səbirlə bu mənzərəni izləyirik. Amma bunu Ermənistan faşistləri - bizə hürməyə çalışan faşistlər bilsinlər ki, hər an onların dərsini verməyə bir daha hazırıq, necə ki, İkinci Qarabağ müharibəsi zamanı. İndi kimdir Ermənistanda meydan sulayan? İkinci Qarabağ müharibəsi zamanı Qarabağdan dovşan kimi qaçan Sarkisyan-Köçaryan cütlüyü. Əgər onlar belə qəhrəman idilərsə, niyə qaçmışdılar? Oturardılar, vuruşardılar. Hər ikisi Xankəndidə idi, o cümlədən onların keçmiş müdafiə naziri. İndi bizi hədələməyə çalışırlar. Niyə qaçmısınız dovşan kimi? Axı gərək bunu unutmasınlar. Bizim gücümüzü hər an görüb buna adekvat addım atsınlar.

Biz isə bundan sonra müzəffər xalq kimi yaşayacağıq. Biz 44 gün ərzində həm ərazi bütövlüyümüzü bərpa etdik, həm ədaləti bərpa etdik, həm milli ləyaqətimizi bərpa etdik. Bu gün, bax bu gözəl Zəngilan torpağında həyat qururuq. Bax həyat qayıdır - Zəngilana, başqa yerlərə, Şuşaya. Yaxşı bilirsiniz ki, bu bölgənin inkişafı üçün nə qədər böyük işlər görülür. İndi yol boyunca gələn hər bir adam dəmir yolunu görür, avtomobil yolunu görür. Özü də altı və dörd zolaqlı avtomobil yolu. Zəngilanda hava limanı tikilir, bu il istifadəyə veriləcək. Artıq böyük aqropark salınıb, ilk məhsul bu il götürüləcək.

Dünən mən Zəngilan şəhərinin Baş planı ilə tanış oldum. Hesab edirəm ki, ən gözəl variantı seçdik. Bu sahədə təcrübəsi olan beynəlxalq şirkət Baş planı təqdim etdi və mən dedim ki, Zəngilan şəhəri park şəhərinə çevrilməlidir. Yəni Zəngilanın təbiəti o qədər gözəldir ki, biz təbiətə bir zərrə ziyan vurmamalıyıq, əksinə, təbiəti daha da zənginləşdirməliyik, xüsusilə nəzərə alsaq ki, ermənilər Bəsitçay təbii qoruğunu da məhv etmişlər. O məşhur palıd ağaclarını da kəsmişlər, Oxçuçayı da zəhərləmişlər. Vejnəlidə də bizim qızıl yataqlarımızı istismar edərkən heç bir ekoloji normaya riayət etməmişlər. Biz təbiəti qorumalıyıq və Zəngilan şəhərinin artıq dünən Baş planı təsdiq olunandan sonra inşaat işləri başlanacaq.

Əlbəttə ki, bunu artıq bilməyən yoxdur, birinci pilot layihə məhz Zəngilanda icra edildi, Ağalı kəndində. Bir il bundan əvvəl inşaat işləri başlamışdır. İndi 200 evdən ibarət gözəl kənd salınıb - "Ağıllı kənd". Bu gün bu kəndlə tanış olarkən, - bilirsiniz, mən dəfələrlə burada olmuşam, - görürəm ki, doğrudan da böyük, necə deyərlər, mütərəqqi bir addım atmışıq.

Bilirəm ki, Ağalı kəndində yaşayan ailələrin sayı 200-dən çoxdur. Ona görə yeni layihə təqdim edildi. Kəndin genişləndirilməsi və əlavə 150 evin inşa edilməsi, o cümlədən ikimərtəbəli, üçmərtəbəli mənzil tipli evlərin inşa edilməsi nəzərdə tutulur. Məşğulluq, məktəb, bağça, tibb məntəqəsi, bütün xidmətlər - "ASAN", "DOST", kiçik və orta biznesə dəstək, hər şey burada var. Bir o qalıb ki, 30 ilə yaxın həsrət içində yaşayan insanlar gəlsinlər, burada rahat yaşasınlar, müzəffər xalq kimi əbədi yaşasınlar. Belə də olacaq. Bundan sonra həm Zəngilan rayonunda, həm digər rayonlarda, indi Baş planları təsdiq edilmiş rayonlarda inşaat işləri daha sürətlə gedəcək.

Mən sizi tarixi hadisə münasibətilə təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

* * *

Ağalı kənd sakini **Fərmayıl İSMAYILOV:** Cənab Prezident. Biz çox qürur hissi duyuruq ki, həqiqətən də bugünkü gün bir Ağalı kənd sakini kimi mənim həyatımda tarixə yazılası bir gündür. Çünki bu gün mən sizinlə bir masa ətrafında əyləşmişəm. Bu, mənim həyatımda tarixə yazılan bir gündür. Bu, mənə nəsib olduğu üçün sizə minnətdarlığımı bildirirəm. Dərin təşəkkürümü bildirirəm ki, siz tarixi qələbə qazanan bir Prezident kimi vaxt tapıb bizimlə görüşə gəlmisiniz. Bu, bizim üçün qürurverici bir haldır, şəxsən mən bunu çox yüksək dəyərləndirirəm. Çünki biz bu 28 il müddətində, - mən şəxsən özümdən danışıram, - valideynlərimizin qəbirlərini ziyarət edə bilmirdik, gecə-gündüz onu yuxuda görürdük. Kəndimizdə bir daş var idi, mən həmişə onu yuxuda görürdüm, öz tay-tuşlarıma da danışırdım ki, belə bir yuxu görürdüm, o daşı həmişə gedib görmək istəyirdim. Öz həyətimizə gedə bilmirdim. Amma siz onu bizə bəxş etdiniz.

Sizə dərin təşəkkürümüzü bildiririk. Allah sizi həmişə var eləsin, bizim başımızın üstündən əskik etməsin. Biz də Ağalı kəndinin sakinləri həmişə sizin siyasətinizi dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Həyata keçirdiyiniz quruculuq işlərində əlimizdən gələni etməyə canla-başla hazırıq.

Çox sağ olun, var olun, Allah sizi qorusun.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

*Ardı 6-cı səh.*



## Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonuna səfəri

# İLHAM ƏLİYEV "Böyük Qayıdış"a start verdi

### Prezident və birinci xanım Mehriban Əliyeva Zəngilanda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər

*Əvvəli 5-ci səh.*

Ağalı kənd sakini **Gəray HÜSEYNOV:** Cənab Prezident. Sizi qədim Zəngəzur diyarının ən gözəl guşələrindən biri olan Zəngilanımızda salamlayırıq. Cənab Prezident, bir ilə yaxındır ki, bu Ağalı kəndinin təməlini qoymusunuz. Artıq bu gün Ağalı kəndi sizin sayənizdə çox gözəl şəkildə tikilib, qurulub, yaradılıb. Sizə öz dərin təşəkkürümü bildirirəm, sizə cansağlığı arzulayıram ki, Ağalı camaatı üçün belə gözəl şəraiti yaratmısınız. Sizi əmin edirəm, bizim Ağalı sakinləri səbirsizliklə o günü gözləyirlər ki, tezliklə bu kəndə köçüb yaşasınlar. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Sağ ol.

* * *

Ağalı kənd sakini **Gülüş SƏMƏDLİ:** Hörmətli Ali Baş Komandan, dəyərli Birinci vitse-prezidentimiz Mehriban xanım. Sizləri əzəli torpağımızda - Zəngilanda salamlamaq mənim üçün qürurverici hadisədir. Bu, mənim Zəngilana ilk səfərim deyil, üçüncü səfərimdir. İlk səfərim sizinlə təməlqoyma mərasimində olmuşdu. Az müddət ərzində Zəngilanda dirçəlişi görmək həqiqətən bizə qürur verir. Az müddətdə xeyli dəyişiklik olmuşdur. Eyni zamanda biz Azərbaycan xalqı olaraq, Zəngilan sakinləri olaraq hər zaman sizin siyasətinizi dəstəkləyir, bir yumruq kimi sizin ətrafınızda birləşirik.

Zəngilanda "Ağıllı kənd"in təməlinin qoyulması və bu gün "Ağıllı kənd"in ərsəyə gəlməsi təkcə Azərbaycan Respublikasında ilk deyil, eyni zamanda MDB ölkələrində də ilkdir. Biz bununla bütün dünyaya sübut etdik ki, yoxdan var yaratmışıq. Yəni biz az müddətdə xeyli dirçəliş etmişik. Şəxsən mən Zəngilan rayonunun ən gənc sakini və həm də hüquqşünas olaraq canla-başla gəlib burada məskunlaşıb xalqıma xidmət etməyi arzulayıram. İnşallah, o günləri də səbirsizliklə gözləyirəm. Çünki mən bilirəm ki, burada həm gənclər, həm də yaşlı sakinlər üçün xeyli iş yerləri var. Mən də öz hüquqşünas ixtisasıma uyğun olaraq işlə təmin olunacağıma və xalqıma vicdanla xidmət edəcəyimə əminəm.

Bir daha sizlərə təşəkkür edirəm. Allah sizləri var eləsin. Biz hər zaman sizinləyik.

* * *

**Prezident İlham ƏLİYEV:** Sağ ol. Mən çox şadam ki, gənclər də öz dədə-baba yurduna qayıtmağa çox həvəslidirlər. Mən bunu alqışlayıram. İkinci Qarabağ müharibəsi başa çatandan sonra mən göstəriş vermişdim ki, keçmiş məcburi köçkünlər arasında sorğu keçirilsin, kim qayıtmaq istəyir, kim qayıtmaq istəmir. Çünki bilirsiniz, həyat elə şeydir ki, hər şey ola bilər. 30 il, 27 il böyük bir zaman kəsiyi idi. Məsələn, Zəngilan 27 il işğal altında idi, digər şəhər və rayonlarımız da bir qədər çox, bir qədər az. Elə insanlar var ki, artıq onlar həyat qurublar, haradasa işləyirlər, həyatdan da razıdırlar və heç yerə getmək istəmirlər, şəhərdə yaşayırlar, Bakıda, Sumqayıtda. İndi böyük şəhərdən kiçik şəhərə, kəndə qayıtmaq o qədər də asan məsələ deyil. Bunu hər kəs anlamalıdır. Nəzərə alsaq ki, qayıdış da könüllü olmalıdır və biz





elə şərait yaratmalıyıq ki, hər kəs qayıtmaq istəsin. Ona görə dedim ki, sorğu keçirək və nəticələrinə baxaq. Çünki biz indi böyük işlərə start veririk, yaşayış evləri, məktəblər, xəstəxanalar - bütün bunlar hesablanmalıdır nə qədər adam yaşayacaq. Çünki böyük məsrəfdir. Mənə məlumat verildi ki, məcburi köçkünlərin mütləq əksəriyyəti qayıtmaq istəyir. Bu, məni çox sevindirdi. Mən belə də təxmin edirdim. Bu, bir daha göstərdi ki, xalqımız öz ulu babalarının yurduna nə qədər bağlıdır. Hətta Zəngilanı görməyənlər Zəngilanda yaşamaq istəyirlər. Necə ki, Vətən müharibəsində Qarabağı heç vaxt görməyənlər Qarabağ uğrunda ölümə getməyə hazır idilər və ölümə də getmişdilər. Üç minə yaxın şəhidimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Ancaq insanların qayıdışı üçün şərait olmalıdır. Bax biz birinci layihəni icra etdik, bunu təqdim etdik, həm Ağalı kəndinin sakinlərinə, həm də bütün Azərbaycana. Bizim gələcək planlarımız da belədir. İndi birinci mərhələdə hər rayonda bir çox kəndlər seçilib ki, ilk növbədə orada işlər aparılacaq. Ondan sonra insanlar qayıtdıqca, əlbəttə ki, bütün qalan yerləri də bərpa edəcəyik. Əlbəttə, ilk növbədə, böyük şəhərlərin Baş planları təsdiq edilməli idi. Məsələn, Ağdam, Füzuli və Şuşa şəhərlərinin Baş planları təsdiq olunub, dünən isə Zəngilan şəhərlərinin Baş planı təsdiqləndi, artıq işlərə başlanılmışdır. İndi Ağdamda yaşayış binaları inşa edilir, Füzulidə də hazırlıq işləri gedir, Zəngilanda isə gedəcək. Yəni bu, böyük bir prosesdir və onu da bildirməliyəm ki, biz bu işi dövlət büdcəsi hesabına edirik. Heç bir yerdən heç bir yardım almamışıq, heç bir kredit almamışıq, heç bir ianə, yaxud da ki, bir hədiyyə almamışıq, öz gücümüzə arxalanırıq, necə ki, həmişə belə yaşamışıq, gücümüz qədər nailiyyətlər də əldə etmişik.

Bu il də investisiya proqramı təsdiq olunub və proqrama əlavələr də ediləcək. Mən bu gün bunu bəyan etmək istəyirəm. Biz dövlət büdcəsinə əlavələr etməliyik, çünki iqtisadi göstəricilər daha yaxşıdır. Gəlirlərimiz nəzərdə tutulandan daha çoxdur. Ona görə biz bu əlavə gəlirləri və iqtisadi imkanlarımızı səfərbər etməliyik ki, vaxt itirmədən azad edilmiş torpaqlarda daha böyük həcmdə iş görək. İndi hökumətə tapşırılıb, yəqin yaxın gələcəkdə Milli Məclis bu məsələyə baxacaq ki, biz daha çox vəsait ayıraq. Mən demişəm, iqtisadiyyatımız nə qədər güclü inkişaf edərsə, biz azad edilmiş bütün əraziləri o qədər tez bərpa edəcəyik.

Ancaq hər kəs bilməlidir ki, bu, asan məsələ deyil. Azad edilmiş ərazilərin miqyası dörd Lüksemburq ölkəsi qədərdir, bir Livan ölkəsinə bərabərdir, yəni təsəvvür edin, nə qədər böyük iş nəzərdə tutulur. Onu da hamımız bilməliyik ki, minatəmizləmə işi hələ də davam edir və əlbəttə ki, burada hər şey, bütün ərazilər minalardan təmizlənib. Əlbəttə, burada yaşayacaq insanlar bunu nəzərə almalıdırlar ki, ancaq minalardan təmizlənmiş ərazilərə gedə bilərlər.

*Ardı 7-ci səh.*

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Zəngilan rayonuna səfəri

# İLHAM ƏLİYEV "Böyük Qayıdış"a start verdi

## Prezident və birinci xanım Mehriban Əliyeva Zəngilanda "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak ediblər

Əvvəli 6-cı səh.





Çünki bu təhlükə hələ də var, ermənilər həm işğal zamanı, həm də müharibədən sonra torpağımızdan çıxmaq üçün onlara vaxt verildiyi zaman yenə də bu çirkin əməllərə əl ataraq bir çox minalar basdırmışlar.

Bu gün biz Müstəqillik Günü ərəfəsində görüşürük. Onu da deməliyəm ki, keçən il Müstəqillik Günündə mən Ağdam şəhərində idim, Ağdam sakinləri ilə görüşmüşdüm və Ağdam şəhərinin Baş planını təsdiqləmişdim. Bu il də planlaşdırırdım ki, Müstəqillik Günündə burada olum. Ancaq bildiyiniz kimi, sabah qardaş ölkənin - Türkiyənin Prezidenti Azərbaycana gələcək və biz Müstəqillik Gününü bərabər qeyd edəcəyik. Ona görə mən bir gün əvvəl gəldim, amma yenə də Müstəqillik Günü ərəfəsində. Çünki bunun böyük rəmzi mənası var, budur müstəqillik, budur azadlıq. Xalqımız artıq 30 ildir ki, azad xalq kimi yaşayır və bütün əldə edilmiş nəticələr, o cümlədən Şanlı Qələbəmiz bax, bunun təməlindədir, bu müstəqilliyin təməlindədir. Ona görə müstəqillik ən böyük dəyərimizdir, sərvətimizdir, qoruyuruq və əbədi qoruyacağıq. Bu gün "Böyük Qayıdış" dediyimiz prosesə start verildi. "Böyük Qayıdış"ın birinci kiçik addımı, bax, bu gün atılır. Sizi təbrik edirəm.

* * *

Sonra xatirə şəkli çəkildi.

* * *

Görüşdən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Aqroservis" ASC tərəfindən təqdim edilən "ağıllı kənd təsərrüfatı" texnikaları ilə tanış oldular.

Məlumat verildi ki, "Ağıllı kənd" təsərrüfatı idarəetmə sistemində ən müasir texnoloji yeniliklər tətbiq olunacaq. Belə ki, burada yaradılacaq iqlim stansiyaları bitki xəstəlikləri ilə bağlı erkən xəbərdarlıq əldə etməyə, suvarmanı planlı şəkildə aparmağa və hava məlumatını almağa imkan verəcək. Bundan başqa, burada zərərvericilərin uzaqdan izlənilməsinə və əkin ərazilərinin, araşdırma sahələrinin mövsümi olaraq yüksəkkeyfiyyətli fotoşəkillərini çəkə bilən sistemlər də quraşdırılacaq.

Həmçinin heç bir sahə məhdudiyyəti olmadan sərbəst hərəkət edən və ərazidə təhlil aparan skaner, əməliyyatları səmərəli şəkildə həyata keçirmək üçün süni intellekt və proqnozlaşdırıcı analizə sahib platforma, məhsulun yetişdirilməsi zamanı ortaya çıxa biləcək problemləri vaxtında aşkarlaya biləcək dron texnologiyaları da yüksək məhsuldarlığın əldə olunmasında mühüm rol oynayacaq.

Diqqətə çatdırıldı ki, Zəngilan pivot suvarma sistemləri də ən müasir texnoloji yeniliklərlə təchiz olunacaq. Burada 5 pivot sistemi quraşdırılacaq ki, bu da 157 hektar ərazinin suvarılmasına imkan verəcək.

Daha sonra dövlət başçısı və birinci xanım "Arximed" tipli hidroelektrik stansiya, alternativ enerjinin istehsalı üçün süni göl və 62 nömrədən ibarət hotel kompleksində aparılan işlərlə tanış oldular. Məlumat verildi ki, süni gölün yaradılması üzrə qazma və 3-cü gil izolyasiya qatının kipləşdirilmə işləri başa çatdırılıb, 4-cü qat gil izolyasiya işləri davam edir.

Göründüyü kimi, Ağalı kəndində "Ağıllı kənd" konsepsiyasının hər üç komponenti - ağıllı dövlət idarəçiliyi, ağıllı infrastruktur və xidmətlər, eyni zamanda ağıllı təsərrüfat və biznes mühiti yaradılıb.

# İntensiv meyvə bağı ilə tanışlıq

**Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanış olublar.**





AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov ilə bağban Qalib Hümbətov dövlət başçısına və birinci xanıma intensiv meyvə bağında görülən işlər barədə məlumat verdilər.

Bildirildi ki, burada 40 hektar sahədə intensiv ərik bağı salınıb. Hər biri 10 hektar olmaqla 4 çeşiddə ting əkilib. Tinglərdən ikisi İspaniya çeşididir, ikisi isə yerli növdür. Gələcəkdə burada 60 hektar sahədə nektarin bağının salınması nəzərdə tutulur.

İntensiv meyvə bağında yetişdirilən məhsulu saxlamaq və çeşidləmək üçün Zəngilan Logistika Mərkəzi tikiləcək. Mərkəzdə tutumu 5 min ton olan 36 soyuducu kameradan ibarət saxlama anbarı, yetişdirmə kameraları, avtomatlaşdırılmış terminallar, qablaşdırma, çeşidləmə, tərəzi sahələri, yükdaşıma, nəqliyyat parkı və ofis binası yaradılacaq.

Qeyd edək ki, "Ağıllı təsərrüfat" "Ağıllı kənd" fəlsəfəsinin 3 sütunundan biridir. Burada toxumun seçimindən başlamış aqrotexniki qulluq məsələlərinə qədər hər bir detal nəzərə alınır, nəticədə vahid sahədən maksimum məhsul götürmək mümkün olur.

## Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilanın Ağalı kəndindən video paylaşıb



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Zəngilan rayonunun Ağalı kəndindən video paylaşıb.

AZƏRTAC paylaşımı təqdim edir: "Ağalı kəndi. Zəfər rəmzi, Sülh rəmzi".

## Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilanın Ağalı kəndindəki çörək sexindən paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Zəngilan rayonunun Ağalı kəndindəki çörək sexindən paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Ağalı kənd sakinləri üçün isti təndir çörəyi. Allah hər evə, hər ocağa bol ruzi-bərəkət nəsib etsin!"

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycan Respublikasının bütün vətəndaşlarına Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

Tarixin bu qeyri-adi məqamı bizə vahid bəşər ailəsi kimi həmrəylik şəraitində çalışmaq zərurətini xatırladır.

Hər bir ölkə öz milli sərhədlərindən daha uzaqlarda yaşanan çətinliklərin, o cümlədən COVID-19 pandemiyası nəticəsində artmış yoxsulluğun, bərabərsizliyin və ədalətsizliyin aradan qaldırılmasına, fövqəladə iqlim dəyişikliklərinin yaratdığı problemlərin və dünyamızı cənginə almış münaqişələrin həllinə kömək etməlidir.

Bu əlamətdar gündə Birləşmiş Millətlər Təşkilatı inanır ki, Azərbaycan Respublikasının bütün vətəndaşları çətinliklərə qalib gəlməyə, Davamlı İnkişaf Məqsədlərində irəliləyiş əldə olunmasının sürətlənməsinə, bütün insanlar üçün daha yaxşı, daha ədalətli, daha sülhpərvər dünya qurulmasına kömək edəcəklər.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Antonio QUTERREŞ,***
***BMT-nin Baş katibi***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sizə xoşbəxtlik və xalqınıza rifah arzularımı bildirməkdən böyük məmnunluq duyuram.

*Hörmətlə,*

***Əlahəzrət NARUHİTO,***
***Yaponiyanın İmperatoru***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Gürcüstan xalqı adından və şəxsən öz adımdan Sizə səmimi təbriklərimi çatdırıram.

1918-ci il ölkələrimiz üçün xüsusi tarixdir. Belə ki, 104 il əvvəl Gürcüstan və Azərbaycan eyni vaxtda müstəqillik əldə edərək öz qarşılarına güclü və azad dövlət qurmaq məqsədi qoydular. Bu fürsətdən istifadə edərək Azərbaycanın Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə göstərdiyi davamlı dəstəyə görə bir daha minnətdarlığımı bildirirəm.

Bu əlamətdar gündə vurğulamaq istərdim ki, Gürcüstan və Azərbaycanı tarixi dostluq, mehriban qonşuluq münasibətləri, eləcə də sıx strateji tərəfdaşlıq birləşdirir. Ölkələrimiz arasında dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə verdiyiniz böyük töhfəyə görə Sizə minnətdarlığımı bildirirəm. Əminəm ki, birgə səylərimizlə əməkdaşlığımızı daha da yüksək səviyyəyə qaldıracaq, həmçinin regionda sabitliyin, sülhün və təhlükəsizliyin möhkəmləndirilməsi üçün bundan sonra da bir çox səmərəli addımlar atacağıq.

Zati-aliləri, bir daha Sizə dərin ehtiramımı çatdırır, fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə sülh, firavanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına isə rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Şeyx Məhəmməd bin Zayed Al NƏHYAN,***
***Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Polşa xalqı adından və şəxsən öz adımdan Sizə, ölkənizin bütün vətəndaşlarına səmimi-qəlbdən təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

2022-ci ildə biz Polşa Respublikası ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünü qeyd edirik. Bu müddət ərzində çox yaxşı səviyyədə olan siyasi münasibətləri inkişaf etdirməyə, ticarət əlaqələrini, ənənəvi dostluğu və əməkdaşlığı dərinləşdirməyə nail olduq.

Azərbaycan Respublikası Cənubi Qafqaz regionunda bizim üçün mühüm tərəfdaşdır. 2017-ci ildə Varşavaya səfəriniz zamanı Polşa Respublikası ilə Azərbaycan Respublikası arasında imzalanmış Strateji Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə münasibətlərimizin inkişaf istiqamətlərini müəyyən edən sənəd olaraq qalır. Dövlətlərimiz, xalqlarımız arasında əlaqələrin və əməkdaşlığın istər ikitərəfli formatda, istərsə də beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı çərçivəsində bundan sonra da uğurla inkişaf edəcəyinə əminəm.

Cənab Prezident, icazə verin, milli bayramınız münasibətilə bütün Azərbaycan vətəndaşlarına bir daha təbriklərimi çatdırım.

*Dərin hörmətlə,*

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Biz Cənubi Qafqazda davamlı sülh, təhlükəsizlik, sabitlik və əmin-amanlığın əldə olunmasına yönələn bütün səyləri, o cümlədən aprelin əvvəlində Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə baş tutmuş uğurlu görüşü dəstəkləyirik.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə xoşbəxt və dinc gələcək arzulayıram.

***Aleksander Van der BELLEN,***
***Avstriya Respublikasının Federal Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Pakistan xalqı və hökuməti adından Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Bu il biz ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünü qeyd edirik. Ötən 30 il ərzində iki xalq arasında dostluq və qardaşlıq münasibətləri daha da güclənib. Əminəm ki, siyasi, iqtisadi və mədəni sahələr də daxil olmaqla, ikitərəfli əməkdaşlıqdakı qarşılıqlı maraqlar və sabit dinamika növbəti illərdə daha da inkişaf edəcək.

Pakistan Qarabağ müharibəsində Azərbaycanın haqq işini dəstəkləməkdən qürur duyur. Zati-alinizin Cənubi Qafqazda sülh və sabitliyin təşviqindəki şəxsi səylərini yüksək dəyərləndirirəm. Həmçinin hökumətinizə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulmasında və bərpasında uğurlar arzulayıram. Pakistan bu sahədə öz köməyini göstərməyə və təcrübəsini bölüşməyə hazırdır.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik diləyir, Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq arzu edirəm.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edin.

***Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Gürcüstan xalqı adından və şəxsən öz adımdan Sizi səmimi-qəlbdən təbrik edirəm. Sizə, Azərbaycan Respublikasına və onun xalqına rifah, uğurlar və uzun ömür arzulayıram.

Azərbaycan Respublikası müstəqilliyini əldə etdikdən sonra bir çox çətinlikləri dəf edərək uğurlu dövlət qurdu. Bu gün Azərbaycan Respublikası dünya birliyində ən layiqli yerlərdən birini tutmaqdadır.

Vurğulamaq istərdim ki, Gürcüstan ölkələrimiz arasında əsrlər boyu formalaşan nümunəvi dostluq əlaqələrinə və strateji tərəfdaşlığa çox böyük əhəmiyyət verir.

Bu əlamətdar gündə Gürcüstan ilə Azərbaycan Respublikası arasında mövcud olan sıx əməkdaşlığın daha da dərinləşməsinə töhfələr verməyə hazır olduğumu bir daha bildirirəm. Əminəm ki, birgə səylərimizlə, regionda sabitliyin möhkəmlənməsi və iqtisadi tərəqqinin təmin olunması üçün bundan sonra da bir çox səmərəli addımlar atacağıq.

Zati-aliləri, fürsətdən istifadə edərək bir daha Sizə dərin ehtiramımı ifadə edir, Sizə və qardaş Azərbaycan xalqına cansağlığı, sülh, əmin-amanlıq, rifah diləyirəm.

***İrakli QARİBAŞVİLİ,***
***Gürcüstanın Baş naziri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Zati-alinizə möhkəm cansağlığı, səadət, Azərbaycan hökumətinə və dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Məhəmməd bin Rəşid Al MƏKTUM,***
***Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri və Dubayın hökmdarı***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və hökuməti adından Sizə və böyük Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

Bu xoş fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzu edirəm.

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - müstəqilliyinizin 104-cü ildönümü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Sizə ən xoş arzularımı bildirir, ölkənizə və xalqınıza firavanlıq, əmin-amanlıq, tərəqqi diləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Sauli NİİNİSTÖ,***
***Finlandiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümü - Müstəqillik Günü münasibətilə San-Marino xalqı adından və şəxsən öz adımızdan zati-alinizə və dost Azərbaycan xalqına ən xoş arzularımızı çatdırırıq.

Zati-aliləri, bu əlamətdar gündə Sizə ən yüksək ehtiramımızı bildirir, uğurlar arzulayır, bütün Azərbaycan xalqına firavanlıq və rifah dolu gələcək diləyirik.

*Hörmətlə,*

***Oskar Mina və Paolo RONDELLİ,***
***San-Marino Respublikasının Kapitan-Regentləri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə və dost Azərbaycan xalqına davamlı tərəqqi və rifah arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasında səmimi dostluq əlaqələrinin möhkəmləndirilməsi üçün Sizinlə birgə işləməyə hazır olduğumu bir daha vurğulayıram.

*Dərin hörmətlə,*

***Məkki SALL,***
***Seneqal Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Müstəqillik Günü münasibətilə Hindistan hökuməti və xalqı adından, şəxsən öz adımdan zati-alinizə, Azərbaycan hökumətinə və xalqına səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Hindistan ilə Azərbaycan arasında tarixi və mədəni əlaqələr mövcuddur. Bu il diplomatik əlaqələrimizin qurulmasının 30 illiyi tamam olur. Ötən 30 il ərzində əlaqələrimiz xüsusilə iqtisadi sahədə yaxşı inkişaf edib. Münasibətlərimizi qarşılıqlı anlaşma və maraq üzərində qurmaq olduqca vacibdir.

Zati-aliləri, fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, dost Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıram.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Ram Nat KOVİND,***
***Hindistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və qardaş Azərbaycanın bütün xalqına səmimi təbriklərimi və ən xoş arzularımı bildirməyi özümə şərəf sayıram.

Biz Azərbaycan Respublikasının bu illər ərzində qazandığı uğurlara görə sevinir və ikitərəfli münasibətlərimizi bundan sonra da dərinləşdirməyə hazır olduğumuzu bildiririk. Dövlətlərimiz arasında mehriban qonşuluq münasibətlərinin ardıcıl olaraq yaxşılaşmasında Sizin şəxsi xidmətlərinizi xüsusi qeyd etmək istərdim.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Dərin hörmətlə,

***Qurbanqulu BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Qaraçay-Çərkəz Respublikasının çoxmillətli xalqı adından və şəxsən öz adımdan Sizi və günəşli Azərbaycanın bütün sakinlərini Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan əcdadların ənənələrinin müasir həyatda heyrətamiz şəkildə birləşdiyi dövlətdir. Onu əminliklə dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatlardan biri adlandırmaq olar. Şübhəsiz ki, bu, təkcə bu ölkənin çoxşaxəli iqtisadiyyatı və əlverişli coğrafi mövqeyi ilə deyil, həm də onun investorları və turistləri cəlb edən bənzərsiz insanlarının əməksevərliyi və qonaqpərvərliyi ilə bağlıdır. Əminəm ki, Azərbaycanın və Qaraçay-Çərkəz Respublikasının ikitərəfli əməkdaşlığı bundan sonra da respublikalarımızın sosial-iqtisadi inkişafına şərait yaradacaq və xalqlarımızın mənafelərinə xidmət edəcək.

Sizə və Azərbaycanın bütün sakinlərinə səmimi-qəlbdən xoşbəxtlik, uğurlar, əmin-amanlıq və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

***Rəşid TEMREZOV,***
***Rusiya Federasiyasının Qaraçay-Çərkəz Respublikasının başçısı***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

İcazə verin, Moldova Respublikasının Qaqauz Yeri Muxtar Ərazi Qurumunun İcraiyyə Komitəsi adından və şəxsən öz adımdan Sizə dərin hörmət və ehtiramımı bildirim.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 104 illiyi münasibətilə səmimi təbriklərimi qəbul edin. Bu bayram Azərbaycan xalqının azadlıq və müstəqilliyinin, dövlətin çoxəsrlik inkişaf yolunun rəmzinə çevrilib.

Konstitusiya Azərbaycan Respublikasının dövlət suverenliyinin və siyasi quruluşunun möhkəm təməlini müəyyənləşdirib, vətəndaşların sosial hüquqlarına zəmanət təmin edib, tarixi-mədəni və mənəvi irsin qorunub saxlanması və zənginləşdirilməsi üçün şərait yaradıb.

Milli bayramınız -Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edir, zati-alinizə möhkəm cansağlığı, firavanlıq, Azərbaycan xalqına isə sülh və tərəqqi arzulayıram.

Qaqauz Yeri Muxtar Ərazi Qurumunun rəhbərliyi öz növbəsində Azərbaycan Respublikası ilə əməkdaşlığı yüksək qiymətləndirir və ümidvar olduğunu bildirir ki, ikitərəfli münasibətlərimiz xalqlarımızın rifahı naminə bundan sonra da möhkəmlənəcək və genişlənəcək.

Möhtərəm cənab Prezident, fürsətdən istifadə edərək bir daha Sizə dərin ehtiramımızı bildirir, Qaqauz Yeri Muxtar Ərazi Qurumuna diqqətinizə görə təşəkkürümüzü ifadə edirik.

*Dərin hörmət və ən xoş arzularla,*

***İrina VLAX,***
***Moldova Respublikasının Qaqauziya Muxtar Ərazi Qurumunun (Qaqauz Yeri) rəhbəri***

❖ ❖ ❖

Möhtərəm İlham Heydər oğlu!

Azərbaycan Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan sosial-iqtisadi inkişafda sanballı uğurlar qazanıb və beynəlxalq aləmdə mövqelərini möhkəmləndirib.

İcazə verin, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, Azərbaycanın gələcək inkişafı və tərəqqisi naminə məsul fəaliyyətinizdə tükənməz enerji və yeni-yeni uğurlar arzulayım.

*Dərin hörmətlə,*

***Tatyana ANODİNA,***
***Dövlətlərarası Aviasiya Komitəsinin sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

"Azİz" Beynəlxalq İsrail-Azərbaycan Assosiasiyası İsraildə yaşayan çoxminli Azərbaycan icması adından Sizi Müstəqillik Günü münasibətilə təbrik edir.

Şərqdə ilk demokratiya - Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən əsası qoyulmuş dövlət idarəçiliyi ənənələrini sonrakı dövrdə Azərbaycan xalqının Ümummilli Lideri dahi Heydər Əliyev bərpa etmiş və Siz həmin ənənələri davam etdirirsiniz.

Bugünkü Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tamhüquqlu varisi və siyasi davamçısıdır. Müxtəlif millətlərin və dini konfessiyaların nümayəndələri indi də Azərbaycanda bərabərhüquqlu şəkildə yaşayırlar. Bu, bizim Vətənimizi bir sıra başqa ölkələrdən xüsusilə fərqləndirir.

Sizin Prezident vəzifəsində fəaliyyətinizin lap əvvəlindən Azərbaycan dəyişməyə başlayıb. Sizin müdrik və uzaqgörən siyasətiniz sayəsində Azərbaycan regionda və onun hüdudlarından kənarda nüfuz və iqtisadi cəlbedicilik qazanıb.

Biz, İsraildə yaşayan Azərbaycan icması öz Vətənimizlə həmişə fəxr etmişik. Lakin indi, Sizin rəhbərliyinizlə Azərbaycanın işğalçıları qovduğu və Vətən müharibəsində qalib gəldiyi vaxtda biz daha aydın başa düşürük ki, bu, ilk növbədə Sizin xidmətinizdir və bütün bunlara görə Sizə təşəkkür edirik.

Əziz İlham Heydər oğlu, Sizi və Sizin timsalınızda bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirik.

Azərbaycan xalqına sülh, firavanlıq və xoşbəxtlik arzulayırıq.

*Dərin hörmətlə,*

***Lev SPİVAK,***
***"Azİz" Beynəlxalq İsrail-Azərbaycan Assosiasiyasının prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun rəhbərliyi və çoxmillətli kollektivi adından Sizi təbrik edirəm.

Fürsətdən istifadə edərək Azərbaycanla bizim beynəlxalq hökumətlərarası elmi-tədqiqat təşkilatı arasında ənənəvi möhkəm və səmərəli əməkdaşlığı vurğulamaq istərdim.

Hazırda geosiyasi vəziyyətin qeyri-sabit olmasına baxmayaraq, çətin tarixi dövrlərə davam gətirməyi bacarmış və dünya elm ictimaiyyətinin nümayəndələri arasında qarşılıqlı fəaliyyəti həyata keçirmək üçün nadir platforma statusunu inamla qazanmış Birləşmiş Nüvə Tədqiqatları İnstitutu yenə də sabitlik adası kimi qalmaqdadır.

Ümidvaram ki, hazırda mövcud olan təhdidlər də aradan qaldırılacaq, bizim qarşılıqlı faydalı tərəfdaşlığımız bundan sonra da Azərbaycanın və Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun elmi ictimaiyyətinin rifahı naminə konstruktiv əsasda inkişaf edəcəkdir.

İcazə verin, Azərbaycan Respublikasına tərəqqi, onun bütün vətəndaşlarına möhkəm cansağlığı, sabitlik, sülh və həmrəylik arzulayım.

*Dərin hörmət və səmimiyyətlə,*

***Qriqori TRUBNİKOV,***
***Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru, Rusiya Elmlər Akademiyasının akademiki***

❖ ❖ ❖

Zati-aliləri!

Biz ölkənizin milli bayramı - Müstəqillik Gününü Azərbaycan xalqı ilə birgə qeyd edir və bu münasibətlə zati-alinizə, Birinci vitse-prezidentə təbriklərimizi çatdırırıq.

Dünyanın qarşılaşdığı təhdid və çağırışlara baxmayaraq, Azərbaycanın ötən otuz il ərzində qazandığı böyük nailiyyətləri yüksək qiymətləndiririk.

Cənab Prezident, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin yaradılması, inkişafı və beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində göstərdiyiniz səylərə görə Sizə səmimi-qəlbdən minnətdarlığımızı çatdırmaq istərdik. İnanırıq ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin gücləndirilməsi işini birgə davam etdirəcəyik və daha uğurlu nailiyyətlərə imza atacağıq.

Bu ilin iyun ayında IX Qlobal Bakı Forumunda iştirak etməyi və Sizinlə yenidən görüşməyi səbirsizliklə gözləyirik.

Cənab Prezident, xahiş edirik ən yüksək ehtiramımızı qəbul edin.

*Dərin hörmətlə,*

***Vayra Vike-FREYBERQA,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti***

***İsmail SERAGELDİN,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri, 1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti***

***Rosen PLEVNELİYEV,***
***2012-2017-ci illərdə Bolqarıstanın Prezidenti***

***Əmr MUSA,***
***2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi***

***Petar STOYANOV,***
***1997-2002-ci illərdə Bolqarıstanın Prezidenti***

***İv LÖTERM,***
***2008, 2009-2011-ci illərdə Belçikanın Baş naziri***

***Zlatko LAQUMCİYA,***
***2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri***

***Eka TKELAŞVİLİ,***
***2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini***

***Katerina YUŞŞENKO,***
***2005-2010-cu illərdə Ukraynanın birinci xanımı***

***İvo YOSİPOVİÇ,***
***2010-2015-ci illərdə Xorvatiyanın Prezidenti***

***Filip VUYANOVİÇ,***
***2003-2018-ci illərdə Monteneqronun Prezidenti***

***Boris TADİÇ,***
***2004-2012-ci illərdə Serbiyanın Prezidenti***

***Rövşən MURADOV,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Baş katibi***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Biz, Azərbaycandakı dini konfessiyaların rəhbərləri zati-alinizi - dünyaşöhrətli müzəffər siyasi lideri 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik etməkdən şərəf duyur, Azərbaycan xalqı və dövləti naminə şərəfli fəaliyyətinizdə Ulu Yaradandan Sizə uğurlar diləyirik.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqının tarixində ən şanlı və parlaq səhifələrdən biri XX əsrin əvvəllərində istiqlaliyyətini elan etməsi olmuşdur. Böyük tarixi hadisə - 1918-ci il mayın 28-də Şərqdə ilk demokratik dövlət quruluşu kimi yaranmış Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın müstəqillik tarixinin başlanğıcı olmaqla, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmişdir.

Möhtərəm cənab Prezident, ilk növbədə Sizə Azərbaycan xalqının tarixi dəyərlərinə münasibətdə önəmli addım - 28 mayın Müstəqillik Günü kimi qeyd olunması ilə bağlı imzaladığınız tarixi əhəmiyyətli sərəncama görə dərin minnətdarlığımızı bildirir, zati-alinizin Azərbaycan dövlətçiliyi naminə dəyərli fəaliyyətinə Uca Yaradandan rəvac diləyirik. Xalqımız müstəqillik bayramının sevincini Vətən müharibəsindəki Zəfərinin qüruru ilə daha möhtəşəm yaşayır. Azərbaycan xalqının haqq mübarizəsinin qalibiyyət dastanını dünya tarixinin səhifələrinə möhtəşəm Zəfər günü ilə həkk etmiş şəxsiyyət olaraq bu bayramın sevinc və şərəfini ən çox haqq edən məhz zati-alinizdir. Tarixi ədalətin bərpası - əzəli Azərbaycan torpaqlarının işğaldan azad edilməsi istiqamətində Ali Baş Komandan kimi rəhbərliyinizlə qələbə qazandığımız Vətən müharibəsi müstəqilliyimizin təntənəsinin təcəssümü oldu. Azərbaycan Ordusunun gücünə, Azərbaycan xalqının sarsılmaz həmrəylik və iradəsinə, dövlət-xalq birliyinə güvənən müzəffər sərkərdə olaraq Sizin dünya miqyasında apardığınız fəal, inamlı siyasət ölkəmizin haqq işinin davamlı qələbəsini təmin etdi. Uca Yaradanın köməyi, dövlət rəhbərimizin qətiyyəti, ordumuzun rəşadəti ilə Azərbaycanın Dövlət Bayrağı azad Qarabağda dalğalandı, məscidlərin minarələrindən azan səsləri ucaldı, müqəddəs məbədlərimiz əsarətdən qurtuldu.

Möhtərəm cənab Prezident, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etdi və bu dövlət 23 ay yaşadı. Müstəqilliyini bərpa etmiş Azərbaycan xalqının XXI əsrdə zati-alinizin rəhbərliyi, müdrik, çoxşaxəli siyasəti sayəsində qazandığı böyük nailiyyətlər, həyata keçirdiyi müstəqil daxili və xarici siyasət, dövlətimizin yalnız regionda deyil, beynəlxalq miqyasda da söz sahibi olan bir ölkə kimi tanınması əminliklə söyləməyə əsas verir ki, Azərbaycan dövlət müstəqilliyini bir daha heç vaxt əldən verməyəcək, müstəqilliyimiz əbədi olacaq.

Möhtərəm cənab Prezident, Azərbaycan dünya miqyasında qalib ölkə, Azərbaycan xalqını Zəfər çalmış xalq yüksəkliyinə qaldıran, Qarabağ Zəfərinin müəllifi olan Zati-aliniz xalqın dəstəyini, həmrəyliyini, sonsuz məhəbbətini və dərin etimadını qazanmışdır. Müstəqillik Günü bizə xoş fürsət verir ki, Sizin Azərbaycan dövləti və cəmiyyəti üçün böyük xidmətlərinizə görə cənabınıza bütün Azərbaycan dindarlarının dərin təşəkkür və minnətdarlığını bir daha ifadə edək.

Qürurverici haldır ki, azərbaycançılıq məfkurəsinin ayrılmaz tərkib hissəsi, müxtəlif etnik və dini mənsubiyyət daşıyıcısı olan Azərbaycan vətəndaşlarının mənəvi harmoniya şəraitində bir ailənin üzvləri kimi xoşbəxt yaşamalarını təmin edən multikultural ənənələrimiz dünyanın müxtəlif yerlərində yaşayan azərbaycanlılarla vəhdətdə Azərbaycan dövlətinin qüdrətini sarsılmaz etmişdir. İşğaldan azad olunmuş Azərbaycan torpaqlarında erməni vandalizminin acı nəticələrini - vəhşicəsinə dağıdılmış şəhər və kəndləri seyr etmək nə qədər ağır olsa da, Sizin ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birlikdə həmin məkanların tezliklə bərpası istiqamətində həyata keçirdiyiniz genişmiqyaslı quruculuq işləri, Allah evlərinin, məbəd və ibadət məkanlarının yenidən inşa-bərpası ilə bağlı iradəniz və fəaliyyətiniz bizi hədsiz sevindirir. Qısa zamanda Azərbaycanın Qarabağ torpaqları Sizin möhkəm siyasi iradəniz sayəsində öz yeni, nəfis görkəmi, möhtəşəm infrastruktur, yol layihələri, abad şəhər və kəndləri, beynəlxalq hava limanları ilə hər birimizi sevindirir. Uca Yaradan qalibiyyətli Vətən müharibəmizdə bir yumruq kimi birləşmiş müxtəlif millətlərin və dinlərin təmsilçiləri olan bütün şəhidlərə rəhmət eləsin.

Möhtərəm cənab Prezident, Azərbaycan dindarları Sizin xalq naminə gördüyünüz işləri yüksək dəyərləndirir, Uca Yaradanın lütfü, dövlətimizin başçısının rəhbərliyi ilə gələcəyimizə ümidlə baxır, zati-alinizi və Azərbaycanın əmin-amanlığını, tərəqqisini təmin edən siyasi dəst xətinizi hər zaman dəstəkləyirlər. Dini konfessiya rəhbərləri olaraq Sizə ölkə daxilində və beynəlxalq müstəvidə təqdirəlayiq fəaliyyətinizə, Azərbaycandakı din-dövlət münasibətlərinin yüksək səviyyədə təmin olunması istiqamətində əməli addımlarınıza görə təmsil etdiyimiz icmalar adından dərin minnətdarlığımızı bildirir, Uca Yaradandan bütün əməllərinizə xeyir-dualar diləyirik. Dualarımız hər zaman Zati-alinizlədir!

Möhtərəm cənab Prezident, ölkə dindarları adından Sizi Müstəqillik Günü münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, Sizə və dəyərli ailənizə cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar diləyirik. Qoy bu əlamətdar bayram dövlətimizin və xalqımızın regionda və dünyada yeni nailiyyət və uğurlarına vəsilə olsun! O bir olan Yaradanımız hər zaman yardımçınız olsun, öz lütf və mərhəmətini Azərbaycan xalqı və dövləti üzərində daim bərqərar etsin, Azərbaycanı və bütün Yer kürəsini hifz etsin! Amin!

*Dərin hörmət və ehtiramla,*

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların Məşvərət Şurasının sədri***

***Milix YEVDAYEV,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri***

***Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol Prefekturasının ordinarisi***

***Arximandrit ALEKSİY,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri***

***Robert MOBİLİ,***
***Azərbaycandakı Alban-Udi Xristian Dini İcmasının sədri***

# Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxaraq, məhkumların şəxsiyyətini, səhhətini, ailə vəziyyətini, törətdikləri cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini, cəza çəkdikləri müddəti və həmin müddətdə davranışlarını nəzərə alaraq, humanizm prinsiplərinə əsaslanaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

1.1. Abbasov Əli Əhəd oğlu, 1977-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2018-ci il 12 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.2. Abdullayev Xəyal Əfqan oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Hərbi Məhkəməsinin 2019-cu il 18 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.3. Abdullayev İsa Bilal oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 15 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.4. Abdullayev Nüslət Namaz oğlu, 1960-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2019-cu il 9 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.5. Abdullayev Orxan Xusaməddin oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 31 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.6. Abdullayev Şamil Famil oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2020-ci il 22 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.7. Ağayev Pərvin Nadir oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 18 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.8. Ağa-zadə Qəfər Telman oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il 4 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.9. Akçurin Ruslan Arifulla oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.10. Alıyev Cahangir Murad oğlu, 1964-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tovuz Rayon Məhkəməsinin 2018-ci il 24 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.11. Alıyev Natiq Allahverdi oğlu, 1978-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Hərbi Məhkəməsinin 2018-ci il 23 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.12. Allahverdiyev Çingiz Tapdıq oğlu, 1976-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2015-ci il 25 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.13. Allahverdiyev Namiq Məmmədxan oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 22 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.14. Allahverdiyev Vüqar Rauf oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.15. Allahverdiyev Vüsal Tahir oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2019-cu il 4 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.16. Atayev Rəsul İbrahim oğlu, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2019-cu il 19 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.17. Atayev Vüsal Elqar oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 23 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.18. Aydınov Mahmud Əsgər oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 11 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.19. Baxışov Baxış Qoşqar oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Quba Rayon Məhkəməsinin 2018-ci il 17 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.20. Balagözov Vaqif Həmzət oğlu, 1966-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2018-ci il 30 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.21. Baradov Rövşən Abdulla oğlu, 1969-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 24 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.22. Bayramov Əlövsət Səttar oğlu, 1968-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 23 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.23. Bayramov Tural Arzu oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.24. Bəkirov Məmməd Səfər oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 14 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.25. Binyətov Rasim Gündüz oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 29 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.26. Cavadov Asif Əli oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 30 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.27. Cəfərova Züleyxa Rəşid qızı, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 23 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.28. Cəmilov Adil İbrahim oğlu, 1968-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2013-cü il 30 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.29. Cıqqarov Nadir Adil oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2009-cu il 29 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.30. Diniyev Elməddin Ramiz oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2019-cu il 14 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.31. Eynullayev Camal Bəşir oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 20 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.32. Eyyubov Namiq Qasım oğlu, 1973-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 21 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.33. Əbilov Nahid Əhmədağa oğlu, 1974-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Astara Rayon Məhkəməsinin 2019-cu il 4 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.34. Əhmədov Şükür Vidadi oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tovuz Rayon Məhkəməsinin 2018-ci il 5 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.35. Əkbərov Nizami Yusif oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.36. Ələkbərov Hilal Cavid oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Salyan Rayon Məhkəməsinin 2020-ci il 11 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.37. Ələkbərzadə Yusif Natiq oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il 24 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.38. Əliyev Baba Əlixan oğlu, 1982-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Hərbi Məhkəməsinin 2016-cı il 12 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.39. Əliyev Bəhruz İmanqulu oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 5 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.40. Əliyev Əli Pirəli oğlu, 1961-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 26 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.41. Əliyev Xalid Zöhrab oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 16 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.42. Əliyev Qafil Qardaş oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Rayon Məhkəməsinin 2018-ci il 12 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.43. Əliyev Mehman İbadulla oğlu, 1971-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2013-cü il 21 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.44. Əliyev Məhəddin Mürsəl oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Rusiya Federasiyası Komi Respublikası Usinsk Şəhər Məhkəməsinin 2016-cı il 23 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.45. Əliyev Mirzə-Ağa Yaşar oğlu, 1966-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 17 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.46. Əliyev Rəhman Xankişi oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 29 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.47. Əliyev Seymur Ceyhun oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.48. Əliyev Yusif Aslan oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 29 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.49. Əlizadə Elvin Zöhrab oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 18 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.50. Əmirov Sənan Arif oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Cəlilabad Rayon Məhkəməsinin 2019-cu il 2 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.51. Əsədov Mərdan Rəşid oğlu, 1960-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Rusiya Federasiyası Moskva vilayətinin Vidnoe Şəhər Məhkəməsinin 2015-ci il 17 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.52. Əsədov Zahir Əsəd oğlu, 1964-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il 14 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.53. Əsədullayev Xaqani Vidadi oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2020-ci il 24 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.54. Əsgərov Rizvan İsmixan oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 12 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.55. Əşrəfov Vaqif Arif oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.56. Əzizov Həmzət İbrahim oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Hərbi Məhkəməsinin 2016-cı il 1 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.57. Əzizov Mirxalid Qiyas oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 20 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.58. Əzizov Mübariz Eyvaz oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 14 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.59. Feyziyev Zəfər Ağamirzə oğlu, 1974-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2012-ci il 10 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.60. Feyzullayev İlkin Yaşar oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 3 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.61. Fərəcov Rizvan Fəxrəddin oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Neftçala Rayon Məhkəməsinin 2019-cu il 14 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.62. Fətullayev Niyaməddin Şakir oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2018-ci il 18 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.63. Gülmətov Şamil Zeynal oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il 12 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.64. Hacıyev Maarif Cəmşid oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.65. Hacıyev Taleh Mübariz oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il 19 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.66. Hadıyev Elməddin Xəlil oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2018-ci il 27 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.67. Heydərli Hüseyn Cavanşir oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 13 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.68. Heydərov Həbibulla Rüfət oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 15 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.69. Hənifəyev Heybət Səmid oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 17 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.70. Həsənov Dünyamalı Ələmqulu oğlu, 1958-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2010-cu il 7 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.71. Həsənov Elvin Musa oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 15 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.72. Həsənov Ruslan Rizvan oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.73. Hüseynov Əli Vüqar oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şirvan Apellyasiya Məhkəməsinin 2013-cü il 27 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.74. Hüseynov İlqar Hümbət oğlu, 1968-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 12 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.75. Hüseynov İlyas Namiq oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Hərbi Məhkəməsinin 2019-cu il 21 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.76. Hüseynov Məhəmməd Əliəsgər oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 25 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.77. Hüseynov Nazir Məhəmməd oğlu, 1957-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 2019-cu il 28 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.78. Hüseynov Nicat Vidadi oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Hərbi Məhkəməsinin 2020-ci il 5 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.79. Hüseynov Rauf Yaşar oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2018-ci il 27 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.80. Hüseynov Vasif Hicran oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 21 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.81. Hüseynov Vüsal Camaləddin oğlu, 1982-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 2018-ci il 14 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.82. Hüseynova Əfsanə Fəxrəddin qızı, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 29 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.83. Hüseynzadə Fəqan Əfqan oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2018-ci il 2 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.84. Hüseynzadə Mirsalam Valeh oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 5 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.85. Xudiyev Natiq Əlizamin oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2018-ci il 14 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.86. İbrahimov İbrahim Məhərrəm oğlu, 1975-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Siyəzən Rayon Məhkəməsinin 2018-ci il 20 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.87. İbrahimov Sərraf Nazim oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 28 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.88. İmanov Natiq Tofiq oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 28 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.89. İmanov Niyazi Hüseyn oğlu, 1960-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2018-ci il 19 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.90. İsabayev Nizamiddin Fazliddinoviç, 1978-ci ildə anadan olmuş, Özbəkistan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2013-cü il 27 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.91. İsmayılov Natiq Ramis oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2018-ci il 20 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.92. İsmayılov Vasif Nəzər oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Salyan Rayon Məhkəməsinin 2018-ci il 5 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.93. İsmayılzadə Yavər Azər oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Apellyasiya Məhkəməsinin 2019-cu il 23 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.94. Kazımov Tahir Nizami oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2018-ci il 26 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.95. Kərimov Aydın Akif oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Abşeron Rayon Məhkəməsinin 2018-ci il 24 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.96. Kərimov Hidayət Hilal oğlu, 1963-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 2018-ci il 18 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.97. Kərimov Pərvin Duman oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 25 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.98. Kondakçı Resul, 1972-ci ildə anadan olmuş, Türkiyə Respublikasının vətəndaşı, Balakən Rayon Məhkəməsinin 2021-ci il 8 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.99. Qaraxanov Eldəniz Qaraxan oğlu, 1976-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2019-cu il 11 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.100. Qarazadə Qənbər Cabbar oğlu, 1998-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Apellyasiya Məhkəməsinin 2019-cu il 23 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.101. Qədirov Sahib Məhəmməd oğlu, 1965-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 13 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.102. Qəhrəmanov Mahir Zahil oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 19 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.103. Qələndarov Vüqar İntiqam oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 30 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.104. Qəribov Orxan İlham oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Şəhəri Məhkəməsinin 2019-cu il 10 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.105. Quliyev Elman Telman oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 1 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.106. Quliyev Əli Yusif oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 12 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.107. Quliyev Faiq Şahin oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 21 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.108. Quliyev Kamal Qüdrət oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.109. Quliyev Kənan Ruslan oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il 1 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.110. Quliyev Teymur Rəcəb oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Hərbi Məhkəməsinin 2018-ci il 23 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.111. Qurbanlı Xəyyam Şahin oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 27 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.112. Qurbanov Əkrəm Pənah oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2018-ci il 22 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.113. Qüdrətli Elvin Yusif oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Hərbi Məhkəməsinin 2015-ci il 5 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.114. Mahmudov Ramin, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 17 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

1.115. Manafov İlkin Hüsən oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 6 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.116. Mayılzadə Kənan Asif oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2015-ci il 7 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.117. Mehdiyev Elmir Ədalət oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 21 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.118. Mehdiyev Samir Novruz oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2020-ci il 27 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.119. Məhərrəmov Kamal Nasir oğlu, 1971-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.120. Məhərrəmov Kənan Faiq oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Kürdəmir Rayon Məhkəməsinin 2019-cu il 20 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.121. Məmmədov Fərrux Aləddin oğlu, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 14 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.122. Məmmədov Fizuli Mustafa oğlu, 1965-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2019-cu il 11 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.123. Məmmədov Həsən Məmməd oğlu, 1964-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Culfa Rayon Məhkəməsinin 2018-ci il 30 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.124. Məmmədov Kamran Bahadır oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 29 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.125. Məmmədov Məmməd İbrəhim oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sabirabad Rayon Məhkəməsinin 2018-ci il 10 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.126. Məmmədov Müşfiq Yaqub oğlu, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 10 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.127. Məmmədov Orxan Ələşrəf oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 15 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.128. Məmmədov Seymur Nizami oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 8 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.129. Məmmədov Səlim İmran oğlu, 1962-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Hərbi Məhkəməsinin 2017-ci il 30 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.130. Məmmədov Tərlan Sədi oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2010-cu il 3 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.131. Məmmədov Yasin Rəşid oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nəsimi Rayon Məhkəməsinin 2018-ci il 8 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.132. Məmmədov Zabil Qabil oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Apellyasiya Məhkəməsinin 2019-cu il 23 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.133. Məmmədov Zaur Balış oğlu, 1978-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2009-cu il 4 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.134. Mikayılov Kamran Əflan oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nizami Rayon Məhkəməsinin 2019-cu il 27 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.135. Mirzəyev Eynulla İldırım oğlu, 1982-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2018-ci il 12 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.136. Muradov Habil Dövlətəli oğlu, 1981-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Quba Rayon Məhkəməsinin 2017-ci il 21 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.137. Musayev Coşqun Firuz oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 22 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.138. Mustafayev Mehdi Qənimət oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Tərtər Hərbi Məhkəməsinin 2019-cu il 4 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.139. Mustafayev Nurəddin Novruz oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 11 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.140. Namazov Şahin Həsənqulu oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 15 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.141. Nəbiyev Bilal Mirzəyeviç, 1971-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 2 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.142. Nəzirov Şükran Faiq oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2017-ci il 10 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.143. Novzurov Hüseyn Sevindik oğlu, 1973-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 1 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

1.144. Orucov Urxan Əli oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 8 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

*Ardı 10-cu səh.*

# Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

*Əvvəli 9-cu səh.*

1.145. Rejerov Şam Möjekoviç, 1995-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 27 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.146. Rəsulov Bəxtiyar Səmimət oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 15 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.147. Rüstəmli Ələkbər Namiq oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il 26 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.148. Rüstəmov Elman İlham oğlu, 1997-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 1 mart tarixli hökmü ilə məhkum edilmişdir.

1.149. Rüstəmov Möhüb Mirzə oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2019-cu il 5 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

1.150. Rüstəmov Saleh Məhərrəm oğlu, 1963-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 27 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.151. Rzayev Əli Hüseyn oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.152. Rzayev Şahlar Eldar oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.153. Sadıqov Əfqan Hətəmxan oğlu, 1976-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 3 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.154. Seyidov Mirkənan Mirsənan oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 6 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.155. Səmədov Süleyman Seymur oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 16 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.156. Səmədzadə Şəmsi Səməd oğlu, 1966-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağır Cinayətlərə Dair İşlər üzrə Azərbaycan Respublikası Məhkəməsinin 2000-ci il 29 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.157. Shahlacheshm Charzehkhoun Hossein Mozaffar, 1977-ci ildə anadan olmuş, İran İslam Respublikasının vətəndaşı, Astara Rayon Məhkəməsinin 2019-cu il 19 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.158. Süleymanov Raul Fazil oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.159. Şahbazov Əli Qəşəm oğlu, 1964-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2012-ci il 18 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.160. Şahsuvarov Famil Naməddin oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 8 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.161. Şıxəliyev Əbülfəz Telman oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 19 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

1.162. Umudov Paşa Balamirzə oğlu, 1963-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2020-ci il 7 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

1.163. Verdiyev Toğrul Mahir oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.164. Vəlizadə Şahin İlqar oğlu, 2000-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 6 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.165. Yağnəliyev Orxan Zakir oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 22 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

1.166. Yediyarov Əlişan Mais oğlu, 1999-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 22 may tarixli hökmü ilə məhkum edilmişdir.

1.167. Yusifov Elmir Elman oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin 2019-cu il 12 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

1.168. Zalov Mətləb Libarid oğlu, 1975-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 20 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

2. Azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş aşağıdakı şəxslərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılsın:

2.1. Abbasov Samir Əlikram oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 5 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

2.2. Abdullayev Ruslan Ağahüseyn oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 21 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.3. Abdullayev Tural Cəlil oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 29 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

2.4. Ağayev Xəqani Qardaşəli oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 25 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

2.5. Axundov Səxavət Zahid oğlu, 1965-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 2 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

2.6. Alıyev Azad Kərəm oğlu, 1975-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 11 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

2.7. Allahverdiyev Mahir Müşkül oğlu, 1955-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 12 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.8. Bağırov Ramil Fərrux oğlu, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 14 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.9. Çobanzadə Əlibaba Elmidar oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il 2 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.10. Əliyev Pərvaz Elvaz oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 7 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.11. Əmirov İsmayıl Eldar oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 12 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

2.12. Fərzəliyev Saleh Əlövsət oğlu, 1987-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Sumqayıt Apellyasiya Məhkəməsinin 2015-ci il 26 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

2.13. Həmzəyev Eynulla Fərhad oğlu, 1996-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xəzər Rayon Məhkəməsinin 2020-ci il 22 may tarixli hökmü ilə məhkum edilmişdir.

2.14. Həsənov Əzəmət Vəli oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 18 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

2.15. Həsənov Şamil Bəhrəm oğlu, 1983-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 4 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

2.16. Xəlilov Rəşad Bəxtiyar oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 16 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.17. Xudiyev Ələsgər Xudu oğlu, 1956-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2015-ci il 9 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

2.18. İbrahimov Qurban Rafət oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 5 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

2.19. İsmayılov Mahir Hüseynxan oğlu, 1966-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Hacıqabul Rayon Məhkəməsinin 2020-ci il 25 iyun tarixli hökmü ilə məhkum edilmişdir.

2.20. İsmayılov Rəşad Nazim oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 17 may tarixli hökmü ilə məhkum edilmişdir.

2.21. Qasımov Orxan Sadiq oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 20 iyul tarixli hökmü ilə məhkum edilmişdir.

2.22. Mahmud Azər Ramazan oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 28 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.23. Mehtiyev Saleh Məzahir oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 31 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.24. Məlikov Elşən Tahir oğlu, 1985-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 19 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

2.25. Mövsümov Ənvər Əli oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 28 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

2.26. Muradov Elnur İmanxan oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 31 mart tarixli hökmü ilə məhkum edilmişdir.

2.27. Mustafayev Azər İlqar oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 19 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.28. Nabatov Ruslan Nizam oğlu, 1986-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 14 sentyabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.29. Novruzov Əfrail Aşır oğlu, 1980-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 1 dekabr tarixli hökmü ilə məhkum edilmişdir.

2.30. Osanlı Rəsul Firuz oğlu, 1990-cı ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 24 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

2.31. Rəziyev Nahid Balaxan oğlu, 1994-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 31 mart tarixli hökmü ilə məhkum edilmişdir.

2.32. Rzayev Rza Məhəmməd oğlu, 1991-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2017-ci il 9 mart tarixli hökmü ilə məhkum edilmişdir.

2.33. Səfərov Şaiq İmran oğlu, 1992-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Gəncə Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 3 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

2.34. Şahverdiyev Saleh Hətəmşah oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 28 mart tarixli hökmü ilə məhkum edilmişdir.

2.35. Şirəliyev Sərhəd Səhhəd oğlu, 1935-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 5 aprel tarixli hökmü ilə məhkum edilmişdir.

2.36. Zeyniyev Rəfi Tehran oğlu, 1989-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2018-ci il 17 yanvar tarixli hökmü ilə məhkum edilmişdir.

3. Azadlıqdan məhrumetmə cəzasına şərti olaraq məhkum edilmiş aşağıdakı şəxslər cəzadan azad edilsinlər:

3.1. Quryanov Səbuhi Süleyman oğlu, 1974-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin 2019-cu il 5 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

3.2. Mahmudova Sevda Rəcəb qızı, 1979-cu ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Ağstafa Rayon Məhkəməsinin 2021-ci il 12 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

3.3. Məmmədov Yaşar Əlixan oğlu, 1957-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Suraxanı Rayon Məhkəməsinin 2020-ci il 14 avqust tarixli hökmü ilə məhkum edilmişdir.

4. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş aşağıdakı şəxslər cəzanın çəkilməmiş hissəsindən azad edilsinlər:

4.1. Çobanzadə Elçin Əlişah oğlu, 1984-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Bakı şəhəri Xətai Rayon Məhkəməsinin 2021-ci il 19 noyabr tarixli hökmü ilə məhkum edilmişdir.

4.2. Ələkbərov Qabil Məhərrəm oğlu, 1977-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Neftçala Rayon Məhkəməsinin 2020-ci il 28 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

4.3. Əliyev Emin Nüsrət oğlu, 1993-cü ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Saatlı Rayon Məhkəməsinin 2021-ci il 16 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

4.4. Neftalıyev Aydın Şakir oğlu, 1967-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Şamaxı Rayon Məhkəməsinin 2021-ci il 10 fevral tarixli hökmü ilə məhkum edilmişdir.

4.5. Orucov Elnur Ağabək oğlu, 1988-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Neftçala Rayon Məhkəməsinin 2020-ci il 21 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

4.6. Orucov Əfsər Ağabəy oğlu, 1972-ci ildə anadan olmuş, Azərbaycan Respublikasının vətəndaşı, Neftçala Rayon Məhkəməsinin 2020-ci il 28 oktyabr tarixli hökmü ilə məhkum edilmişdir.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 may 2022-ci il*

# F.Ə.Əlizadənin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan musiqi mədəniyyətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Firəngiz Əliağa qızı Əlizadə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 may 2022-ci il*

# Prezident Administrasiyasında Azərbaycan Sosial Rifah Partiyasının sədri ilə görüş olub

Mayın 27-də Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev ölkədə aparılan iqtidar-müxalifət siyasi dialoqu çərçivəsində Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova ilə görüşüb.

Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar və iqtidar-müxalifət siyasi dialoqu, həmçinin dayanıqlı demokratik ənənələrin dərinləşməsində siyasi partiyaların rolu, cəmiyyətdə qadınların rolunu artıran dövlət təşəbbüsləri, dünyada baş verən münaqişələr fonunda siyasi sabitliyin əhəmiyyəti və Azərbaycanın dünya siyasi xəritəsində artan rolu barədə fikir mübadiləsi aparılıb.

Siyasi dialoq prosesi çərçivəsində görülmüş işlər haqqında danışan şöbə müdiri bildirib ki, Prezident İlham Əliyevin təşəbbüslərini fəal dəstəkləyən siyasi partiyalar, əslində, ölkəmizdə yeni siyasi mədəniyyətin formalaşmasına və demokratik ənənələrin dərinləşməsinə xidmət etmiş olurlar. Siyasi dialoqda iştirak edən tərəflər arasında konstruktiv əməkdaşlıq mühitinin bərqərar olması cəmiyyətin bütün potensialının dövlətin inkişafına yönəlməsini mümkün etdiyini vurğulayan administrasiya rəsmisi, yaranmış müsbət əməkdaşlıq dinamikasının inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb.

Mayın 22-də Prezident İlham Əliyev, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşün nəticələrinə toxunan Ədalət Vəliyev xüsusi vurğulayıb ki, mövcud istiqamətdə əldə edilmiş nailiyyətlər bütün regionda sülhün bərqərar olunması prosesində əvəzolunmaz əhəmiyyətə malikdir. Həmin görüşdən sonra Azərbaycanda və Ermənistanda dövlət sərhədinin delimitasiyası üzrə dövlət komissiyalarının yaradılması, Ermənistan-Azərbaycan dövlətlərarası sərhədində ilk görüşün keçirilməsi Azərbaycanın növbəti uğuru kimi dəyərləndirilməlidir.

Eyni zamanda görüş zamanı dövlət tərəfindən koronavirus infeksiyasının ölkə ərazisində geniş yayılmasının qarşısının alınması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində respublikamızda epidemioloji vəziyyətin nəzarətdə saxlanılmasına nail olunması, həmçinin dövlətimizin öz təşəbbüsləri və əməli addımları ilə hazırkı şəraitdə dövlətlər və xalqlar arasında təmasların sıxlaşmasına, qlobal pandemiya ilə mübarizədə beynəlxalq səylərin səfərbər olunmasına mühüm töhfələr verməsi yüksək qiymətləndirilib.

Təşkil olunmuş görüşə görə təşəkkürünü bildirən partiya sədri öz növbəsində milli həmrəyliyə və sağlam dialoqa xidmət edən siyasi islahatlar nəticəsində bu gün ölkənin siyasi palitrasında qarşılıqlı etimada və milli maraqların üstünlük təşkil etdiyi dövrə qədəm qoyulduğunu, yeni siyasi konfiqurasiyanın yaranmasının, o cümlədən dialoq mühitinin daha da dərinləşdirilməsi istiqamətində atılan addımların siyasi partiyaların həm iqtidarla, həm də öz aralarında sağlam münasibətlər formalaşdırmasında, ümumdövlət məsələlərinə vahid mövqedən yanaşmasında əhəmiyyətli rol oynadığını bildirib. Əsli Kazımova, həmçinin cəmiyyətdə qadınların artan rolu, humanitar sahədə dövlət təşəbbüslərinin əhəmiyyəti, gender məsələlərinin aktuallığının qorunmasına xidmət edən qanunverici təşəbbüslərin əhəmiyyəti barədə fikirlərini səsləndirib.

# Gəncədə Müstəqillik Gününə həsr edilən "dəyirmi masa" keçirilib



Mayın 27-də Gəncədə Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurası və YAP Gəncə şəhər təşkilatının təşkilatçılığı ilə 28 May Müstəqillik Gününə həsr edilən "dəyirmi masa" təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Şəhidlər xiyabanını ziyarət edib, sonra Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər gül dəstələri düzüblər.

Gəncə şəhər Heydər Əliyev Mərkəzində keçirilən "dəyirmi masa"da Dövlət himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi yad edilib.

"Dəyirmi masa"da YAP İdarə Heyətinin üzvü, Veteranlar Şurasının sədri Arif Rəhimzadə, Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru, professor Dilarə Seyidzadə, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, YAP Mərkəzi Aparatının şöbə müdiri Rufiz Qonaqov, Gender və gənclərlə iş şöbəsinin müdir müavini Zəkiyyə Musayeva, baş məsləhətçi Araz Xudadanov, YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov, Türkiyənin Gəncədəki baş konsulu Zəki Öztürk, Gəncə-Daşkəsən, Qazax-Tovuz iqtisadi rayonları üzrə partiya fəalları, tarixçi alimlər, tədqiqatçılar və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə tədbirin gündəliyi və nəzərdə tutulan çıxışlar barədə iştirakçıları məlumatlandırıb.

Tədbirdə çıxış edən YAP Gəncə şəhər təşkilatının sədri Ramil Orucov bu mühüm tədbirin Gəncə şəhərində keçirilməsinin əhəmiyyətindən bəhs edib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov "Qədim Gəncə: Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı" mövzusunda çıxış edərək, Azərbaycan Xalq Cümhuriyyətinin üç ay ərzində Gəncədəki fəaliyyətinin tariximizin və dövlətçiliyimizin şanlı səhifələrinə yazıldığını deyib: "Cümhuriyyət tarixinin ən məhsuldar dövrü Gəncədə yaşanıb. Üç ay ərzində Gəncədə xalqın taleyi ilə bağlı yüzdən artıq qanun və qərar qəbul edilib, Azərbaycan dili dövlət dili elan olunub. İlk dəfə al-qırmızı ay-ulduzlu bayrağımız Gəncədə ucaldılıb. Azərbaycan Milli Ordusunun təşkili sahəsində ilk addımlar da Gəncədə atılıb".

Türkiyənin Gəncədəki baş konsulu Zəki Öztürk çıxışında Azərbaycan-Türkiyə qardaşlığının əbədi və sarsılmaz olduğunu deyib. O, Gəncədə Qafqaz İslam Ordusunun qəhrəmancasına həlak olan ilk şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi üçün inşa ediləcək abidənin təməlinin qoyulmasını yüksək qiymətləndirib. Konsul Nuru paşanın rəhbərliyi ilə 1918-ci ildə Azərbaycana gələn Qafqaz İslam Ordusunun fəaliyyətindən də danışıb.

Ötən əsrin ilk illərindən başlayaraq çar Rusiyasının Azərbaycandakı milli müstəmləkəçilik siyasətini tarixi faktlar əsasında geniş şərh edən YAP Veteranlar Şurasının üzvü Dilarə Seyidzadə qeyd edib ki, 1917-ci ilin fevralında Rusiyada çarizmin devrilməsindən sonra başqa xalqlar kimi, Azərbaycan xalqının da qarşısında sosial-iqtisadi, siyasi və milli inkişaf üçün geniş imkanlar açılmışdı. Dövlət Dumasının Azərbaycandan olan deputatları Rusiyada parlamentarizmin təşəkkülündə və inkişafında iştirak edərək, parlament fəaliyyəti sahəsində böyük təcrübə qazanmışdılar. Bu təcrübə onlara bütün səylərini birləşdirərək qısa müddətdə müsəlman Şərqində ilk dəfə olaraq demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətini yaratmağa imkan verdi.

Dilarə Seyidzadə çıxışında qeyd edib ki, 28 May Azərbaycan tarixinin əzəmətli günlərindəndir. Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsinin mühüm dövrlərindən biri XIX əsrin sonu - XX əsrin əvvəlləridir. Bu dövrdə ölkəmizin ziyalıları bütün imkanlardan istifadə edərək Azərbaycan xalqının milli mənlik şüurunun oyanması, maariflənməsi və vətəndaşlıq hüquqları qazanması üçün mübarizəyə qalxdılar.

Professor Dilarə Seyidzadə Xalq Cümhuriyyətinin fəaliyyəti dövründə həyata keçirilən bir sıra mühüm tədbirlər, qəbul edilən qanunlar, eləcə də cümhuriyyət qurucularının siyasi fəaliyyəti barədə ətraflı məlumat verib, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin tam həyata keçirə bilmədiyi müstəqillik arzularının Ulu Öndər Heydər Əliyev və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən gerçəkləşdirildiyini deyib.

Gəncə Dövlət Universitetinin Sosial fənlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Asim Məmmədov "Müsəlman Şərqində ilk demokratik respublika" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, Müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Avropanın demokratik dəyərləri ilə Şərq mədəniyyətini üzvi şəkildə birləşdirən yeni dövlət modeli idi. Bu nümunəvi model sonralar dövlət müstəqilliyi əldə etmiş digər cümhuriyyətlər üçün də örnək oldu.

"Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisi olan müstəqil Azərbaycan bu gün: bölgədə yeni konfiqurasiya və yeni reallıqlar" mövzusu ilə çıxış edən YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə əlaqədar iş şöbəsinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov bildirib ki, Azərbaycan tarixinin şanlı səhifələrindən olan və müasir dövlətçilik tariximizdə önəmli yer tutan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin milli dövlətçilik ənənələrinin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. "Xalq Cümhuriyyəti özünün dövlətçilik əsasları və demokratik islahatları ilə müsəlman şərqinin mayakı rolunu oynamağı bacardı. Ulu Öndər Heydər Əliyevin 90-cı illərdə hakimiyyətə qayıdışından sonra Naxçıvanda Azərbaycanın yenidən üçrəngli bayrağı dalğalandı. Ümummilli Liderin ölkəmizə prezidentliyi dövrü, eləcə də onun layiqli davamçısı İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan şanlı tarix yazdı. Eyni zamanda, bölgədə yeni konfiqurasiya yaratdı", - deyə R.Qonaqov əlavə edib.

Sonda çıxış edən Arif Rəhimzadə deyib ki, bu gün Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və reallıqlarına uyğun davam etdirilir. Xalqımız bundan sonra da Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin ətrafında daha sıx birləşməlidir.

Müstəqillik Gününə həsr edilən "dəyirmi masa" müzakirələrlə davam edib, iştirakçıların sualları cavablandırılıb.

Milli Məclisin iclasında

# Ələt Azad İqtisadi Zonasına verilən güzəştlər artırılır

## Parlament yerli sahibkarlara xarici investorlarla bərabər rəqabət rejiminin yaradılmasını dəstəkləyən qanun layihəsini təsdiqlədi

Mayın 27-də Milli Məclisin yaz sessiyasında növbəti iclası keçirilib. İclası açan parlamentin Sədri Sahibə Qafarova bildirib ki, ötən günlərdə Milli Məclis böyük beynəlxalq tədbirə evsahibliyi edib. Bununla yanaşı, parlamentdə bir sıra mühüm görüşlər də keçirilib.



Milli Məclisin Sədri qeyd edib ki, mayın 17-də Milli Məclisdə İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Üçüncü Ümumi Konfransı olub. Konfransda Parlament Assambleyasına sədrlik Pakistan Milli Assambleyasından Azərbaycan Milli Məclisinə təhvil verilib. Konfransın mövzusu "Postpandemiya dövründə əməkdaşlıq: çağırışlar və bərpa imkanları" olub.

Konfransda iştirak edən nümayəndə heyətlərinin rəhbərləri postpandemiya dövründə assambleya üzvü olan ölkələr arasında iqtisadi, ticarət, nəqliyyat, turizm sahələrində qarşılıqlı surətdə faydalı əməkdaşlığı genişləndirməyin zəruri olduğunu söyləyiblər, mövcud problemlərin həlli ilə bağlı parlamentlərin üzərinə düşən vəzifələrdən danışıblar.

Parlament Assambleyasının Üçüncü Ümumi Konfransının yüksək səviyyədə təşkil edildiyi və region ölkələrinin bütün sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığının daha da inkişafına öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

Konfransın yekunu kimi Bakı Bəyannaməsi imzalanıb. Bu sənədin müddəaları təşkilat üzvlərinin bölgədə iqtisadi və sosial inkişafın təmin edilməsində, inteqrasiya və əməkdaşlıq proseslərinin inkişafında parlamentlərin rolunu daha da gücləndirmək əzmində olduqlarını bir daha nümayiş etdirir. Sənəddə 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbə münasibəti ilə Azərbaycan təbrik edilir və bu qələbənin regionda davamlı sülh və iqtisadi tərəqqiyə yol açacağına inam ifadə olunur. Eyni zamanda Azərbaycan hökumətinin işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma və minalardan təmizləmə işlərinin aparılmasında göstərdiyi səylərin dəstəklənməsinə çağırış səsləndirilir.

Sahibə Qafarova qeyd edib ki, Bakı Bəyannaməsinin mühüm müddəalarından biri də Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin mühüm hissəsi olacaq və İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin də faydalanacağı yeni regional nəqliyyat infrastrukturu olan Zəngəzur dəhlizinin açılmasına güclü dəstək nümayiş etdirilməsidir.

Konfransın iştirakçısı olan parlament nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər də keçirilib. Milli Məclisin Sədri bildirib ki, Üçüncü Ümumi Konfrans ilə əlaqədar keçirilən mühüm tədbirlərdən biri də parlament nümayəndə heyətlərinin mayın 18-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfəri olub. Spiker qonaqların Füzuli Beynəlxalq Hava Limanına getməsinin, daha sonra Şuşa şəhərinin müxtəlif mədəni, dini və tarixi abidələrini seyr etməsinin, eləcə də şəhərdə aparılan bərpa və quruculuq işləri ilə tanış olmasının onların ölkəmiz və xalqımız barədə təsəvvürlərini daha da zənginləşdirdiyini qeyd edib.

Sahibə Qafarova xatırladıb ki, bu ilin fevral ayında onun rəhbərliyilə Milli Məclisin nümayəndə heyəti Estoniyada rəsmi səfərdə olub. Parlamentlərarası əlaqələrin inkişafında növbəti addım kimi mayın 23-dən 25-dək Estoniya parlamentinin sədri Yüri Ratas və başçılıq etdiyi nümayəndə heyəti ölkəmizə rəsmi səfər edib. Rəsmi səfər çərçivəsində keçirilən görüşlərdə qeyd olunub ki, Azərbaycan və Estoniya dost və tərəfdaş ölkələrdir və iki ölkə arasında münasibətlərin inkişafında parlamentlər mühüm rol oynayırlar. Səfər çərçivəsində Estoniya parlamentinin sədri Yüri Ratas və rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanın mədəniyyət paytaxtı Şuşada da olub.

Sahibə Qafarova qeyd edib ki, mayın 25-də o, "TÜRKPA-ya üzv dövlətlərdə insan hüquqlarının qorunması" mövzusuna həsr edilmiş konfransın iştirakçıları ilə də görüşüb.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov mayın 22-də Şuşa şəhərində keçirilmiş Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin Xarici əlaqələr komitələrinin 7-ci üçtərəfli görüş, İnsan hüquqları komitəsinin sədri Zahid Oruc isə Milli Məclisdə keçirilmiş "TÜRK PA-ya üzv dövlətlərdə insan hüquqlarının qorunması" mövzusunda beynəlxalq konfrans barədə məlumat veriblər.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov parlament nümayəndə heyətinin Türkiyənin paytaxtı Ankara şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasının Ətraf mühit, təbii ehtiyatlar və əhalinin sağlamlığının qorunması komitəsinin iclasında iştirak etdiyini söyləyib. O, tədbirdə COVID-19 pandemiyası ilə bağlı quruma üzv ölkələrdə vəziyyət, əhalinin sağlamlığının qorunması sahəsində qanunvericilik aktlarının uyğunlaşdırılması məsələsinə dair müzakirələr aparıldığını deyib.

Sonra iclasda gündəlikdəki məsələlərin müzakirəsi keçirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyə 17 məsələ daxil edilib və ilk 7 məsələ üçüncü oxunuşda olan qanun layihələridir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov "Ətraf mühitin mühafizəsi sahəsində fərqlənməyə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı (üçüncü oxunuş) məlumat verib. Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov fikirlərini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Sənəd inzibati aktla bağlı məhkəməyə verilən şikayətlər üçün iddia müddətinin axımının dayandırılması hallarını nəzərdə tutan 38.3-cü maddənin təkmilləşdirilməsi ilə əlaqədar hazırlanıb. Qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edilib.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Layihədə kritik informasiya infrastrukturu, onun obyekti və subyekti, digər anlayışlar, kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində səlahiyyətli orqan, habelə kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydasının hüquqi əsasları müəyyən edilir.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi barədə komitənin müsbət rəyini bildirdikdən sonra sənəd üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliyin (üçüncü oxunuş) mahiyyəti barədə məlumat verib. Layihəyə əsasən, kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydasının pozulması və bu sahədə səlahiyyətli orqanının tələblərinin yerinə yetirilməməsi və ya ona maneçilik törədilməsi halında inzibati məsuliyyətin və inzibati təqibin müəyyən edilməsi nəzərdə tutulur.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili sənədlə bağlı həmin komitələrin müsbət rəylərini səsləndiriblər. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Sənəd adları çəkilən qanunların "Nağdsız hesablaşmalar haqqında" 2021-ci il 3 dekabr tarixli qanuna uyğunlaşdırılması məqsədi ilə hazırlanıb.

Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili rəhbərlik etdikləri komitələrin sənədlə bağlı müsbət rəylərini bildiriblər. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Fatma Yıldırım "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (üçüncü oxunuş) məlumat verib. Bildirib ki, sənəd qanunun təkmilləşdirilməsi və bir sıra müddəaların dəqiqləşdirilməsi məqsədilə hazırlanıb. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında", "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" və "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. Layihə "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının 9 iyul 2021-ci il tarixli qanununun tətbiqi ilə əlaqədar hazırlanıb, uyğunlaşdırma və terminlərin dəqiqləşdirilməsi məqsədi daşıyır. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda həmçinin ikinci oxunuşda olan və ölkə Prezidenti tərəfindən bir məktubla Milli Məclisə təqdim edilən, mahiyyətcə bir-birinə yaxın növbəti üç məsələyə baxılıb.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü İltizam Yusifov "Elektroenergetika haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Qeyd olunub ki, qanun layihəsi təkmilləşdirmə xarakteri daşıyır və istilik enerjisindən istifadə qaydalarının təsdiq edilməsi üçün hüquqi bazanın müəyyən edilməsi məqsədi ilə hazırlanıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) diqqətə çatdırıb. Layihədə sahibkarlıq sahəsində yoxlamalarla bağlı istilik enerjisinə münasibətdə digər enerji və kommunal xidmətlərlə eyni hüquqi rejimin tətbiq edilməsi təklif olunur. Bununla yanaşı, sənəddə yoxlamaların dayandırıldığı müddətdə sahibkarlıq subyektlərinin istilik sayğaclarına müdaxilə və ya istilik şəbəkəsinə qanunsuz qoşulma halları aşkarlanarsa, digər enerji və kommunal xidmətlərdə olduğu kimi, yoxlamaların keçirilməsinə hüquqi əsasın yaradılması ilə bağlı dəyişiklik nəzərdə tutulub.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü İltizam Yusifov məsələ ilə bağlı komitənin rəyinin müsbət olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verib. Dəyişikliyə əsasən, enerji təchizatı müəssisəsinin və ya qaz paylayıcısının səlahiyyətli şəxsinin istilik enerjisi sahəsində qanunvericiliyin tələblərinin pozulmasının qarşısını almaq məqsədi ilə tədbirlərin həyata keçirilməsinə, həmin şəxsin qanuni tələblərinin yerinə yetirilməsinə istehlakçı tərəfindən maneələr törədilməsinə görə inzibati məsuliyyət müəyyən edilir.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü İltizam Yusifov bu məsələ barədə də komitənin müsbət rəyini səsləndirib. İkinci oxunuşda təqdim olunan hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin digər 7 məsələsi birinci oxunuşda olan qanun layihələridir. 11-ci, 12-ci və 13-cü məsələlər ölkə Prezidenti tərəfindən bir məktubla Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxın olan qanun layihələridir. Hər üç qanun layihəsində nəzərdə tutulan dəyişikliklər 20 oktyabr 2020-ci il tarixdə qəbul olunmuş "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanundan irəli gəlir.

Spiker diqqətə çatdırıb ki, növbəti üç məsələ - Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Əhalinin sağlamlığının qorunması haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələridir.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Reklam haqqında" qanunlara edilən dəyişikliklər barədə danışaraq bildirib ki, bu dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bu məsələ ilə bağlı komitənin rəyinin müsbət olduğunu deyib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin məsələ ilə bağlı rəyini diqqətə çatdıran komitə sədri Tahir Mirkişili "Reklam haqında" qanuna təklif olunan dəyişiklik barədə danışıb. Qanunla məhdudlaşdırılmış siyahıda olan donor orqanlarının reklamının qadağan olunmasını müsbət dəyərləndirib.

Komitə sədri Siyavuş Novruzov, deputatlardan Razi Nurullayev, Erkin Qədirli, Rəşad Mahmudov, Sahib Alıyev, Asim Mollazadə məsələlərlə bağlı fikirlərini, qeyd və təkliflərini səsləndirdikdən sonra təqdim olunan hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Ələt Azad İqtisadi Zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı (birinci oxunuş) məlumat verib.

Qanun layihəsi ilə bağlı komitədə səmərəli müzakirələrin aparıldığını qeyd edən komitə sədri keçən müddət ərzində Azad Zonada görülən işlərin Azərbaycan sahibkarları qarşısında yeni çağırışlar qoyduğunu deyib. Bildirilib ki, təklif olunan dəyişikliklər ölkənin əsas iqtisadiyyatının vergi ödəyicilərinə Azad Zonada mal və xidmət alqı-satqısı zamanı onlara xarici ölkə subyektləri ilə bərabər rəqabət rejiminin yaradılmasını, bu əməliyyatların ixrac və idxal əməliyyatları ilə bərabər tutulmasını təmin edəcək. Qeyd olunub ki, bu, Azərbaycan sahibkarlarına Azad Zonada öz məhsullarını daha əlverişli şəraitdə təqdim etməyə imkan yaradacaq. Digər mühüm çağırış - Azad Zonada xidmət göstərəcək əsas vergi ödəyicilərinə vergi rejiminin tətbiq edilməsi ilə bağlıdır. Dəyişikliyə əsasən, burada xidmət göstərən subyektlərə Azərbaycanın əsas iqtisadiyyatının qanunvericiliyi tətbiq olunacaq. Komitə sədri Azad Zonada tətbiq ediləcək gömrük və vergi rejimi barədə də danışıb. Tahir Mirkişili qeyd edib ki, qanun layihəsi bütövlükdə Ələt Azad İqtisadi Zonasının gələcək inkişafında Azərbaycan sahibkarlarının daha çox fayda əldə etməsi, ölkənin əsas iqtisadiyyatında fəaliyyət göstərən subyektlərin Azad Zonanın iqtisadi faydasından bəhrələnməsi, öz məhsul və xidmətlərini burada daha rahat və bərabər şəraitdə təqdim etməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Məsələ ətrafında gedən müzakirələrdə deputatlar Razi Nurullayev, Vüqar Bayramov, Qüdrət Həsənquliyev, Aydın Hüseynov, Fazil Mustafa fikirlərini diqqətə çatdırıblar. Komitə sədri Tahir Mirkişili səsləndirilən fikirlərə münasibət bildirib.

İclasda iştirak edən Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov sənədlə bağlı fikirlərini açıqlayaraq qeyd edib ki, burada əsas məqsəd - Azərbaycanın hüquqi və iqtisadi subyektlərinə, ölkə vətəndaşlarına xarici şirkətlərlə bərabər şəraitin yaradılmasıdır.

Müzakirələrin sonunda qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Mülki Məcəllədə, Miqrasiya Məcəlləsində, "Yanğın təhlükəsizliyi haqqında", "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Texniki təhlükəsizlik haqqında", "Atmosfer havasının mühafizəsi haqqında", "Tütün və tütün məmulatı haqqında", "Telekommunikasiya haqqında", "Damazlıq heyvandarlıq haqqında", "Təbii müalicə ehtiyatları, müalicə-sağlamlaşdırma yerləri və kurortlar haqqında", "Pambıqçılıq haqqında" və "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib.

Bildirilib ki, sənəd "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" qanuna uyğun olaraq hazırlanıb. Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) diqqətə çatdırıb. Layihə sığortaolunanların qanunvericilikdə nəzərdə tutulan sosial müdafiə hüquqlarının təminatı üçün zəruri məlumatların fərdi uçotunun təşkili ilə bağlı tənzimləmənin təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Deputat Fazil Mustafa məsələ ilə bağlı bəzi qeydlərini səsləndirib. Komitə sədri Musa Quliyev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov qaldırılan məsələlərə aydınlıq gətiriblər. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə əlaqədar (birinci oxunuş) diqqətə çatdırıb ki, "Sosial sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə" və "Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2018-ci il 30 noyabr tarixli qanunlara əsasən, məcburi dövlət sosial sığorta haqlarının hesablanması, ödənilməsi və bu sahədə fəaliyyətə nəzarət funksiyaları, habelə məcburi dövlət sosial sığorta haqları üzrə borcların hesablanması, haqqın vaxtında ödənilməməsinə görə faizlərin və maliyyə sanksiyalarının tətbiqi ilə bağlı səlahiyyətlər vergi orqanlarına həvalə edilib. Təklif olunan layihə həmin qanunlara uyğunlaşdırma məqsədi daşıyır.

Qanun layihəsi birinci oxunuşda qəbul olunub.

İclasa yekun vuran Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, may ayının 28-də xalqımız Müstəqillik Gününü qeyd edəcək. 104 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsi xalqımızın müstəqillik əzmini təcəssüm etdirən tarixi hadisə olub.

Şərqdə ilk demokratik dövlət quruluşu modelini təqdim etmiş Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, qısa müddətdə öz hökumətini, parlamentini, digər dövlət orqanlarını, ordusunu formalaşdırmışdı. Demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq sahələrində atılmış inamlı addımlar Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyətini əks etdirən əsas istiqamətlər idi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaratdığı ənənələrdən bəhrələnən xalqımız 1991-ci ildə tarixi varislik üzərində dövlət müstəqilliyini bərpa etsə də, ancaq həmin zaman Azərbaycan çıxılmaz problemlər məngənəsinə düşmüş, müstəqil dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşmişdi.

1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan dünyamiqyaslı siyasi və dövlət xadimi Heydər Əliyevin misilsiz idarəçilik məharəti, əzmkarlığı və yorulmaz səyləri nəticəsində dövlətin qarşısında dayanan ağır problemlər həll edildi, Azərbaycan tənəzzülə son qoyub ardıcıl inkişaf yoluna çıxdı. Ölkəmizin sivil dünyanın bir hissəsinə çevrilməsi üçün möhkəm təməllər yaradıldı.

Spiker diqqətə çatdırıb ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını zamanın çağırışlarına və tələbatına uyğun şəkildə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət Azərbaycanı yeni qələbələrə aparır. Onun rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əzəli və tarixi torpaqlarımızın erməni işğalından qurtarılması, tarixi ədalətin bərpa olunması və dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi Azərbaycanın qarşısında tamamilə yeni inkişaf perspektivləri açmış, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini dəyişmişdir.

Milli Məclisin Sədri dövlət başçısının uzaqgörən siyasəti sayəsində qələbədən qələbəyə addımlayan Azərbaycan dövlətinin qarşıdakı illərdə daha böyük uğurlara imza atacağına əminliyini ifadə edib.

Sahibə Qafarova Müstəqillik Günü münasibəti ilə deputatlara və media nümayəndələrinə təbriklərini çatdırıb. O təklif edib ki, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlansın. Spikerin təklifi alqışlarla qarşılanıb.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# 28 may yeni Ağdamın təməlinin qoyulduğu gündür



# AĞDAMIN YENİ İNTİBAHI

## Onun müəllifi Müzəffər Ali Baş Komandan İlham Əliyevdir

*20 noyabr 2020-ci il...*

*28 may 2021-ci il...*

*Bu iki gün ağdamlılar üçün ən əziz və unudulmaz tarixlərdir!*

**Biri Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən Ağdamın erməni işğalından azad olunduğu gündür!**

**Digəri Prezident İlham Əliyev tərəfindən yeni Ağdam şəhərinin təməlinin qoyulduğu gündür!**

**Hər iki tarixi Azərbaycan xalqının xilaskar oğlu, 44 günlük Vətən müharibəsinin qəhrəmanı və qalibi cənab İlham Əliyev yaradıb!**

**Cənab İlham Əliyev 10 noyabr 2020-ci il qələbəsinə imza atmaqla təkcə ağdamlıların deyil, bütün Azərbaycan xalqının, türk dünyasının ən qüdrətli şəxsiyyətlərindən, qəhrəman sərkərdələrindən biri olduğunu sübuta yetirdi!**

*Beş əsr ərzində ilk dəfə işğal edilmiş Azərbaycan torpaqlarını geri qaytardı!*

*İkiəsrlik Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə möhtəşəm zəfərlə son qoydu!*

*Azərbaycan xalqını qalib xalqa, alnıaçıq, üzügülər xalqa çevirdi!*

*Dediyi sözü, verdiyi vədi şərəflə yerinə yetirdi!*

Hərbi əməliyyatlar başa çatan kimi dərhal Qarabağın dirçəldilməsi, yenidən tikilib qurulması prosesinə start verdi!

Bir ildən çoxdur ki, Qarabağda, Şərqi Zəngəzurda gecə-gündüz iş dayanmır!

Bir tərəfdən ölüm təhlükəsi sayılan minalar təmizlənir, digər yandan zəruri infrastrukturun yaradılması, böyük qayıdışın sürətlə baş tutması üçün planlı qaydada quruculuq aparılır.

**Cənab İlham Əliyev Qarabağı cənnətə çevirəcəyinə söz verib!**

**Sözü ilə əməli bir olan Prezidentimiz Mehriban xanım Əliyeva ilə əl-ələ verərək Qarabağın maddi və mənəvi intibahı üçün yorulmadan çalışırlar!**

Azərbaycan xalqı inanır ki, bu istək tezliklə baş tutacaqdır!

Məcburi köçkünlər əmindirlər ki, lap qısa zamanda əzəli torpaqlarına, doğma yurd-yuvalarına qayıdacaqlar!

❖ ❖ ❖

Faşist Nıjdeyə abidə ucaldan ermənilər babalarına layiq nəvə olduqlarını, faşistlərdən də çox vəhşilik etdiklərini Qarabağ müharibəsindəki əməlləri ilə hamıya göstərdilər.

İşğal edilən ərazilərdə bir dənə də salamat tikili, toxunulmamış ev qalmayıb.

Göz nə görürsə, işğal dövründə hamısını söküb dağıtmış, "dostları" ilə əlbir olaraq talamışlar.

İndi dünyanın hər yerindən Qarabağa gələnlər yalnız yerləyeksan olunmuş yaşayış məntəqələri, dağıdılmış məscidlər, qəbiristanlıqlar, yollar, körpülər görürlər.

Həm də erməni vandallığının, erməni vəhşiliyinin və alçaqlığının canlı şahidinə çevrilirlər.

❖ ❖ ❖

Ermənilər Ağdama qarşı xüsusi qəddarlıq və dağıdıcılıq törətmişlər.

Çünki Ağdam əvvəldən axıradək onlarla döyüşdü, respublikanın hər guşəsindən köməyə gələn igidlərlə birgə düşmənə sarsıdıcı zərbələr vurdu, necə deyərlər, öz qisaslarını qabaqcadan aldılar!

**Əgər həmin dövrdə Azərbaycana Heydər Əliyev kimi dahi şəxsiyyət, İlham Əliyev kimi qüdrətli sərkərdə rəhbərlik etsəydi, düşmən nəinki Ağdamı, heç Azərbaycanın bir qarış torpağını belə ala bilməzdi!**

Çox təəssüf ki, Birinci Qarabağ müharibəsi ərəfəsində və dövründə Azərbaycana Ə.Vəzirov kimi manqurt, A.Mütəllibov kimi qorxaq və qətiyyətsiz adamlar başçılıq edirdilər.

Xalqı aldadaraq, şirin vədlər verərək milli-azadlıq hərəkatının dalğaları üzərində iqtidara gələn AXC-Müsavat cütlüyü isə təkcə təcrübəsizliyi və naşılığı ilə deyil, üstəlik şəxsi maraqlara xidmət etmələri, ciblərinin hayına qalaraq Vətən torpaqlarının işğalına şərait yaratmaları kimi xəyanətkar əməllərlə də yadda qaldılar!

Arxasız, köməksiz, ordusuz, silahsız və sursatsız qalan insanlar min bir əziyyətlə tikdikləri evlərini, doğma obalarını tərk edərək canlarını götürüb qaçmaq məcburiyyətində qaldılar.

Arxalı köpək qurd basar - demişlər.

Düşmən isə bütün acığını və heyifini daşdan, torpaqdan, evlərdən, obalardan, bağlardan, meşələrdən, çaylardan, yollardan - bir sözlə, gözünə nə göründüsə, ondan çıxdı!

❖ ❖ ❖

**"Dəmir yumruğ"u ilə düşmənin başını əzən, xain gözlərini ovub çıxaran Müzəffər Ali Baş Komandan İlham Əliyev bu gün Qarabağı və Şərgi Zəngəzuru sürətlə, böyük sevgi və məhəbbətlə, əsl qurucu liderə xas olan məharətlə tikir, qurur!**

*Yüz minlərlə məcburi köçkünün ən müqəddəs arzusunu həyata keçirir!*

*Milyonlarla Azərbaycan vətəndaşının istəyini gerçəkləşdirir!*

**Cənab İlham Əliyev təkcə görkəmli dövlət xadimi, mahir siyasətçi və diplomat kimi tanınmır.**

**Dünya onun həm də qurucu rəhbər, yüksək zövq sahibi olan nəhəng inşaatçı olduğuna şahiddir.**

Azərbaycana rəhbərliyi dövründə Bakını necə sürətlə və zövqlə tikdiyinə, abadlaşdırdığına, dünyanın ən gözəl şəhərlərindən birinə çevirdiyinə paytaxtımıza gələn hər bir əcnəbi qonaq, turist şahidlik edir, heyrət və razılığını ən xoş sözlərlə ifadə edir.

**İndi isə növbə Qarabağındır!**

**İlham Əliyevin düşmən əsarətindən xilas etdiyi Qarabağ!..**

**Yeni, ikinci intibahını gözləyən Qarabağ!..**

❖ ❖ ❖

*Qarabağın ilk intibahı Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə baş vermişdi!*

*Başda Ağdam olmaqla, bu qədim bölgədə Heydər Əliyevin nəhəng fəaliyyəti sayəsində iqtisadi, mədəni, quruculuq sahəsində böyük uğurlar qazanılmışdı.*

Kənd təsərrüfatı sürətlə inkişaf etdirilmiş, sənaye müəssisələri tikilmişdi.

Hər rayonun coğrafi mövqeyinə və təbii imkanlarına uyğun olaraq təsərrüfat sahələri yaradılmış, pambıqçılıq, heyvandarlıq, üzümçülük, yemçilik, bağçılıq, baramaçılıq, arıçılıq və digər sahələr inkişaf etdirilmiş, yeni texnikanın tətbiqinə, əmək məhsuldarlığının yüksəldilməsinə, insanların gəlirlərinin, sosial rifahlarının yaxşılaşdırılmasına nail olunmuşdu.

Gəlirləri və bütövlükdə qazancları artan kənd əməkçiləri özlərinə ağ mişar daşlarından yeni evlər tikdirmiş, minik maşınları almış, məişət şəraitlərini xeyli yüksəltmişdilər.

Ulu Öndərin təşəbbüsü ilə rayon mərkəzləri də əsaslı şəkildə tikilərək abadlaşdırılmış, çoxsaylı yaşayış evləri, məktəblər, uşaq bağçaları, xəstəxanalar, mədəni-maarif ocaqları inşa edilmişdi.

Qarabağ camaatı ağ günlərə çıxmışdı...

Lakin xoşbəxt günlər çox da uzun çəkmədi:

- Ulu Öndər Heydər Əliyev Moskvaya yüksək vəzifəyə aparılaraq müvəqqəti olaraq Azərbaycandan ayrıldıqdan...
- Qorbaçov "yenidənqurma" adı ilə SSRİ miqyasında oyunbazlığa başladıqdan....
- Alət millət olan ermənilər üstümüzə qısqıdılaraq "Dağlıq Qarabağ problem" adlı məkrli oyunlara rəvac verildikdən...
- Azərbaycan başsız və sahibsiz qaldıqdan sonra hər şey dəyişdi!

Xoş günləri qara günlər əvəz etdi!

Sonda isə 27 il çəkən möhnət başladı:

- 27 il Qarabağa, doğma el-obaya həsrət qaldıq!
- 27 il çadır şəhərciklərində ehtiyac və dərd çəkdik!
- 27 il insanlar əmanət qəbirlərdə doğma qəbiristanlığa qayıdacaqları günü gözlədilər...
- 27 il məğlub, diligödək, gözükölgəli millət kimi gəzdik!

Az qala ümidimizi də itirmişdik!

❖ ❖ ❖

**Ulu Öndər yenidən ölkə rəhbərliyinə qayıdanda sanki üstümüzə gün doğdu.**

**İtmiş inamımız geri dönməyə başladı.**

**Görülən işlərə, Ulu Öndər Heydər Əliyevin yeritdiyi siyasətə baxıb özümüzə gəldik.**

Yeni tikilən qəsəbələrə köçürüldük, güzəranımız xeyli yaxşılaşdırıldı.

Vətən həsrəti isə heç zaman bizi tərk etmədi...

**İlham Əliyev hakimiyyətə gəldiyi ilk günlərdən xalqın sevgi və məhəbbətini qazandı.**

**Ona inandıq, inandıq ki, bizi hökmən geriyə, doğma torpaqlarımıza qaytaracaqdır!**

*Dövləti gücləndirdi, Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltdi, Cənubi Qafqazın ən güclü dövlətinə, söz sahibinə çevirdi, qüdrətli ordu qurdu, onu ən müasir silahlarla silahlandırdı, xalqın milli birliyinə nail oldu.*

Hər işi vaxtında, lazımi qaydada gördü.

Düşmənin ipə-sapa yatmadığına, sülhə gəlmək istəmədiyinə əmin olduqda isə "dəmir yumruğ"unu işə saldı!

**44 gün ərzində Azərbaycan tarixinin ən möhtəşəm zəfərinə imza atdı, düşməni qarşısında diz çökdürərək kapitulyasiya aktını imzalatdırdı!**

**Beləliklə, bizi çoxdan gözlədiyimiz, həsrətini çəkdiyimiz böyük qələbəyə qovuşdurdu!**

❖ ❖ ❖

**Prezident İlham Əliyev biz ağdamlılara bir il bundan əvvəl daha böyük sevinc yaşatdı: Ağdam ictimaiyyətinin nümayəndələri ilə, hamımızın gözü qarşısında yeni Ağdamın, Ağdam şəhərinin təməlini qoydu!**

*Həmin tədbir iştirakçılarına daha bir xoşbəxtlik də nəsib oldu: Ağdam şəhərinin bünövrəsinə hərə bir bel-lapatka beton məhlulu tökdü!*

*Beləliklə, rəmzi olaraq yeni Ağdamın təməlini qoyanlardan birinə çevrildilər!*

Həm də bu hadisə çox mühüm tarixi gündə baş verdi: 28 mayda!

Respublika Günündə - Bu ildən Müstəqillik Günü kimi qeyd olunan möhtəşəm bir tarixdə!

Bu tarixi də Müzəffər Ali Baş Komandan İlham Əliyev özü müəyyən etmişdi.

Mərasimdəki çıxışı zamanı dedi: *"Bu mərasim üçün, bu görüş üçün başqa vaxt da müəyyən oluna bilərdi. Ancaq mən hesab etdim ki, ən düzgün tarix bizim milli bayramımız olan Respublika Günüdür, Müstəqillik Günüdür. Çünki bu gün burada olmağımız bir daha müstəqilliyimizin nə qədər güclü olmasını göstərir. Əgər biz güclü müstəqil dövlət qurmasaydıq, öz tarixi torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Ancaq güclü Azərbaycan, müstəqil Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan Azərbaycan bu tarixi missiyanı yerinə yetirdi".*

❖ ❖ ❖

Düz bir il keçir həmin görüşdən!

İztirablı 27 ildən sonra baş tutan görüşdən!

Amma həmin görüş bütün ağdamlıların xatirəsində əbədi yaşayacaq, nəsillərdən-nəsillərə ötürüləcəkdir!

*Çünki həmin görüşlə yeni Ağdamın intibahı başlayır!*

*Yeni Ağdamın bünövrəsi qoyulurdu!*

**Özü də 44 günlük Vətən müharibəsinin baş qəhrəmanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə!**

**Qoyulan hər bir bünövrəyə Prezident İlham Əliyev öz əli ilə beton qarışığı tökürdü!**

**Hər tikintinin təməlinə öz imazısını atırdı.**

*Bəli, Ağdamı, Şuşanı, külli Qarabağı erməni alçaqlarından azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev Qarabağı öz əlləri ilə dirçəltməyə, cənnətə çevirməyə başlayıb!*

*Bu möhtəşəm quruculuğa isə Ağdamda start verdi.*

❖ ❖ ❖

Həmin unudulmaz görüşdə hər birimiz nəfəs dərmədən Prezidentimizə qulaq asır, dediyi hər sözü, söylədiyi hər fikri dərk etməyə, yaddaşımıza həkk etməyə çalışırdıq.

Sözlər isə yeni tarixi dövrün, Qarabağın dirçəliş dövrünün başlanmasından xəbər verirdi.

Yaddaşları təzələmək üçün cənab İlham Əliyevin Ağdamdakı çıxışından bəzi parçaları yenidən xatırlatmaq istəyirəm:

*"Hesab edirəm ki, bu gün tarixi gündür. Çünki bu gün azad edilmiş torpaqlarda birinci Baş plan artıq təsdiqlənir".*

Sonra Prezidentimiz görüşdən qabaq təməlini qoyduğu yeni obyektlər barədə fərəhlə məlumat verdi:

*"Ağdam şəhəri üçün çox önəmli olan 1 saylı məktəbin təməli qoyuldu. Siz yaxşı bilirsiniz ki, bu məktəbin çox böyük tarixi var. 140 illik tarixi var. Gələcəkdə burada iş yerlərinin yaradılması üçün Ağdam Sənaye Parkının təməli qoyuldu. Bu parkın ərazisi təqribən 200 hektara yaxındır və orada yüzlərlə, gələcəkdə bəlkə də minlərlə insan işlə təmin ediləcək. Bərdə-Ağdam avtomobil yolunun təməli qoyuldu və artıq yaxın gələcəkdə yol istismara veriləcəkdir. Eyni zamanda mənim göstərişimlə Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisi nəzərdə tutulur. "İmarət" kompleksinin bərpası ilə əlaqədar artıq işlərə start verilir. Ağdamda "İşğal" muzeyi və "Zəfər" muzeyi konsepsiyası mənə təqdim edildi. Yer seçildi və həm "Zəfər", həm "İşğal" muzeyləri çox möhtəşəm olacaq. Digər obyektlər, digər tədbirlər, böyük meşə sahəsinin təməli qoyuldu. Şəhərin içində böyük bir meşə zolağı olacaq - 125 hektarlıq. Süni göl yaradılacaq, kanallar, körpülər. Şəhərin müasir standartlara, müasir tələblərə uyğun inkişaf planı artıq tam işlənib hazırlanıb. Bütün Qarabağ zonası "yaşıl enerji" zonası olacaq. Bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq".*

❖ ❖ ❖

Ağdamlılar zarafat etməyi sevir.

Zarafatlardan biri Ağdamda tramvayın işləməsi ilə bağlı idi.

Görüşə gecikənlər "tramvayla gəlirdim, ona görə yubanmışam" - deyirdilər!

Yeni Ağdamda isə zarafatsız, həqiqətən tramvay işləyəcəkdir!

Həm də ən müasiri, elektriklə işləyən, təkərsiz tramvaylar küçələrdə cövlan edəcəkdir!

Bəli, Prezidentimiz göstəriş veribdir ki, dünyanın harasında yaxşı, yeni nə varsa, hamısından Ağdamda da olmalıdır!

MƏSƏLƏN:

- Yeni Ağdamda ən gözəl layihələrlə tikilmiş yaraşıqlı ictimai və yaşayış binaları olacaqdır!
- Motorlu qayıqların üzəcəyi 2 kilometrlik su kanalları çəkiləcəkdir!
- İnsanların dincəlməsi, zövq alması üçün göl yaradılacaq, şəlalə axacaqdır!
- 79 kilometrlik velosiped yolu istifadəyə veriləcəkdir.
- Ağdamın öz dağüstü parkı, cürbəcür karuselləri olacaqdır!

Yeniliklərin hamısını sadalamaq istəmirəm, çünki ən qısa müddətdə onların çoxunu öz gözlərimizlə görəcəyik!

❖ ❖ ❖

Ağdamın yenidən tikilib qurulmasında və insanların geriyə qayıtmasında ən böyük maneə ərazilərin minalardan təmizlənməsidir!

Bu sahədəki maneə isə ermənilərin öz alçaq xislətlərinə sadiq qalaraq minalanmış sahələrin xəritələrini verməkdən müxtəlif vasitələrlə boyun qaçırmaları və verdikləri xəritələrin dəqiq olmamasıdır.

Eybi yox!

Düşmənin başını "dəmir yumruğ"u ilə əzərək torpağı geri qaytaran, onu ölüm təhlükəsi sayılan minalardan da təmizlədəcəkdir və bu sahədə də sürətli, səmərəli iş gedir!

Artıq bir il ərzində xeyli iş də görülmüşdür.

❖ ❖ ❖

Böyük qayıdış yoldan başlayır...

Yol təkcə insanların rahatlığı üçün deyil!

Yol görüləcək bütün işlərin - material daşınması, digər infrastrukturun yaradılması, bütün layihələrin gerçəkləşdirilməsi və quruculuq işlərinin sürətlə getməsində əsas vasitədir.

Ötən bir ildə dörd hərəkət zolaqlı, ümumi uzunluğu 45 kilometr olan Bərdə-Ağdam avtomobil yolunda sürətli iş gedib.

Həmin yolun davamı olan və Ağcabədi ilə Füzulini birləşdirən yeni yol da sürətlə tikilir.

Yol infrastrukturunun çox mühüm hissələrindən biri olan Bərdə-Ağdam dəmir yolunda isə tikinti işlərinin 50 faizi görülüb.

190 hektarlıq Ağdam Sənaye Parkında bir sıra mühüm işlər görülüb. Buraya 50 milyon manatdan çox investisiya yatırılacaq və hələlik 9 şirkətlə müqavilə imzalanıb.

Görüləcək bir sıra zəruri işlərin isə layihələri hazırlanır. Bunların sırasında Ağdam şəhərini içməli su ilə təmin edəcək "ağıllı su" layihəsini, şəhərin tullantı və yağış sularının idarə edilməsi layihəsini, habelə Ağdamdan, Əsgərandan keçməklə Şuşaya çəkiləcək yeni yolun planlaşdırılmasını qeyd etmək olar.

Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidinin bərpası ilə bağlı işlərə başlanılması da hamını sevindirir.

❖ ❖ ❖

Torpaq uğrunda ölən varsa, Vətəndir - deyilib!

Bunu həm Birinci Qarabağ, həm də Vətən müharibəsində igidliklə döyüşən, milliyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı sübut edib!

Bu gün bütün şəhidlərimizi ehtiramla yad edir, ruhlarına dualar oxuyuruq!

Bu gün bütün qaziləri, müharibə iştirakçılarını hörmətlə anırıq, minnətdarlığımızı bildiririk.

**Bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qəhrəmanlığı, üç cəbhədə - hərb, diplomatiya və informasiya müharibəsindəki qələbəsi ilə hədsiz qürur və iftixar hissi keçirir, fəxr edirik!**

Məhz onların sayəsində biz bütün Qarabağa və Şərqi Zəngəzura əbədi qayıtdıq!

Həm də döyüşərək, təkcə erməniləri yox, bütün havadarlarını da məğlub edərək!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: *"Otuz il bizə meydan oxuyan, bizim əsəbilərimizlə oynayan, xalqımızı təhqir edən, özündən uydurma qəhrəman düzəldən düşmən diz çökdü bizim Qarabağımızda, ağ bayraq qaldırdı, təslim oldu və kapitulyasiya aktına imza atdı. Biz Ağdamı bir güllə atmadan, bir şəhid vermədən azad etdik və bu gün buradayıq və bundan sonra əbədi burada olacağıq".*

Həm də Qarabağı, Şərqi Zəngəzuru dünyanın ən gözəl guşələrindən birinə çevirəcəyik!

Ağdam Azərbaycandır!

Qarabağ Azərbaycandır!

**Bəxtiyar SADIQOV**

# Azərbaycanın müdafiə naziri Türkiyənin milli müdafiə naziri ilə görüşüb






Mayın 27-də Türkiyənin milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə işgüzar səfərə gəlib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qonaqları Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov qarşılayıb.

Sonra Müdafiə Nazirliyində təntənəli qarşılama mərasimi olub, hər iki ölkənin müdafiə nazirləri fəxri qarovulun önündən keçib, Dövlət himnləri səsləndirilib.

Qarşılama mərasimindən sonra müdafiə naziri və nazirliyin digər rəhbər heyəti Türkiyə nümayəndə heyəti ilə görüşüb.

Görüşdə həmçinin Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Yaşar Güler, Quru Qoşunları komandanı ordu generalı Musa Avsever, Hərbi Hava Qüvvələri komandanı ordu generalı Hasan Küçükakyüz, Hərbi Dəniz Qüvvələri komandanı donanma admiralı Adnan Özbal, eləcə də Türkiyə Respublikasının ölkəmizdəki səfiri Cahit Bağçı və digər rəsmilər iştirak ediblər.

Qonaqları salamlayan müdafiə naziri Azərbaycanla Türkiyə arasında hərbi əməkdaşlığın yüksələn xətlə inkişaf etdiyini qeyd edərək gələcəkdə də bu istiqamətdə görülən işlərin daha da artırılmasının vacibliyini diqqətə çatdırıb.

Qardaş ölkəyə səfərindən məmnunluğunu ifadə edən H.Akar 28 May - Müstəqillik Günü münasibətilə Azərbaycan xalqını təbrik edib və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, "TEKNOFEST Azərbaycan" festivalının Bakıda keçirilməsinin, eləcə də birgə təlimlərin mühüm əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayıb.

Hər iki ölkə arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu qeyd edilib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

# Selçuk Bayraktar Şuşada

"TEKNOFEST Azərbaycan"ın Türkiyədən olan nümayəndə heyəti mayın 27-də erməni işğalından azad olunan Şuşaya səfər edib.







AZƏRTAC xəbər verir ki, Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarın da tərkibində olduğu nümayəndə heyəti Şuşada erməni vandalizminin izləri, eləcə də aparılan tikinti-quruculuq işləri ilə tanış olublar.

Cıdır düzü ilə tanışlıq zamanı Selçuk Bayraktar jurnalistlərə açıqlamasında deyib ki, yenidən eyni ağrılı hadisələrin yaşanmaması üçün "TEKNOFEST"də yüksək texnologiyanın inkişafı, müstəqillik üçün göstərilən səyin cəmiyyətə, gənclərə nümayiş etdirilməsi çox vacibdir: "Biz texnologiyanı inkişaf etdiririk ki, möhtəşəm təbiəti, tarixi mədəniyyət mirası olan, əcdadlarımızdan qalan bu torpaqların dəyərini daha yaxşı anlayaq. Hər kəsi Bakıda keçirilən "TEKNOFEST"də iştirak etməyə dəvət edirəm. Eyni zamanda mümkün olarsa qədim Qarabağ torpağını, Şuşanı ziyarət etməyi tövsiyə edirəm. Uzaqdan görməklə gedib öz gözlərinlə görmək arasında fərq çoxdur. Vətənin nə demək olduğunu, hansı çətinliklərlə, mübarizə ilə qorunduğunu anlamaq üçün torpağı qarış-qarış gəzmək lazımdır. Burada çalışan bir polis uşaq vaxtı çıxdığı bu torpaqlarda indi övladları ilə gəzdiyindən danışdı. "TEKNOFEST"də olan zaman da yaşlılardan öz torpaqlarından hansı ağrı-acılarla getdikləri barədə danışdıq. Bütün bunları ancaq gedib öz gözlərinlə görəndə başa düşürsən. Bunları uşaqlara, növbəti nəsillərə başa salmağımız, Vətən sevgisi aşılamağımız lazımdır. Ən əsası bütün dünyanın heç kimin torpağında gözümüzün olmadığını, amma bizim torpaqlarımızda gözü olanlarla da sona qədər hər sahədə mübarizə aparacağımızın bilməyini istəyirik. Müharibə zamanı bu yerlərin qayalıq və çətin relyefə malik olduğunu eşidirdik. Amma qiymətli yerlərin mübarizəsi də çətin olur. Buralar möhtəşəm təbiətə malikdir. Bu yerlərin müharibə ilə işğaldan azad edilməsi və dünya tarixinə PUA-lar vasitəsilə azad edilən ilk müharibə kimi düşməsi texnologiyanı inkişaf etdirən mühəndislər olaraq bizim üçün böyük məna ifadə edir. Bunu da başqalarına nümayiş etdirmək üçün "TEKNOFEST" təşkil edilib. "TEKNOFEST" Türkiyədən sonra ilk dəfə can Azərbaycanda keçirilir. İnanıram ki, gənclər çox daha böyük işlərə imza atacaqlar".

"Təbiətdə nadirən olan, yaxamda döş nişanı olaraq taxdığım xarıbülbülü görmək fürsətimiz oldu. Həmçinin xarıbülbül çiçəyini mənə və həyat yoldaşıma hədiyyə etdilər. Onun xatirəsini yaşatmaq üçün gözümüz kimi baxıb saxlayacağıq", - deyə Selçuk Bayraktar bildirib.

# Xarici işlər naziri Azərbaycan-Avropa Media Forumunun iştirakçıları ilə görüşüb

Mayın 27-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan-Avropa Media Forumunun iştirakçıları ilə görüşüb.





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Media Forumunda 9 ölkədən, o cümlədən Türkiyə, Böyük Britaniya, Macarıstan, Yunanıstan, Almaniya, Fransa, Qazaxıstan, Özbəkistan, Qırğızıstandan olan media agentliklərinin 22 nümayəndəsi iştirak edib.

Nazir Ceyhun Bayramov media nümayəndələrinə Azərbaycanın xarici siyasət prioritetləri və bölgədəki rolu, o cümlədən müstəqilliyini bərpa etdiyi ilk gündən üzləşdiyi təcavüz siyasəti və onun nəticələri, 2020-ci ildə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi ilə nəticələnən 44 günlük müharibə, postmünaqişə dövründə bölgədə mövcud olan cari vəziyyət, xüsusilə də Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar, Brüsseldə liderlərin görüşləri nəticəsində əldə edilən razılaşmaların icrası, o cümlədən sülh müqaviləsinin hazırlanması, sərhədin delimitasiyası, kommunikasiyaların açılışı ilə bağlı məsələlərə dair məlumat verib. Ceyhun Bayramov bölgədə sülhün, təhlükəsizliyin və inkişafın təmin olunmasına dair Azərbaycanın baxışlarını da media nümayəndələri ilə bölüşüb. Sonra xarici işlər naziri media nümayəndələrinin çoxsaylı suallarını cavablandırıb.

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin İKT üzrə məsul nazirlərinin "ad hoc" iclası keçirilib



"TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı çərçivəsində Bakıda Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin İKT üzrə məsul nazirlərinin "ad hoc" iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Türk Dövlətləri Təşkilatının baş katibi Bağdad Amreyev salamlama nitqi ilə açıblar.

Rəşad Nəbiyev çıxışında Azərbaycanın Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığa, xüsusilə İKT sahəsində iş birliyinə böyük önəm verdiyini bildirib.

Nazir qeyd edib ki, Azərbaycanda rəqəmsal transformasiya hökumətin gündəliyində duran prioritetlərdən biridir. Ölkənin işğaldan azad edilmiş ərazilərində "ağıllı" şəhər və kəndlərin qurulması, eləcə də ənənəvi şəhərlərin "ağıllı şəhər"lərə transformasiyası qarşıda duran əsas hədəflərdir.

Rəşad Nəbiyev TDT ölkələrinin şirkətlərini Azərbaycanda, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən "ağıllı şəhər" layihələrində iştiraka dəvət edib.

Nazir vurğulayıb ki, rəqəmsal transformasiyanın genişlənməsi 4-cü sənaye inqilabına keçidlə yanaşı, kibertəhlükələr üçün yeni sahələr və hədəflər yaradır. Rəşad Nəbiyev kibertəhlükəsizlik sahəsində, eyni zamanda, e-imzaların tanınması ilə bağlı həm çoxtərəfli, həm də ikitərəfli formatda işlərə başlanılması təklifini irəli sürüb.

Nazir həmçinin TDT ölkələri arasında "Mobil Cihazın Qeydiyyatı üzrə Müştərək Sistem"in yaradılmasının vacibliyinə diqqət çəkib.

Tədbirdə daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, Qazaxıstanın rəqəmsal inkişaf, innovasiyalar və aerokosmik sənaye naziri Bağdat Mussin, Türkiyə, Qırğızıstan, Özbəkistan, Macarıstan və Türkmənistanın təmsilçiləri çıxış ediblər.

Qeyd edək ki, Türkdilli Dövlətlər Təşkilatı türkdilli ölkələrin dövlət başçılarının 3 oktyabr 2009-cu ildə Naxçıvan şəhərində keçirilən Zirvə görüşündə imzalanmış Naxçıvan Sazişinə əsasən yaradılıb.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyə təşkilata üzv dövlətlərdir.

Macarıstan və Türkmənistan isə müşahidəçi statusundadır.

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Baş prokuror Kamran Əliyev mayın 27-də Goranboy Rayon Prokurorluğunun inzibati binasında Naftalan şəhəri, Goranboy və Xocalı rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Kamran Əliyev bölgədə yaşayan 33 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

* * *

Mayın 27-də Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev Qax rayon Heydər Əliyev Mərkəzində Qax və Şəki rayonlarından olan vətəndaşları qəbul edib.

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda Qax və Şəki rayonları sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Qəbul zamanı DGK sədri Səfər Mehdiyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, bəzi müraciətlərin isə araşdırılması üçün müvafiq strukturların rəhbərlərinə tapşırıqlarını verib.

# Heydər Əliyev Mərkəzində "Nurlu sənət dünyası" vitrajlar sərgisi açılıb

Mayın 26-da Heydər Əliyev Mərkəzində Azərbaycanın Əməkdar rəssamı Ağasaleh Nurinin "Nurlu sənət dünyası" adlı fərdi sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, sərgidə müəllifin vitraj üslubunda əsərləri, rəsm əsərləri və eskizləri nümayiş olunur.

Açılışda Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov vitraj sənətinin özəlliyindən bəhs edib. Bildirib ki, qədimdən vitraj əsərləri öz gözəlliyi və incəliyi ilə insanları daim düşündürmüş və heyran etmişdir. Əsrlər keçməsinə baxmayaraq, dekorativ-tətbiqi sənətin bu unikal növü müasir dövrdə də maraq və diqqət mərkəzindədir.

Rəssamın yaradıcılığına toxunan Fərhad Xəlilov deyib: "Ağasaleh Nuri istedadlı bir insandır. O, bu sənətdə uzun illərdir ki, çalışır. Sərgini ərsəyə gətirmək üçün uzun illərin gərgin əməyi tələb olunur. Ağasaleh Nuri də bu sənətdə qocaman bir rəssamdır. Onun vitraj əsərləri çox incə formada işlənilib. Ancaq Ağasaleh Nurinin istedadı tək bununla bitmir. Sərgidə onun bir neçə rəsm əsərləri də nümayiş olunur. Rəsmlərə baxdıqca rəssamın şüşə kimi kövrək bir qəlbə sahib olduğunu görürük. Bu, onun xasiyyətini əks etdirən bir sərgidir".

Rəssamın qızı Aliyə Əzimova serginin qonaqlara mənəvi bir gözəllik bəxş edəcəyinə ümidvar olduğunu söyləyib. Atasının sənətə vurğun olduğunu deyən A.Əzimova bildirib ki, bu qədər çətin sənətlə məşğul olmaq üçün ona qarşı fədakarlıq göstərmək vacibdir: "Atamın əsərlərində Qərblə Şərqin əlaqəsi mövcuddur. Bir sərginin hazırlanması çətin prosesdir".

Sərginin açılmasına görə Heydər Əliyev Mərkəzinə və zəhməti keçən bütün insanlara təşəkkür edən Ağasaleh Nuri deyib: "Yeni dövr hər zaman yeni ənənələr yaradır və buna görə də vitraj - inkişaf edən, yeniləşən və çətin tərif olunan fenomendir. Şüşə özünəməxsus sonsuz imkanları ilə uğurlu və səmərəli bir materialdır. Vitraj gələcəyin sənətidir, mən buna əminəm".

Sonra qonaqlar sərgi ilə tanış olublar.

Sərgi çərçivəsində həmçinin Ağasaleh Nurinin həyatını əks etdirən və rəssamın yaratdığı vitraj əsərlərindən ibarət "Nurlu sənət dünyası" adlı kitab da təqdim olunub.

Sərgidə Ağasaleh Nurinin vitraj əsərləri, kömür və yağlı boya ilə çəkdiyi rəsmlər, həmçinin rəssamın ərsəyə gətirmədiyi əsərlərin eskizləri də nümayiş olunur.

Bakı Metropoliteninin "İnşaatçılar" stansiyası üçün layihələndirdiyi "Musiqiçilər" adlı diplom işi kimi uğurlu başlanğıcdan sonra Ağasaleh Nuri Azərbaycanın incəsənət həyatında fəal iştirak edərək bir sıra ictimai, dövlət və özəl binalar üçün vitraj əsərləri yaradıb. Onun əsərlərini Azərbaycan Rəssamlar İttifaqı, AMEA-nın Əlyazmalar İnstitutu, Səməd Vurğunun ev-muzeyi, Bibiheybət məscidi, Bakı şəhərindəki alman lüteran kilsəsi və digər görkəmli binalarda görmək olar.

Sərgi avqustun 28-dək davam edəcək.

**«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 8 oktyabr (Çərşənbə axşamı günü) tarixli IX nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN


Səşənbə, 1 məhərrəmülhəram sənə 1337. 8 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə “Azərbaycan” idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.


## BAKI ŞƏHƏRİ VƏ ƏTRAFI ƏHALİSİNƏ ELANİ-RƏSMİ

1 – Bəzi başıpozuq əşqiya [quldur-lar] və əşərranın [yaramazların] əğrazi-xüsusiyyələri [şəxsi məqsədləri] uğrunda kəndi-kəndilərinə məmur süsü verərək, gecə və ya gündüzləri bəzi erməni ailələrinə bilmüraciə filan və ya filan adamın polis müfəttişi və ya qradanaçalnik tərəfindən tələb edildiyindən bəhslə, kəndilərini götürdükləri və ya götürmək istədikləri xəbər alınmışdır.

2 – Əhali ümumən bilməlidir ki, hökumətcə kəndilərinə lüzum görülən hər hansı adamı gecə aramaya lüzum yoxdur; hökumət istədiyi təftişatı gündüz yapar. Binaileyh, gecə bu yolda müraciət vüquunda ilk tədbir olmaq üzrə hadisəni dərhal ən yaxın polis mərkəzinə xəbər verməli və gündüzləri 25-80 nömrəli, gecələri nisfülleyldən [gecə yarısından] sonra üçün 44-66 polis müfəttişliyinə telefon etməlidir.

3 – Polis vəzaifinin [vəzifələrinin] başıpozuqlarla əlaqəsi olmadığından, hüviyyət [şəxsiyyətini] və sifəti-rəsmiyyəsini [rəsmi kimliyini] uniformasıyla olmazsa belə, övraqi-rəsmiyyəsiylə [rəsmi sənədləri ilə] isbat edəmməyən heç bir kimsəyə əhali etibar və təbəiyyət [tabeçilik] etməməli və vüquunda [baş verdikdə] bərvəchiməruz [deyildiyi şəkildə] polisə ixbari-keyfiyyət olunmalıdır [hadisə xəbər verilməlidir].

4 – Tərəfimizdən şiddətlə təqib edilməkdə olduqlarından er və ya gec yaxalanacaq bu misilli əşxası [bu kimi şəxsləri] bilənlərin lütfən müfəttişliyə ixbar etməsi və bilib də sələməti-ümumiyyə əleyhində bunları kətm edənlərin [gizlədənlərin] faili-müştərək ədd edilərək [cinayət ortağı hesab edilərək] ən şədid [şiddətli] cəzaya məruz qalacaqları əhəmiyyətlə elan olunur.

*2/10/34 [2 oktyabr 1918]*
*Azərbaycan Polis müfəttişi-ümumisi Bəhaəddin*

## ELAN

Oktyabr ayının 5-də 1918-ci ildə Azərbaycan Hökuməti tərəfindən verilən qərardad mövcibincə [qərardada uyğun olaraq], hamı neft mədənləri və onlara mütəəlliq [onlarla əlaqəli] idarələr yenidən sahiblərinə qaytarılmalıdır. Bununla ümum firma sahiblərinə elan olunur ki, neft ehtiyatı və qeyri məhsul [hasil] ediləcək mədəniyyatın [mədən məhsullarının] miqdarı məlum olduqdan sonra mədənlərə, zavodlara və bunlarda olan əmlaka sahib olmaq olar. Bu barədə xüsusi elan olunacaq-dır.

*Ticarət və Səna’ət naziri:*
*A. Aşurov.*

## TİCARƏT VƏ SƏNA’ƏT NƏZARƏTİNDƏN [TİCARƏT VƏ SƏNAYE NAZİRLİYİNDƏN]

Bununla milliləşmiş firmaları idarə edən heyətlərə elan olunur ki, firmaların sahiblərinə qaytarılması qanunu elan edildikdə, idarələrində olduğu əmlakı sahiblərinə yaxud müvəkkillərinə tapşırıb, Xalq Təsərrüfatı Şurasına idarə etdikləri müddətdə icra etdikləri məxaricin maliyyə və sənaye cəhətcə hesabını göstərməlidirlər.

*Ticarət və Səna’ət naziri:*
*A. Aşurov.*

## BAKIDA MÖVCUD BİLÜMUM RUS ZABİTANINA ELANİ-RƏSMİ

Məişətlərində müşkilat çəkən rus zabitanının hökumət naminə tərfihi-halları [rifahının yaxşılaşdırılması] Ordu Komandanı Paşa həzrətləri tərəfindən veriləcəyindən, əmr olunmaqla, kən-dilərində olaraq Bakıda mövcud bilümum [bütün] rus zabitanının zükur və ünas [kişi və qadın] ailələri əfradının [fərdlərinin] isimlərini havi [ehtiva edən] birər listə [siyahı] ilə Polis Müfəttişi-Ümumiliyinə müraciətlə dəftəri-məxsusuna qeyd olunmaları lüzumu elan olunur.

*Azərbaycan Polis müfəttişi-ümumisi: Bəhaəddin.*

## ELANİ-RƏSMİ

Düşmənin əsnayi-fərarında [qaçarkən] buraxdığı toplardan bəzilərinin qəmə və durbinlərini gizlədiklərindən, əhalidən top qəmə və durbinlərini bulub da gətirənlərə bəhər [hər bir] qəmə üçün iki min və bəhər top durbini üçün min rublə mükafat veriləcəyi və bunların Polis Müfəttişliyinə müraciətləri lüzumu elan olunur.

*Azərbaycan Polis müfəttişi-ümumisi: Bəhaəddin.*


Siyasi, ictimai, ədəbi və iqtisadi gündəlik
**«AZƏRBAYCAN»** qəzetəsinə
abunə dəftəri açıqdır.

Qəzetəmizdə iştirak etmək üçün müqtədir qələm sahiblərindən lazımi əşxas[ı] idarəmiz dəvət etmişdir.

Böyük şəhərlər və əhəmiyyətli mövqe-lərdə müxbirlərimiz mövcuddur.

Tiflis ilə xüsusi telefon müxabərəmiz [xəbərləşməmiz] olmaqla bərabər, teleqraf acentəliyimiz hər bir mühüm xəbərləri intişara [yaymağa] çalışacaqdır. Kağız bahası [qiyməti] və başqa məvadd [maddələr] sabit olmamağı münasibəti ilə, şimdilik abunə bahası yanvar ayının birinədək qəbul edilir.

Bakıda:
3 aylığı 35 rublə;
1 aylığı 12 rublə.

Başqa şəhərlərdə:
3 aylığı 42 rublə;
1 aylığı 19 rublə.

**Müraciət üçün adres:**
Bakı, Kolyubakinskaya küçədə (Parapet) “Azərbaycan” qəzetəsi idarəsi.

Баку, Колюбакинская, контора газеты “Азербайджанъ”.


## HÖKUMƏT QƏRARDADI

**Azərbaycan Cümhuriyyətində aksiz idarələri təşkili**

1) Azərbaycan Hökuməti dairəsində olan Zaqafqaz Aksiz İdarəsinin 3, 5, 7-ci mahalı və 4, 6-cı mahalların hissələri bağlanır və həman mahalların məmurları hərgah bu qərardad elan edilənədək qulluqda imişlərsə və qeyri bir qulluğa girməmişlərsə, onlara hökumətin müəssisələri təxliyyəsi barəsində elan olan qərardad üzrə təxliyyə maaşı verilir.

2) Həman birinci qərardadda göstərilən aksiz mahalları əvəzinə üç quberniya aksiz idarəsi təşkil olunur: Birisi Gəncə şəhərində Gəncə quberniyası və Zaqatal mahalı üçün; ikincisi Bakı şəhərində Bakı quberniyası üçün ümumi aksiz üçün; və üçüncüsü də Bakı şəhərində neft vergisi üçün.

3) Quberniya aksiz idarələri uçastoklara [sahələrə] bölünür. Uçastoklar isə aksiz uçastok nazirinə mühəvvəl edilir [tapşırılır]. Uçastokların miqdarını hər idarə üçün Maliyyə naziri həll edir.

4) Aksiz pullarını yığmaq və idarə işləri Maliyyə Nəzarətində idarə edilir.

İşləri yerində nəzarət etmək isə aksiz qanununun bəzi maddələrindən naşi [maddələrinə görə] quberniya aksiz idarəsinə mühəvvəl edilir.

5) Aksiz idarəsində qulluqlar bu qayda ilə təqsim olunur [bölünür]: Aksiz pulu yığanların müdiri, müfəttiş, vəkil-konsul, mədən yağlarını bilmək üçün tüccar, katib, dəftərdar, katibin müavinləri və qeyri dəftərdarlar, idarə məmurları, birinci və ikinci cərgəyə hesab olan qapıçılar və mədaxil yığmaq üçün uçastok nazirləri, böyük və kiçik kontrollar, fabrik kontrolları, süvari və piyada yasavullar.

Qeyd: Aksiz nazirləri nəzarətçilərin müavinləri əvəzinə təyin olunurlar və axırıncıların ixtiyaratı bütün nazirə keçir.

6) Mahal nəzarətçiləri, müavinləri və baxıçılar qulluqları ləğv edilir.

7) Aksiz müdirləri, müfəttişlər, vəkil-konsullar qulluğa ancaq Maliyyə naziri tərəfindən təyin olunub və ya qulluqdan kənar edilirlər. Yerdə qalan məmurları aksiz işlərinin müdiri təyin edib yainki qulluqdan kənar edir və bu barədə Maliyyə Nəzarətinə məlum edir.

8) 5-ci maddədə göstərilən məmur hamısı hökumət məmurları hesab olunub və pensiya qanunu üzrə pensiya almağa da ixtiyarları vardır.

9) Tiflisdəki aksiz idarəsində Azərbaycana təəllüq [aid] olan işlər hamısı gərək ayrılıb Azərbaycan Aksiz İdarəsinə verilsin.

10) Məmurların maaşı və onların ədədi hər aksiz idarəsində gərək xüsusi siyahıda göstərilsin ki, həman siyahını da Azərbaycan Hökuməti təsdiq etsin.

**Azərbaycan Hökumətindən qeyri məmləkətlərə köçüb və orada müvəqqəti yaşayacaq şəxslərin əşyalarını Azərbaycan Hökumətindən keçirməyin tərzi**

1) Azərbaycan Hökumətində yaşayıb, sonra qeyri məmləkətə müvəqqəti olmaq üçün köçmək istəyən şəxs özüylə gömrüksüz gömrük hesabı ilə 750 manatlıq, külfət isə 1350 manatlıq ev əşyası aparmağa ixtiyarı vardır.

2) Aparılan ev əşyaları gərək işlən-miş ola, çünki qeyri mal aparmağa öylə ixtiyar verilmir.

3) Gömrüksüz aparılacaq şeylər barəsində ərizə Ticarət və Sənaye nazirinə verilir.

4) Ərizə ilə bərabər, aparılacaq əşyanın siyahısını divanxana təsdiq etdikdən sonra ki, doğrudan da əşya gedənə təəllüqdür [məxsusdur] və evdə işlənir, verilir.

5) Gömrükxana isə həman gedən ev əşyalarını təhqiq edib, yuxarıda denilən qiymət üzrə gömrüksüz qeyri məmləkətə buraxılır.

**Neft mədənlərinin sahiblərinə verilmək qanunu**

Azərbaycan Cümhuriyyəti Vükəla Şurasının [Nazirlər Kabinetinin] qərardadı

1) Bakı quberniyası dairəsində mədənlərin və bunlara mütəəlliq [məxsus] əmlak və ticarət donanmasının milliləşməsi və idarəsi barəsində sabiq Xalq Komissarları Şurası tərəfindən verilmiş qanun və fərmanlar fəsx olunur.

2) Mədənlərə, zavodlara, vaporlara və bunlara məxsus əmlaka malik olmaq və idarə etmək haqqı, bunlardakı neft ehtiyatının və məhsulatının miqdarı təyin edildikdən sonra, sahiblərinə və yaxud müvəkkillərinə veriləcəkdir.

3) Hamı firma sahibləri və müdirləri, idarəsində olan neftin və neft məhsulatının miqdarı barəsində Ticarət və Səna’ət Nəzarətinə məlumat verməlidir.

Qeyd: Yuxarıda zikr olunan məlumatı düz verməyənlər və yaxud boyun qaçıranlar hökumət əksinə fəaliyyətdə bulunmaqda müttəhim edilib, divanihərb qanunu mövcibincə [hərbi məhkəmə qanununa uyğun olaraq] cəzalanacaqlardır.

4) Firmalarda mövcud olan neft ehtiyatı və neft məhsulatı hökumət tərəfindən bu barədə xüsusi qanun verilənədək sahiblərinə və müdirlərinə tapşırılıb, hökumətin ixtiyarında qalmalıdır. Firma sahiblərinə və müdirlərinə, Ticarət və Səna’ət nazirindən icazəsiz bu şeyləri nəql etdirmək mən [qadağan] edilir.

5) Bu qanunun həyata tətbiq edilməsi Ticarət və Səna’ət nazirinə mühəvvəl olunur [tapşırılır].

* * *

Temmuzun 9-da 1918-ci [ildə] Ərzaq naziri tərəfindən verilən qanun mövcibincə [qanuna görə], icazəsiz və şəhadətnaməsiz aşağıda göstərilən miqdarda Azərbaycan Hökuməti daxilindən ərzaq dışarı çıxarmaq olar:

| | | | |
|---|---|---|---|
| 1 | çörək | 5 | girvənkəyədək |
| 2 | pənir | 1 | " " " |
| 3 | yağ | 1 | " " " |
| 4 | qənd | 1 | " " " |
| 5 | çay | 1/8 | " " " |
| 6 | balıq kürüsü | 1 | " " " |
| 7 | meyvəcat | 10 | " " " |
| 8 | yemiş və göyərti | 10 | " " " |
| 9 | yumurta | 10 | dənəyədək |
| 10 | şərab və sair məşrubat | 1 | butılka |

*Katib: Bortsov.*

## NÖVBƏTİ MƏSƏLƏLƏRİMİZ

İştə, əsrlərcə Rusiyada və baxüsus Qafqaziyada hökmfərma olan zülm və istibdad Qafqaziya türklərini ruhən əzmiş və vətənlərinə qarşı hissiz buraxmışdı. Fəqət bu gün əzilmiş, adəta ölmüş olan o ruhlar dirilməyə və ucalara çıxmağa başlamışdır. Hətta o zamanlar Rusiya istibdadı o dərəcəyə gəlmişdi ki, Qafqaziya islamlarına bir taqım dövlət məktəblərində yer verməzdi.

Zatən bizim Qafqaziyalılarda mülkiyyə məmuru, daha doğrusu, adi rus çinovniki olmaq arzusu çox olduğundan, bu yerlərdə adamlarımızın olmaması gözə çarpmırdısa, əsgərlik məsələsində gizli mətləblər tamamilə meydana çıxırdı. Zatən bizlərə daima şübhəli baxan Çar hökuməti bu dəfə bizlərdən əsgər tutmamasıyla Zaqafqaziya türklərini bir növ xoşnud [məmnun] etmişdi. Lakin əsgərlik böyük bir vəzifə olduğundan, bizi bundan bir az kənarda saxlayırdılar. Fəqət artıq Nikolayların dövrü keçdi, bir inqilab, bir ixtilal aşdı. Qafqaziya türkləri kəndi qan qardaşları köməyi ilə azad və müstəqil olmağa başladı. Bu ana qədər əzilməkdə olan ruhumuz artıq o əzilməklərdən xilas oldu. Bu gün “vəhşi” deyə əsgərliyə almamaqla bizi təhqir edəcək bir kimsə qalmadı. Biləks, Orduyi-müzəffəri-islam [qalib müsəlman ordusu] komandanlığı Qafqaziya qardaşlarını vətən üçün ibrazi-himmət etməyə [səy göstərməyə] dəvət edir. Bu gün ali bir vəzifə ilə müvəzzəf olub [ali bir vəzifəni çiyninə alıb], qəhrəmanlıqlar göstərmək zamanı gəlmiş. Mazidə [keçmişdə] əsgərlikdən qaçmaq üçün İran pasportu (təzkirəsi) çıxaran, sinlərini [yaşlarını] azaltmağa təlaş edənlər bu gün artıq bizim miyanımızda [aramızda] olmasın gərək. Həpimiz yekvücud olaraq kəndi mövcudiyyəti-milliyyəmizi, kəndi irzü namusumuzu müdafiəyə qiyam edəlim [müdafiə etmək üçün ayağa qalxaq]. Binaileyh dövlət təşkil etmək üçün lazım olan bir şey varsa, o da qüvvə, qüvvə, yenə də qüvvədir.

İştə o qüvvə də əbnayi-vətənin [vətən oğullarının] fədakarlığından asılıdır. Azərbaycanın hökumət idarəsi təşkil olduğu zamanda dürlü yerlərdən gələcək bir seyyiənin [yamanlığın] qarşısını almaqla, bu cahanşümul bir müharibə zamanında səfərbərlik halına gəlməlidir [səfərbərlik halına gəlməliyik].

Birinci məsələmiz böylə.

Əsgərlik bizə nə qədər lazım isə, elə də atidə [gələcəkdə] bizə lazım olacaq ticarət və sənaye müəssisələrində mövqe tutacaq bu gün artıq gəncləri hazırlamaq icab edir. Hazır[da] dəmiryolları, elektrik istasyonu (işıq), teleqraf, telefon və kəzalik [eləcə də] bir çox mühim işlər qeyriislamlar [müsəlman olmayanlar] ilə məmludur [doludur]. Azərbaycan Cümhuriyyəti səfərbərlik elan etdikdən sonra bir az məlumatlıları Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] tərəfindən dəmiryollarda makinaçılıq və mövqiflərə [stansiyalara] lazım olan yerlərə cəlb etməlidir. Habelə avtomobil təmiratı və başqa əməliyyatxanalarda həp gənclərimizi müvəzzəf etməlidir [gənclərimizə vəzifə tapşırılmalıdır].

İşbu tərzlə bir qaç yüz min orduya malik Azərbaycan Hökuməti hər bir vadidə işləyəcək əşxası [adamları] da yetirmiş olar ki, bugünkü makina və mədəniyyətlər münaqişəsində biz də əli boş qalmarız.

Bunların ümumisi intizam və itaət ilə olacağından, əsgərlikdən ürkmüş bir taqım gənclərimiz var qüvvə ilə yekdigərlərini [bir-birlərini] vətənə, dövlətə müavinət [yardım] üçün təşviq etməklə olar. Türklüyü və onun ruhi-pakini daha da ucalara qaldırmaq üçün yeni təsis edilən Hökuməti-Cümhuriyyəmizə itaət etməlidir.

Haydı, gənclər, atini [gələcəyi] təmin etmək üçün hökumət əmrlərini dinləyiniz. O da ümumun səadəti üçün təşəbbüsə başlamışdır.

*H. Hənəfi*

## TELEQRAF XƏBƏRLƏRİ

**Gürcü Teleqraf Acentəsindən**

Poti – 26 eylül. Dün Ukraynaya gələn alman nəqliyyat vaporu ilə birinci dəfə olaraq 114 min put miqdarında Ukrayna buğdası gətirildi. Bu buğda almanlar tərəfindən Gürcüstanın Şəhərlər İttifaqı üçün alınıb, tənbəki ilə əvəz ediləcəkdir. Bu buğda, kisələr hazır edildikdən sonra, Tiflisə göndəriləcəkdir.

Sofiya – 26 eylül. Hökumət bloku firqələri tərəfindən bu məzmunda bir nota nəşr edilmişdir: “Hökumət bloku firqələrinin rizasıyla Bolqariya Hökuməti eylülün 26-da saat 5-də düşmənə rəsmi surətdə mütarikə [atəşkəs] təklif etmişdir.”

## TÜRKİYƏDƏ

**Daxiliyyə naziri-cədidinin [təzə Daxili İşlər nazirinin] əmri**

Daxiliyyə naziricədidi Canbulat bəy vali və mütəsərriflərə teleqraf ilə xəbər vermişdir ki, bilümum əhalinin malı, həyat və namusunun vəqayəsi [qorunması] hökumətin vəzaifi-əsasiyyəsindən [əsas vəzifələrindən] olduğu üçün hərəkatinalayiqədə [nalayiq hərəkətlərdə] bulunanlar mücazata [cəzaya] düçar olacaqlardır.

**Türk Ocağında intixabat [seçkilərin] nəticələri**

Türk Ocağından:

Konqre intixabatının nəticəsində müxtəlif heyətləri təşkil edən zəvatın [şəxslərin] isimlərini və aldıqları rəyin [səsin] miqdarını aşağıya qeyd ediriz:

İdarə heyəti: Həmdullah Sübhi bəy 132, Məhməd Əmin bəy 123, Doktor Həsən Fərid bəy 112, Nüzhət Sabit bəy 68, Darülmüəllimin müdiri Sərvət bəy 65, Xalidə Ədib xanım 63, İlyas Raqib bəy 61. İdarə heyəti ilk ictimasını [yığıncağını] əqd etmiş [keçirmiş] və Məhməd Əmin bəy rəyasətə, Həmdullah Sübhi bəy kitabətə [katibliyə], Doktor Həsən Fərid bəy mühasibəyə və Sərvət bəy də mürəxxəsi-məsulluğa [məsul nümayəndəliyə] intixab olunmuşdur.

Hərs [mədəniyyət] heyəti: Ziya Gökalp bəy 141, Hüseyinzadə Əli bəy 112, Həmdullah Sübhi bəy 111, Ağaoğlu Əhməd bəy 105, Xalidə xanım 103, Köprülüzadə Fuad bəy 102, Nəcib Asim bəy 94, Məhməd Əmin bəy 80, Halim Sabit bəy 71, Vələd Çələbi əfəndi 68.

Heysiyyət divanı: Kazım Nami bəy 65, Ziya Gökalp bəy 59, Vəliyüddin bəy 52, Əhməd Fərid bəy 49, Sadəddin bəy 40.

Müraqibə [nəzarət] heyəti: Sadəddin bəy 91, Əmin Ali bəy 66, Müfid Nəcdət bəy 63 intixab edilmişdir.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 8 oktyabr (Çərşənbə axşamı günü) tarixli IX nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## KRIM TƏZYİQ EDİLİR

**İstanbulda nəşr edilən "Zaman" qəzetəsində oxuduq:**

Krım haqqında istehsal etdiyimiz məlumat məəttəəssüf heç də şayani-məmnuniyyət deyildir. Krımdaki yeni vəziyyət Krım müsəlmanlarını istiqballarını, istiqlalları haqqında əndişələrə düşürəcək bir şəkil almışdır. Krımlılar bir çox əsbab [səbəblər] və əvamil [amillər] təhtində [altında] olaraq əhvali-haziraya [hazırkı vəziyyətə] qarşı böyük bir məmnuniyyətsizlik izhar edirlər [göstərirlər]. Fəqət bütün bunlar kafi deyilmiş kimi, bir müddətdən bəri Ukrayna da Krım üzərində doğrudan-doğruya icrayi-təzyiq etməyə başlamış. Krımlıları Ukraynaya əsir qalmağa nəhayət razı etmək üzrə Krıma hər dürlü zəxirə [taxıl] və məkulat [ərzaq] ixracını mən [qadağan] eyləmişdir. Buna bir çarə bulmaq, vəziyyətləri etibarilə vəzifələri olanlar da büsbütün başqa bir yol təqib etmişlərdir. Krımda son vəziyyətlərin təhəddüsündən [meydana gəlməsindən] əvvəl epeycə [xeyli] zəxirə vardı. Yerli tüccar [tacirlər] əlindəki bir çox böyük depolarda xeyli məkulat və sairə bulunur idi. Almanlar Krımlıları bolşevik zülmündən qurtarmaq üzrə şibhcəzirəyə [yarımadaya] daxil olunca, mövcud zəxair [taxıllar] və məkulat müxtəlif surətlərlə yerlilərin əlindən çıxmışdır. Bunların qismən hökumət malı olması doğrudan-doğruya müsadirələrin intac etmiş [müsadirələri ilə nəticələnmiş], tüccar əlindəkilər də günün birində Ukraynanın Krımı ac buraxmasına meydan verə biləcəyini təxmin edəmməyən sahiblərinin əlindən ucuz fiatlarla alınaraq başqa tərəflərə nəql edilmişdir. Bu səbəblər dolayısıyla Krım bu gün pək müşkül bir vəziyyətdə bulunmaqda və oradakı qardaşlarımız da buna mümasil [oxşar] əsbab və əvamil həsabilə [səbəbindən] vəziyyəti-hazirəyə qarşı ədəmi-məmnuniyyət [məmnuniyyətsizlik] izhar eyləməkdə və məmləkətlərini bir an əvvəl bizzat [şəxsən özləri] idarə etmək imkanına müzəffəriyyətlərini [nail olmaqlarını] təmənna [arzu] etməkdədir.

## BAKI XƏBƏRLƏRİ

Dün Bakıda rus dilində "Azərbaycan" qəzetəsinin birinci nömrəsi nəşr edildi. Cənabi-haqdan məzkur [adı çəkilən] qəzetənin davamı üçün müvəffəqiyyət diləriz.

**Bakı bolşevik məşahirinin [məşhur bolşeviklərinin] aqibəti**

Hacı-Tərxandan Bakıya gəlmiş sərnişinlərin dediklərindən böylə anlaşılır ki, Bakı[nın] süqutu yavuqlaşdığı zaman bir paraxodla Bakı bolşeviklərinin məşahiri [məşhurları] Bakıdan fərar edib Krasnovodsk şəhərinə ümid bağlamışlar. Bu şəharin komitə əsgərləri əhvaldan müxbir [xəbərdar] olub, dərhal sərnişinləri əhatə edərək, məşahirdən Qafqaz Fövqəladə vəkili Stepan Şaumyan, böyük oğlu Suren, Bakı Şura rəisi Caparidze, komissar Şeboldayev, Məşhədi bəy Əzizbəyov, Korqanov və bir də iki nəfər şəxsləri naməlum bolşevikləri həbs edib də, saldatlar səfləri arasından keçirib, sonra onlara təklif etmişlər ki, özlərinə qəbir qazsınlar. Bə'dəhu [ondan sonra] saldatlar məhbusları səflərə düzüb, ataş ilə qətl etmişlər. Və bu minval ilə Bakı bolşeviklər məşahirinin ən yeganə aqibətləri südur etmişdir [gerçəkləşmişdir].

**Natarius Arjanixanın həbsi**

Babayevanın 4 milyonluq evini 10 min manata Saqatelidzeyə rəsmi natarius əqdnaməsi [müqaviləsi] ilə satan Arjanixa dört gün əvvəl polis məmurları tərəfindən tövqif [həbs] edilərək Polis müfəttişümumisi divanxanasına təqdim edilmiş ikən, məzkur [adı çəkilən] Arjanixa divanxanada qaraqolun kəsrətsizliyindən [çox məşğul olmasından] istifadə edərək fərar edibmiş. Srağa gün Arjanixa yenidən həbs edilib, istintaq üçün Bəhaəddin əfəndinin hüzuruna təqdim edildi. Əsnayi-istintaqda Xanım Babayevanı süngü və tüfənglər təhdidi ilə əqdnaməni imza etdirmək vaq'əsini etiraf etmədisə də, lakin keyfiyyəti-əqdnamə sentyabrın 17-də vüqu bulduğu halda, əqdnamənin tarixini 31 avqust səbt [qeyd] etməsinə heç bir səbəb göstərə bilmədi.

Bəy əfəndi bəzi məlumat əxz edəndən sonra, xüsusi qaraqol təhti-nəzarətində [nəzarəti altında] tutulmaq şərti ilə Arjanixanın həbs edilməsini əmr buyurdu.

**Qaçqınların xahişi**

Məlum olduğu üzrə, qəhrəman Türk Ordusu qələbə edərək Bakıya yavuqlaşdıqca, müharibə cəbhəsinə yavuq məhəllərdən əhali fərar edib, Bakıya hicrət edirdilər.

Bu son zamanlarda Bakıda on minlərlə qaçqınların toplanması mühaqqəq [şübhəsiz] idi. Bu axırkı müharibədə 2 mindən ziyadə malakan qaçqınları Bakıya gəlmişlər.

İmdi hər yerdə səlaməti-ümumiyyə [ictimai təhlükəsizlik] bərpa edilib, həyat öz sabiqki adəti rəngini almağından dolayı, Bakıdakı qaçqınlar imdi öz vətənlərinə övdət etmək [qayıtmaq] istəmişlər. Və bu məqsəd ilə qaçqınlardan bir heyəti-vükəla [nümayəndə heyəti] ərizə ilə Bakı qubernatoruna rücu [müraciət] edib, müsaidə istəmişlər. Bakı qubernatoru məzkur ərizəni Daxiliyyə nazirinin rəy və əmrinə həvalə etmişdir.

**Ətraf vilayətlər ilə müxabərat [xəbərləşmə]**

Necə ki məlumdur, Bakıdan qaçmış hərbi paraxodlar bir çox ticarəti paraxodlar ilə Bakı bargahının [limanının] qarşısında durub da Bakıya gələn sərnişin paraxodlarını tövqif [həbs] edirdi. Bu gün beş gün tamamdır ki, hər gündə bir paraxod "Qafqaz-Merkuri" körpüsünə gəlib sərnişinləri buraxır. Bu minval ilə Ənzelidən və Lənkərandan və Hacı-Tərxandan hər gün bir paraxod gəlib Bakıya çıxır. Sərnişinlərin dediklərinə görə, Nargin cəzirəsi [adası] qarşısında bir çox sərnişin paraxodları toplanmışdır. Hər paraxodda 2-3 min sərnişinlər olduğu halda, bunların cümləsi acliq bəlasına mübtəladırlar.

Sərnişinlərin arasında bir çox müsri [yoluxucu] xəstəliklər, baxüsus tif (yatalaq) kimi mərəzlər müşahidə olunur. Hər paraxodda gündə 20-30 nəfərə kimi insan tələf olur. Biçəraxovun nümayəndəsi Voskresenski sərnişinləri Bakıya gəlməkdən mən [qadağan] etmək istəyir. Lakin sərnişinlər bir səslə "Türklər bizə nə edəcəklərsə etsinlər, fəqət bizi vətənimizə buraxın!.." deyə tələb edirlər. Voskresenski Bakıya gələnlərin bütün ərzaq və pürqiymət [qiymətli] əşyalarını zəbt edir. Bu gün paraxodlarda minlərcə əhali var ki, Bakıya gəlmələrində səbirsizlik göstərirlər. Voskresenski sərnişinlərin erkəklərini başqa bir paraxoda alıb, çocuq və qadınları buraxır.

Lənkərandan gəlmiş sərnişinlər söyləyirlər ki, məhəlli [yerli] sosialist hökuməti yerli əhalini Sarı adasına köçürmək istəmişdir. Lakin əhali bir səslə bunların tələblərini rədd etmişlər. Ərzaq cəhətincə buralarda firavanlıqdır. Lakin qənd, çay, neft və manufaktur cəhətincə ehtiyac çoxdur.

**Dərbənd və Xaçmaz yolunun açılması**

Dün Bakı mövqifinə [stansiyasına] Dərbənddən gəlmiş bir qatar varid oldu. Qatarda bir çox miniklər və ticarət üçün əmtəə mövcud idi.

Söyləndiyinə görə, Xaçmaz və Dərbəndə kimi dəmiryol müxabəratı [əlaqəsi] açılmışdır.

* * *

– Srağa gün Qafqaziya Müsəlman Ordusu Baş Komandanı Nuri paşa həzrətləri Bakıya varid olmuşdur.

* * *

– Yusif İzzət paşa Dağıstan Hökuməti Sədri Ə. Çermoyev ilə bərabər Bakıya gəlmişdir.

* * *

– Maliyyə Nəzarəti tərəfindən Şəhər İdarəsi məmurlarına məvacib vermək üçün milyon yarım pul buraxılmışdır.

* * *

– Eşitdiyimizə görə, Azərbaycan tacirləri tərəfindən Ukraynada çoxlu qənd alınıb neft ilə əvəz ediləcəkdir.

* * *

– Təşrini-əvvəlin [oktyabrın] 7-dən Ədliyyə Nəzarəti "Metropol" mehmanxanasından Babayevin dəniz kənarındakı mülkünə köçür.

**Gürcü heyəti**

Bu günlərdə Bakıya general knyaz Maqalov başda olmaqla bərabər gürcü heyəti gəlmişdir. Bu heyətə daxil olanlar bunlardır:

Knyaz Dadiani, Djaqeli, Andranikov, Xoştariya, İosilyani, Mamulaşvili və general Mikaladze.

Knyaz Maqalov bizim müxbir ilə görüşdükdə demişdir ki:

*Bakıya gəlməkdə bizim heyətin ümdə məqsədi vətənlərinə qayıdan gürcülərə müavinətdə [yardımda] bulunub, Gürcüstana neft göndərmək qanununu intizama salmaqdır.*

*Azərbaycan Hökuməti bizi kamaliməmnuniyyətlə qəbul edib, tezliklə məqsədlərimizə müvəffəq olacağımızı arzu etmişdir.*

*Bakıda yaşayan gürcülərin çox hissəsi mart və iyul hadisəsi əsnasında maddətən zərər görmüşlər. Hal-hazırda burada yaşayan gürcülərin həyat və əmlakı Azərbaycan Hökuməti tərəfindən təmin edilmişdir. Bu günlərdə vəzifəmizi ifa edib, Tiflisə gedəcəyiz. Azərbaycan Hökuməti cənbində [nəzdində] Gürcüstan Cümhuriyyəti tərəfindən siyasi məmurluqla N.İ.Kartsivadze təyin edilib, bu yaxında Bakıya gələcəkdir.*

*Mən və mənim heyətim Azərbaycan Hökuməti sifətində [şəxsində] hamı Azərbaycan türklərini Bakının alınması və yeni müstəqil hökumət təşkili ilə təbrik edib, gələcəkdə dəxi dostanə bir əlaqədə olmamızı arzu ediriz. Azərbaycan Hökuməti bundan belə qomşusu Gürcüstan Hökuməti ilə dostanə əlaqədə olacağını hökumətimizə məlum etmişdir.*

**Müftü əfəndi həzrətləri Bakıda**

Şanlı Türk Ordusu Bakını fəth etdikdən sonra, Gəncədə bulunan Azərbaycan Hökumətinin heyəti-vükəlası [Nazirlər Kabineti] və onların nəzarətləri [nazirlikləri] Bakıya nəql edildiyi xəbər verilmişdi. Fəqət o zaman babiməşi-xətin [Şeyxülislamlıq İdarəsinin] Bakıya köçürüldüyü və rəisiruhanimiz olan müftü Mustafa Əfəndi həzrətlərinin Bakıya gəldiyi yazılmışdı.

İştə, qəzetəmizin bu gün aldığı məlumata nəzərən, müftü əfəndi həzrətləri heyətivükəla ilə bərabər Bakıya təşrif etmiş və o gündən bəri təhti-idarələrində [idarəsi altında] bulunan babiməşixətdə fəaliyyətə başlamışdır.

## HADİSAT

**On min manat pul tələb etmək üçün**

Armyanski və Karantinni küçələrin küncündə Səlimovun evində bulunan mühəndis Xudabaşyan Polis müfəttişi Bəhaəddin bəy əfəndiyə telefonla xəbər verirlər ki, bir nəfər yerli müsəlmanlardan "inzibati-əsgəriyyə" [hərbi polis] əlamətini qoluna taxıb da odaya gəlib, həbs təhdidi ilə on min rublə para tələb edir. Müfəttiş əfəndi bila-təxir [dərhal] əmr buyurar ki, Xudabaşyanın odasına qaraqol təyin edilsin. Bir gün sonra məzkur [adı çəkilən] şəxs Xudabaşyanın odasına həman tələb ilə gəlincə dərhal dərdəst [həbs] edilər. Məlum olar ki, bu xırsız Bakı ətrafında Qala kəndinin əhli Hacı Axundovdur ki, inzibati-əsgəri əlamətini taxıb da xırsızlığa məşğul imiş. Xırsızın dərhal qolları sarınıb da müfəttiş bəyin avtomobilində müdiriyyətə gətirildi. Hacı Axundov Xudabaşyana təqdim edilib də cinayət təhqiq edincə, iş divani-hərbə [hərbi məhkəməyə] veriləcəkdir.

**Daşnakların baydaqları**

Dün jandarma polis məmurları tərəfindən Müfəttişliyə bir qaç tanə daşnakların firqə baydaqlarını gətirmişlər. Baydaqlar miyanında [arasında] firqənin ən məşhur banilərindən birisinin fotoqrafisi dəxi mövcuddur.

## ŞİMALİ QAFQAZİYA VÜKƏLA RƏİSİ ƏBDÜLMƏCİD BƏY TAPA ÇERMOYEV İLƏ MÜSAHİBƏ

Bakıya üçüncü gün gəlmiş Şimali Qafqaziya Hökumətinin Rəisi-Vükəlası [Baş Naziri] bir ayadək İstanbulda qalmış idi. Dün onu ziyarət etmək mümkün oldu.

Müxbirimizə verdiyi birinci sualı:

– *Sizi maraqlandıran məsələ nədir?* – oldu.

– Sizin İstanbul səfəriniz ilə aldığınız təsirat və nəticələr!

Əbdülməcid bəy əfəndi:

– *Mənim İstanbulda aldığım təsirat çox gözəl və qayət kamil idi.* – söylədi. – *Bunu da bu saat sizə bəyan edəcəyəm. Fəqət iləricə İstanbul ziyarətimdən və bunun səbəblərindən söyləməliyəm.*

*Rusiya ixtilal yanqısına mübtəla olduqda, bu hökumətə ümid bəsləmək bir daha bimənə bir şey olduğunu anladıqda, Dağıstan və Çeçen şuraları qərardadı mövcibincə biz də kəndimizə bir təriqinicat [nicat yolu] aramalı idik. Məlum ki, əzəlcə bizə ən yaxın olan Azərbaycana müraciət etmək, olmazsa düzdoğru İstanbulda Xəlifə həzrətlərinin hüzuri-şəriflərinə kimi getməli idik.*

*İştə, böylə bir vəzifə ilə mən də İstanbula getdim. Gərək Rəisi-Vükəlanın, gərək Xariciyyə nazirinin Məclisi-Məbusanda kürsiyi-xitabətdə "kiçik qardaşlarımızı hər bir bəladan məhfuz etməklə [qorumaqla] onlara daima müavinətdə [yardımda] bulunmalıyız" sözləriylə bizim səadətimizə çalışacaqları işarələr, təkcə Qafqaziyanın deyil, bütün islamın müttəhid [birgə] və müttəfiq yaşamasına və onların tərəqqi yoluyla gedəcəklərinə ən parlaq bir dəlil idi.*

*İstər "Şeyxüsseyf" Ənvər paşa həzrətlərinin, istər Tələt paşanın Qafqaziya islamlarına olan şəfqəti-bəradəranələri [qardaşcasına şəfqətləri] mənə böyük ümidlər verir. Bunu da qeyd etməliyəm ki, həyatımda gördüyüm mədəni bir kişi varsa, o da Tələt paşadır.*

*Bilümum [ümumiyyətlə] Türkiyə siyasiyyunundan [siyasi xadimlərindən] hangisinə təsadüf etdiksə, həpsi Qafqaziya islamlarının tərəqqi və təalisini [ucalmasını] və onların istiqlaliyyət üzrə yaşamalarını arzu edirlərdi. Bu isə bir taqım əşxasın Türkiyə köməyində imperializm məqsədləri görmək istədiyinə layiqli bir cavab olsun gərək.*

*Həp türk və islamların fəqət kəndilərini müdafiə etmək, yekdigəri ilə sıxı bir əlaqədə olmaq fikrini Ənvər paşa həzrətləri müsahibəmiz əsnasında dərmiyan etdi [ortaya qoydu]. Onun bir fateh olduğu hər kəscə təqdir edilməklə bərabər, onu Napoleona müsavi tuturlar, sözlərimə – Əcəba, mənim fəth etdiyim məmləkətləri onlar mənə göstərməzmi? Qaliba [görünür ki] mən bir müdafidən [müdafiəçidən] maəda [özgə] bir kimsə deyiləm. Mən fəqət islam ilə vətəni müdafiə ilə uğraşdım. Biz türklərin yürütdüyü siyasət fəqət bundan ibarətdir, əfəndim! – dedi.*

*Hala Şimali Qafqaziya Hökuməti yanında olacaq hərbi və siyasi heyətinin baş məmuru Yusif İzzət paşa əfəndiləri təyin olmuşdur. Şimali Qafqaziyanın (Dağıstan, Çeçen və digərləri) birinci müvərrixlərindən [tarixçilərindən] olan şu əfəndi Türkiyənin deyil, bəlkə Avropanın alimlərindən ədd [hesab] edilə bilər. Gümanımız budur ki, bundan sonra Türkiyə ilə olan əlaqəmiz bir az da sıxı olsun. Burada hədisi-nəbəvidən [Peyğəmbərin hədislərindən] olan "Məğribdə bir islamın ayağına bir tikan batarsa, məşriqi-zəmindəki digər islam hiss etməlidir" kəlamı özünə zəmin bulacaqdır. Bütün islam məmləkətləri yekdigərini təqviyə edərək [gücləndirərək], tərəqqiyiümum üçün çalışmalıdırlar.*

*Başqa hökumətlərə nisbətən bizim siyasətimiz pək dostanə olacaqdır. Bunun doğru olduğu birinci növbədə gürcülərə isbat edildi.*

*Onların siyasi məhfillərində [dairələrində] hər tərəfdən müsəlmanlar ilə əhatə edildiyini gördükdə, artıq dərəcə xətərnak olmuşlardı [qorxmuşdular]. Lakin get-gedə bu xətər yersiz olduğu anlaşıldıqda, irəliki politikalarını büsbütün mütəğəyyir etdilər [dəyişdirdilər]. Ermənilərə gəldikdə, onlara qarşı bizdə bir xüsuməti-xüsusi [xüsusi bir ədavət] olammaz, məgərinki onların xəsimanə [düşməncə] cənub siyasəti vətənimiz olan Şimali Qafqaziyada toxum saçmamış ola. Burada bizim dağıstanlıların "Yaxında iyi qonşusu olmaq, iraqda qardaşı olmaqdan əfzəldir" zərbül-məsəlini həqiqətləndirmiş olmaqla, inşallah cənubda qardaşlarımıza, şimalda qonşu və dostlarımıza faydalı olarız ki, bu da doğrudan-doğruya "Qafqaziya qafqazlılarındır" şüarının türklər dimağında [zehnində] cərəyan etdiyindən dolayı irəli gələcəkdir.*

*İştə, bunun üçün mənim Türkiyədə aldığım təsirat qayət gözəl və kamil idi. – sözləri ilə Əbdülməcid bəy Tapa Çermoyev sözləri xitam-pəzir oldu [sona çatdı].*

*M. H.*

## TÜRKCƏ BİLMƏYƏN TƏLƏBƏLƏRİMİZ

Bir tərəfdən Rusiya Hökuməti-sabiqəsinin [keçmiş Rusiya Hökumətinin] müsəlmanlar haqqında təqib etdiyi ruslaşdırmaq politikası, digər tərəfdən babalarımızın türkcəyə olan ədəmirəğbət və əhəmiyyəti [rəğbətlərinin olmaması və əhəmiyyət verməməələri] bu gün minlərcə tələbəmizin ana dilindən məhrum olmasına və onların adəta millət və milliyyətlərinə qarşı biganə qalmalarına badi [səbəb] olmuşdur. Bu gün artıq bu kimi zavallılar hökumətisabiqənin irəli sürdüyü məzkur [həmin] politikanı və babalarının türkcəyə olmuş ədəmirəğbətlərini və ələlxüsus bu gün türkcənin lüzumunu anlamışlar. Odur ki, zavallı tələbələrimiz önünə gələnlərə bizim halımız nə olacaq kimi acıacı suallar verməklə kəndilərinə bir çarə arayırlar...

Acınacaq bir hal deyilmi? Şübhəsiz ki, acınacaq və təəssüf ediləcək bir haldır.

Nasıl bu hala acınılmasın və təəssüf edilməsin ki, sənələrcə ömürlərini rus edadilərində keçirən tələbələrimiz, bu gün görmüş olduqları təhsili irəli sürmək və aldıqları məlumatı genişlətmək və bu sayədə istiqballarını təmin etmək üçün bir darülfünun [universitet] bulammırlar?

Şimdi böylələrinə "Haydı, yavrum, İstanbula gediniz də, orada bulunan darülfünunlara giriniz" desək, türkcə bilmədiklərindən oralara da girəmməyəcəklər.

Şimdi bu zavallılar nə yapsınlar? Əgər yenə Rusiya darülfünunlarına getsələr, onda yenə əski hamam, əski tas misalınca amali-milliyyə və vətə-niyyəmizcə müvafiq olmayacaq. Daha doğrusu, yurdumuzu milli bir ruhda ziyalandırıcı münəvvər fikirli gənclərimiz yetişəmməyəcəkdir.

Binaileyh [ona görə], Maarif Nəzarəti gərək hər halda acınacaq və təəssüf ediləcək məsələni nəzərdən dur [uzaq] tutmasın və bu yolda lazım gələn təşəbbüslərdə bulunsun və bu kimi vərteyi-heyrət və səfalətdə [heyrət və səfalət burulğanında] qalan övladi-vətənin ehtiyacati-mənəviyyə və zəruriyyəsini [mənəvi və zəruri ehtiyaclarını] bir an əvvəl təsviyə etməyə [aradan qaldırmağa] şitab etsin [tələssin]. Zira sənələrcə ömrigiranbahalarını [dəyərli ömürlərini] ülum və fünunun [elm və fənlərin] təhsili ilə keçirən bu zavallı yavrularımız bu gün boyunları bükük, acınacaq bir halda aşağı-yuxarı boş-boş dolaşmaları həqiqətən təəssüf ediləcək hallardandır.

Heç şübhə yoxdur, Maarif Nəzarəti vətənin şu sevgili yavrularını bu hali-pürməlalda [acınacaqlı halda] qoymaq istəməz və bu xüsusda əldən gələn fədakarlığı əsirgəməz.

Fəqət iş burasındadır ki, Maarif Nəzarəti şu balalarımızın qiymətli vaxtları zaye olmamaq üçün şimdilik gərək bir sənəlik türkcə öyrədici bir kursu açıb, onları türkcəyə və istilahati-fənniyyəyə [elmi terminlərə] alışdırsın və bundan sonra arzu edənləri İstanbul məkatibi-alisinə [ali məktəblərinə] və burada təhsil etmək istəyənləri isə Maarif Nəzarətinin türk ruhunda, türk dilində olmaq şərtilə yurdumuzda təsis edəcəyi mədarisi-aliyəyə [ali məktəblərə] verməklə məqsədə erişilsin.

İştə, ümidvarız ki, Maarif Nəzarəti başında duran türkçülər, həqiqi və səmimi maarifpərvərlər, bu xüsusda ənqəribüzzaman [yaxın zamanda] bir təşəbbüsdə bulunar və bu surətlə bu gün ortalıqda sərgərdan gəzən tələbələrimizin bu hali-əsəfiştimallarına [təəssüf doğuran hallarına] acıyaraq, onların təmini-istiqbalı üçün yuxarıda təhririnə [yazmağa] ictisar [cəsarət] etdiyimiz tərzdə bir kurs açmaqla bizi minnətdar eylər!

*Rza Zaki*

## NƏ YAZIRLAR?

Tiflisdə müntəşir [nəşr olunan] erməni qəzetəsi "Kafkazski slovo" yazır:

Bu axır vaxtda Ermənistan barəsində təskin verici xəbərlər gəlməkdədir. Almaniya nümayəndələri vasitəsilə Türkiyə ilə Ermənistan arasında Türkiyə Ordusu tərəfindən işğal olunmuş Ermənistana mütəəlliq [məxsus] yerlərin boşaldılması məsələsi barəsində etilaf [uzlaşma] əmələ gəlmişdir. Bu barədə Türkiyənin İrəvandaki siyasi nümayəndəsi də ciddi fəaliyyətdə bulunur.

Onun dediyinə görə, Xəlil paşa İstanbulda Türkiyə Hökumətindən Ermənistana verilmiş yerlərin boşalıb, Qarabağ Türkiyə tərəfindən işğal olunmayıb bitərəf qalmasını rica etmişdir. Bundan savayı, 50 min qaçqınların Şiraka qaytarılıb, bunlar üçün 12 min put taxıl verilməsini Xəlil paşa xahiş etmişdir. Andranik dəstəsinin heç də Ermənistan Hökuməti ilə əlaqədə olmayıb, Culfa dəmiryolunda Türkiyə Ordusu yürüşünə mümaniət etməsinin [maneçilik törətməsinin] xodsəranə [özbaşına] olduğunu Türkiyə Hökumətinə demişdir.

Türkiyə dövlətinin siyasi nümayəndəsi [erməni] katalikosu (erməni rəisi-ruhanisi) ilə etdiyi söhbətində demişdir ki, Türkiyə dövləti bundan belə Ermənistan məsələlərində maraqlanıb iştirak etməklə, bu iki dövlətin dostanə bir əlaqədə bulunmasına əmindir. İstanbuldakı Ermənistan nümayəndələrinin Türkiyə dövləti ilə bulunduğu əlaqələr də bunu təsdiq edir. Bunlar öz danışıqlarında bu iki dövlətin bir-birinin daxili işlərinə qarışmayıb, öz milli və siyasi məsələlərində azad yaşayacaqlarına söz vermişlər. Türkiyə Hökuməti tərəfindən keçmişdə Şam, Konya, Aleppo, Ədən və bu kimi uzaq yerlərə sürülən ermənilərə yenə öz vətənlərinə qayıtmağa icazə verilmişdir.

"Jamanak" qəzetəsinin dediyinə görə, bu barədə Sis katalikosu Şam Hökuməti vasitəsi ilə Türkiyə Hökumətinə izhari-təşəkkür etmişdir.

Gürcüstan Hökumətində olan Ermənistan siyasi nümayəndəsi Camalyan ilə Türkiyənin Gürcüstan nümayəndəsi arasında qaçqınların vətənlərinə qayıtması barəsində müzakirələr başlanıb. Camalyanın dediyinə görə, bu məsələnin həllindən ötrü ciddi tədbirlər görüləcəkdir.

Gələcəkdə Türkiyə ilə Ermənistan hökumətlərinin dostanə bir surətdə yaşayıb, hər iki dövlət muxtariyyətlə [müstəqil surətdə] öz daxilində milli və siyasi məqsədlərini yürüdəcəyinə türk mətbuat aləmi böyük ümidlər bağlayır. Bu növ müttəhid qonşuluq yolu aranıbdır. Lakin bu danışılan sözlər, söylənilən arzular həyatda da görülməlidir. Ermənistan özünə verildiyi əmlakı idarəyə başlarsa, milyonlarla qaçqınlar vətənlərinə qayıtmağa imkan tapıb, yenə pozulmuş həyatlarını iadə edərlərsə, o vaxt biz ermənilər və Ermənistanın qonşusu Türkiyə ilə etilaf yaşadığını hiss edəriz. Ermənistanın qonşu dövlətlərlə dostanə əlaqədə yaşamasından başqa, özgə fikri yoxdur. Ermənistanın və ermənilərin səadəti üçün siyasət cəhətincə qurbanlar verməyə hazırız. Ermənilər və Ermənistan gələcəkdə müstəqil yaşamalıdır və Ermənistan heç vaxt öz xilaskarını unutmayacaqdır. Ermənilərə avropalılar öz nitqlərində imdad vəd etmişdilərsə, feilən biz bunu görmədik. İmdi Ermənistanın üzərində qara buludlar artıq dağılıb, günəş öz şüalarıyla ətrafı işıqlandırır. Ermənilər imdi bu işıqdan istifadə edib, özlərinə tarixi haq bir yol aramalıdırlar.

## XARİCİ XƏBƏRLƏR

**Kadet firqəsinin yeni siyasəti**

Berlin – Stokholmdan vürud edən [gəlib çatan] xəbərlərə nəzərən, rus kadetləri firqəsi yeni bir istiqaməti-siyasiyyə təhərri etməkdə [axtarmaqda] və Etilafın [Antanta blokunun] heç bir vədini ifa etməməsindən dolayı süqutixəyala uğradığını bəyan eyləməkdədir. Etilaf müddəti-mədidədən [uzun müddətdən] bəri sosialist ixtilalçılarla sıxı münasibətdə bulunmuşdur. Kadetlərin yeni siyasətinə mütəəlliq [aid] əsasat [əsaslar] Kiyevdə təyin ediləcəkdir. Burada məzkur [adı çəkilən] firqə rüəsası [partiyanın liderləri] Almaniyanın kadetlər firqəsinə müsaid [uyğun] bir rus siyasəti təqib etməyə amadə [hazır] olub-olmadıqlarını anlamaq üzrə Almaniya müməssilləri [nümayəndələri] ilə münasibətdə bulunacaqlardır. Oktyabrist firqəsinin sol cinahı yeni siyasətə tərəfdar olduğunu bəyan etmiş isə də, digər oktyabristlər, bilxassə [xüsusilə] ərbabi-sənayedən və maliyyundan [sənayeçi və maliyyə sahiblərindən] mütəşəkkil bulunan Moskva oktyabristləri əlan [hal-hazırda] Etilaf tərəfini iltizamda [tərəfini tutmaqda] davam etməkdədirlər. Kadetlər rüəsasından olub, Stokholmda iqamət etməkdə [yaşamaqda] olan Baron Nold[e] demişdir ki:

*"Bütün rus burjuazi firqələri Etilafdan bir şey bəkləmək caiz olmadığını və bilxassə Rusiya, Etilaf dövlətləri ilə və ya məmləkətimizdə bunların tərəfdarı olan ixtilalçı sosialistlərlə həmfikir olaraq hərəkət eylədiyi təqdirdə, bütün məmləkətin həyati-iqtisadisi [iqtisadi həyatı] məhv olacağını yaxında anlayacaqlardır."*

Digər tərəfdən Stokholmda bulunan sosialist ixtilalçılar rüəsası [liderləri], Almaniya Etilafın müavinətilə [yardımıyla] əzilməsi başlıca qayələrindən birini təşkil eylədiyini bəyan etmişlərdir. Kerenskiyə gəlincə, buna ümumən aləmi-siyasətdə ölmüş nəzəri ilə baxılmaqdadır.

**Ruzveltin çocuğu tələf oldu**

Amerika Rəisi-Cümhuri-əsbaq Teodor Ruzvel[t]in ən kiçik məxdumun[un] [oğlunun] Fransada bir müharibeyi-havaiyyədə [hava döyüşündə] tələf olduğunu italyan qəzetələri xəbər almışlardır.

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

### TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Bakı şəhəri və ətrafı əhalisinə elani-rəsmi***

*səh. 117. "2/10/34": burada il, rumi təqvimlə göstərilmişdir (1334-cü il); miladi təqvimlə 2 oktyabr 1918-ci ilə uyğundur.*

***Bakıda mövcud bilümum rus zabitanına elani-rəsmi***

*səh. 118. "Ordu Komandanı Paşa həzrətləri": Qafqaz İslam Ordusu Komandanı Nuri paşa nəzərdə tutulur.*

***Hökumət qərardadı:***

*Azərbaycan Cümhuriyyətində aksiz idarələrinin təşkili*

*səh. 120. "9) Tiflisdəki aksiz idarəsində...": Zaqafqaziya Aksiz İdarəsi nəzərdə tutulur.*

***Növbəti məsələlərimiz***

*səh. 121. "Orduyi-müzəffəri-islam": Qafqaz İslam Ordusu nəzərdə tutulur.*

*səh. 122. "H. Hənəfi": Azərbaycan" qəzetində "M.Hənəfi" imzası Hənəfi Zeynallıya məxsusdur. Burada "H. Hənəfi" imzası ilə çap edilən məqalə də üslub baxımından H.Zeynallının məqalələri ilə oxşarlıq göstərməkdədir. Çox güman ki, qəzetdə texniki bir səhvə yol verilmişdir, "H. Hənəfi" yerinə "M.Hənəfi" olmalıdır.*

***Şimali Qafqaziya Vükəla Rəisi Əbdülməcid Tapa Çermoyev ilə müsahibə***

*səh. 128. "Xəlifə həzrətləri...": 3 iyul 1918-ci ildən 1 noyabr 1922-ci ilə qədər Osmanlı padşahı və eyni zamanda İslam xəlifəsi olan VI Mehmed Vahidəddin nəzərdə tutulur.*

*"Rəisi-Vükəla": o dövrdə Osmanlı dövlətinin Baş Naziri olan Tələt paşa nəzərdə tutulur.*

*"Xariciyyə naziri": o dövrdə Osmanlı dövlətinin Xarici İşlər naziri olan Əhməd Nəsimi bəy nəzərdə tutulur.*

*"Şeyxüsseyf": hərfən "qılıncın şeyxi" mənasına gəlir; Ənvər paşa Osmanlı dövlətinin Hərbi naziri olduğundan, bu ləqəblə yad edilir.*

***Xarici xəbərlər: Ruzveltin çocuğu tələf oldu***

*səh. 132. "Amerika Rəisi-Cümhuri-əsbaq Teodor Ruzveltin ən kiçik məxdumunun...": ABŞ-ın sabiq prezidentlərindən Teodor Ruzveltin oğlu Kventin Ruzvelt nəzərdə tutulur.*

# Bakıda "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı davam edir











Bakıda "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı davam edir.

AZƏRTAC xəbər verir ki, "TEKNOFEST Azərbaycan" festivalının ikinci günü də böyük maraqla qarşılanıb, şoular, müsabiqələr və əyləncə proqramı ilə zəngin olub.

İlk olaraq festival ziyarətçiləri "Smart Qarabağ" Hakatonunun gedişatı barədə məlumatlandırılıb. Hakatonda Azərbaycan və Türkiyədən ümumilikdə 30 komanda final mərhələsinə vəsiqə qazanaraq mübarizə aparır. Finalda mübarizə aparmaq hüququ qazanan komandalar işğaldan azad olunmuş Qarabağın normal regiona transformasiyası istiqamətində "Ağıllı həllər" təklif edirlər.





"Smart Qarabağ" Hakatonuna mayın 25-dən start verilib. Bu hakatonun keçirilməsində əsas məqsəd işğaldan azad edilmiş Azərbaycan ərazilərində "Ağıllı şəhər" həllərinin tətbiq edilməsi, bu ərazilərin rahat, qənaətcil, ekoloji təmiz regiona transformasiyası, sakinlər və sahibkarlar üçün münbit ekosistemin yaradılması və kənd təsərrüfatı üçün daha səmərəli şəraitin qurulmasına töhfə verməkdir.

Hakatonun finalçıları arasında 20 Azərbaycan və 10 Türkiyə komandası mübarizə aparır. Hər bir komandaya hakatonun anbarında mövcud olan avadanlıqların və proqramların spesifikasiyası təqdim olunub və marafon fasiləsiz olaraq 50 saat davam edəcək.

Finalçılar iş prosesində əşyaların interneti (Internet of things), tətbiqi proqramlaşdırma interfeysi (Application Programming Interface), süni intellekt (Artificial Intelligence), bulud hesablama xidmətləri (Cloud Computing Services), idarəetmə panelləri (Dashboards), maşın öyrənməsi (Machine Learning), maşınlararası qarşılıqlı əlaqə (Machine-to-Machine Communications), "Mesh" şəbəkələr (Mesh Networks) və digər texnologiyaların üstünlüklərindən faydalanırlar.




Sonra Xəzər dənizində nümayiş olunan "Take on gravity show" festival iştirakçıları tərəfindən maraqla qarşılanıb. Şou zamanı havada müxtəlif truklar və akrobatik hava nümayişləri təqdim olunub. Bakılılar və şəhərimizin qonaqları quraşdırılmış xüsusi tribunada nümayişi böyük coşqu ilə izləyiblər. Həmçinin ölkəmizdə ilk dəfə su üzərində "Flyboard" şousu təşkil olunub. Şou məşhur ispaniyalı "flyboarder" Lindsay McQueenin təqdimatında baş tutub.





Azərbaycan Hərbi Hava Qüvvələrinin "SU-25" (5 ədəd) və "MiQ-29" (2 ədəd) qırıcı təyyarələri və hərbi helikopterlərinin, eləcə də Türkiyənin "Solotürk" (2 ədəd F16), "Türk Ulduzları" (5 ədəd F5) və "Hürkuş" aerobatika komandalarının, ATAK helikopterlərinin və AKINCI PUA-sının iştirakı ilə keçirilən hava şouları bu gün də ziyarətçilərin qəlbini fəth edib.

Günün birinci yarısında dövlət rəsmiləri sərgilərlə tanış olublar. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, müdafiə sənayesi naziri Mədət Quliyev, dövlət sərhəd xidmətinin rəisi Elçin Quliyev və digər rəsmi şəxslər "TEKNOFEST Azərbaycan" festivalı çərçivəsində nümayiş olunan hərbi texnikalara, Müdafiə Sənayesi Nazirliyinin və digər qurumların pavilyonlarına baxış keçiriblər.

Festivala qatılan "BAYKAR Teknoloji" şirkətinin baş direktoru Haluk Bayraktar AMEA-nın pavilyonu və akademiyanın Yüksək Texnologiyalar Parkının (YTP) təqdim etdiyi innovativ məhsullarına baxış keçirib. Haluk Bayraktar ilk dəfə Türkiyədən kənarda, Bakıda keçirilən bu mötəbər festivalın yüksək səviyyədə təşkil olunduğunu söyləyib. Şirkətin baş direktoru AMEA pavilyonunda təqdim olunan məhsullar arasında xüsusən pilotsuz uçuş aparatları, robotlar, "ağıllı" qurğular, o cümlədən mühərrik və sürtkü yağlarına böyük diqqət göstərib, akademiyada əldə olunan nailiyyətləri yüksək qiymətləndirib.

"Düşünürəm ki, bu festival hər il daha da inkişaf edərək böyük bir platformaya çevriləcək", - deyə qeyd edən Haluk Bayraktar festivalda iştirak edən hər bir müəssisə və təşkilata uğurlar arzu edib.

Yüksək Texnologiyalar Parkının baş direktoru iqtisad üzrə fəlsəfə doktoru Vasif Abbasov Haluk Bayraktarı rəhbərlik etdiyi texnoparkda əldə olunan nailiyyətlər, istehsal olunan rəqabətədözümlü məhsullarla yaxından tanışlıq və əməkdaşlıq perspektivlərinin müzakirəsi üçün YTP-yə dəvət edib.






"TEKNOFEST Azərbaycan" çərçivəsində ilk gündən yuxarı sinif şagirdləri, tələbələr və startapçılar arasında müsabiqələrin keçirildiyi Yarışmaçılar Zonası bu gün də iştirakçıların maraqla ziyarət etdiyi məkanlardan olub. Müsabiqənin münsiflər heyəti komandaların stendlərinə baxış keçirir, qiymətləndirmələr aparırlar. Festivalda ümumilikdə 8 müsabiqə - "Baku Skills", "Pilotsuz uçuş aparatları", "ROBOTİKS", "AgroTech", "Sosial innovasiyalar", "Həvəskar peyk modelləşdirilməsi", "PLANER", "Ətraf mühitin qorunması və bərpaolunan enerji mənbələri" təşkil olunub. Müsabiqələr 3 kateqoriya iştirakçı arasında keçirilir - məktəblilər (A), tələbələr (B) və fərdi şəxslər, yaxud sahibkarlar (C). Bəzi müsabiqələr yalnız bir və ya iki kateqoriyada aparılır. Müsabiqələrə qatılmaq üçün 5 mindən çox gəncin formalaşdırdığı 1000-dən çox komanda müraciət edib. Onlardan 170 komanda finala vəsiqə qazanıb.

Festivalda Kiber İdman üzrə Avropa çempionatının "Tekken7" yarışlarına start verilib. "Tekken7" üzrə Azərbaycan, Türkiyə, Fransa, Gürcüstan, Macarıstan, İsrail, İtaliya, Şimali Makedoniya, Monako, Monteneqro, Polşa, Serbiya, Slovakiya, İspaniya, Uels, Malta və İsveçdən ümumilikdə 17 iştirakçı mübarizəyə başlayıb.

Mayın 27-də "Bakı Kristal Zalı"nda start götürən çempionatın qalibləri 28 may tarixində bəlli olacaq.

Qeyd edək ki, çempionatın təşkilatçısı Avropa və Azərbaycan Kiber İdman Federasiyalarıdır. Bununla yanaşı, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi beynəlxalq turnirə təşkilati və maliyyə dəstəyi göstərir.

Festivalın ikinci gününün sonunda ziyarətçilər üçün musiqi proqramı və lazer şou təqdim olunub.

Qlobal əhəmiyyətli tarixi proseslər siyasət adamlarını yenidən kəşf etmək, onların liderlik keyfiyyətlərini aydın görmək üçün geniş imkanlar yaradır. Azərbaycanın zəfəri ilə tamamlanmış Vətən müharibəsinə qədər xalqımız İlham Əliyevi qurucu rəhbər, ölkəmizi tarixinin ən qüdrətli mərhələsinə yetirmiş lider, regionun gələcək inkişafı ilə bağlı aydın hədəfləri olan qətiyyətli siyasi xadim, Azərbaycanın milli maraqlarını hər yerdə qətiyyətlə qorumağı bacaran mahir diplomat kimi tanıyıb rəğbət bəsləyirdi. Vətən müharibəsindəki qələbə isə Ali Baş Komandan İlham Əliyevi bütün dünyada müzəffər sərkərdə kimi şöhrətləndirdi. Son illərin qlobal siyasi prosesləri, Azərbaycan Prezidentinin bu proseslərdə tutduğu mövqe, oynadığı rol, apardığı təhlillər, irəli sürdüyü təşəbbüslər dövlət rəhbərimizin zəmanəsinin ən parlaq liderlərindən olduğunu göstərir. Ən mühümü isə tutduğu müstəqil yolla, sarsılmaz qətiyyətilə bütün təhdid və təzyiqləri dəf etmək əzmini, ölkəmizi böyük hədəflərə doğru apardığını sərgiləyir.



# Müstəqil siyasətin tarixi nailiyyətləri

## ABŞ-ın Azərbaycana verdiyi yüksək dəyər

Azərbaycan Prezidenti hazırkı gərgin dünyamızda apardığı müstəqil siyasətlə ölkəmizin milli-strateji inkişaf xəttini uğurla həyata keçirir. Ölkəmizə böyük tarixi nailiyyətlər qazandırmaqla yanaşı, bir çox qlobal problemlərin aradan qaldırılmasına, bəşəriyyət üçün daha gözəl bir dünyanın qurulmasına mühüm töhfələrini verir. Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef Baydenin 28 May Müstəqillik Günü ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubunda yazılanlar dövlət rəhbərimizin regional və qlobal proseslərdə oynadığı rolun, şəxsiyyətinə verilən önəmin daha bir təsdiqidir.

ABŞ Prezidentinin məktubunda 30 illik böyük bir dövr ərzində ABŞ-ın enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik istiqamətində Azərbaycanla əməkdaşlığa verdiyi yüksək dəyər ifadə olunur. Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin edilməsində və sabitləşdirilməsində ölkəmizin enerji resurslarının önəmli rolunun mühüm əhəmiyyəti öz əksini tapır. Dövlət rəhbərimizin müstəqil mövqeyi, bütün məsələlərdə daim haqqın-ədalətin yanında olması baxımından məktubun ən maraqlı məqamlarından biri də Azərbaycanın Ukrayna məsələsində tutduğu mövqe ilə bağlı yazılanlardır. ABŞ Prezidenti Azərbaycanın Ukraynanın suverenliyinə verdiyi dəstəyi, bu ölkəyə humanitar yardımını yüksək qiymətləndirir. Eləcə də Azərbaycanın terrorizmə qarşı qlobal mübarizəyə yönələn əhəmiyyətli töhfələri təqdir edir.

Prezident C.Baydenin məktubunda hazırkı vəziyyətin Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün gözəl imkan kimi qiymətləndirməsi də çox mühüm mesajdır. Bu o deməkdir ki, ABŞ Azərbaycanın zəfərindən sonra regionumuzda yaranmış yeni tarixi reallığı qəbul edir, dəstəkləyir və Cənubi Qafqazda əbədi sülh, təhlükəsizlik və inkişaf mühitinin təmin edilməsi üçün sülhə yönəlik proseslərin davam etdirilməsi istəyindədir.

Ağ ev rəhbərinin Prezident İlham Əliyevə məktubunda da göstərildiyi kimi, ABŞ-ın Azərbaycan və Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinin bütün Qafqaz və trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcəyi qənaətində olması və bu anlamda ölkəmizin sülh təşəbbüslərini dəstəkləməsi, iqtisadi, nəqliyyat və insanlararası əlaqələrin qurulması istiqamətində gördüyü işlərə kömək etməyə hazır olması da buna dəlalət edir.

ABŞ Prezidentinin məktubunda həmçinin hazırkı dövrdə cərəyan edən proseslərin mürəkkəb xarakterini nəzərə almaqla Amerikanın Azərbaycanın müstəqilliyi və suverenliyinə öz dəstəyini bir daha təsdiq etməsi bəyan olunur. ABŞ-ın qarşıdan gələn illər və onilliklərdə ölkəmizlə münasibətləri daha da genişləndirmək arzusu vurğulanır.

ABŞ Prezidentinin bu müraciəti dövlətimizə, xalqımıza verilən mühüm dəyərin, həm də qarşılıqlı əlaqələrin inkişafının önəminin ifadəsidir. Bununla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətə olan yüksək qiymətin, ölkə rəhbərimizin qlobal çevrələrdəki böyük nüfuzunun, qətiyyətinin, Azərbaycanla əlaqələrin ABŞ və digər böyük güclər üçün hər zaman əhəmiyyətliliyini qoruyub saxlamaq qabiliyyətinin daha bir təzahürüdür.

## Azərbaycan Cənubi Qafqazın gələcəyinin qarantıdır

Bu gün beynəlxalq siyasi-iqtisadi müstəvidə gələcəyə aydın nəzərlərlə baxan hər kəs - liderlər, beyin mərkəzləri, siyasi və akademik çevrələr Azərbaycanı Cənubi Qafqazın gələcəyinin, bu bölgədə sülh və əməkdaşlıq mühitinin qarantı kimi görür. Bu faktdır və Azərbaycanın illər ərzində yaradıb formalaşdırdığı, Vətən müharibəsindəki zəfərlə də nidasını qoyduğu tarixi reallıqdır. Dövlət rəhbərimizin yürütdüyü müstəqil siyasətdən, müasir çağırışlara uyğun çevik qərarlar verərək zamanında həyata keçirmək əzmindən, vəziyyətlərə hazırlıq və imkanlardan istifadə məharətindən, eyni zamanda qonşularla sıx faydalı əməkdaşlıq, sülh, bir-birinin ərazi bütövlüyünə, dövlət maraqlarına hörmət arzusundan yaranmış bu reallıqda Ermənistanın yeri xeyli suallar doğurur. Məlumdur ki, son onilliklərdə, hətta daha geniş götürsək, XX əsrin əvvəllərində tarixi torpaqlarımızda Ermənistan dövləti yaranan vaxtlardan bu dövlətin ideoloji təməlləri əsasən işğal və onun legitimləşdirilməsi üzərində qurulmuşdu. Azərbaycanın Vətən müharibəsindəki qələbəsi bu təməlləri sarsıtdı. Ermənistanın və dünya erməniliyinin onilliklərdir ki, bəşəriyyətə yaydığı saxta mifləri puça çıxardı. İndi Ermənistanın bölgədəki mövcud reallıqları nəzərə alan yeni hədəflər müəyyən etməsi zəruridir.

Məlumdur ki, Ermənistan saxta miflərə söykənərək daha bölgədə təcrid olunmuş vəziyyətdə yaşamaqda davam edə bilməz. Bu ölkənin gələcəyi qonşularla normal münasibətlərdən asılıdır. Digər tərəfdən, qlobal proseslər Azərbaycanın təşəbbüskarı olduğu enerji-kommunikasiya layihələrinin beynəlxalq önəmini daha da artırır. Dünya bu imkanlardan daha geniş şəkildə faydalanmağa çalışır. Beynəlxalq dairələr Ermənistanın uydurma iddiaları, mənasız kin-küdurəti üzündən dünya iqtisadiyyatı üçün böyük imkanların, əlverişli marşrutların əldən çıxmasına, yaxud risk altına düşməsinə daha etinasız yanaşmaq fikrində deyil. Ona görə də indi Ermənistanın yeganə yolu regiondakı inkişaf axınına qoşulmaqdır. Bunun üçün isə qonşularla münasibətlər normallaşdırılmalıdır. Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarına son qoyulmalıdır. Ermənistan Cənubi Qafqazda üçtərəfli səviyyədə qarşılıqlı təmasdan çəkinməməlidir. Regional inkişafın bir hissəsi olması, bölgənin həyatına fəal inteqrasiya üçün əməkdaşlığın, konstruktivliyin önəmini anlaması, yeni reallıqları nəzərə alan, revanşizmə yol verməyən siyasət yürüdülməsi Ermənistan üçün yeganə xilas kəməridir.

## Sülh və inkişaf arzusu

Münaqişənin insan itkilərinə yol verməkdən, sülh yolu ilə həlli üçün qonşu ölkənin işğalçı mövqeyinə illər ərzində dözüm göstərən, sülh danışıqlarına sadiq qalan, yalnız bu danşıqların heç bir perspektivinin qalmadığına tam əmin olandan sonra hərbi yolla torpaqlarını cəmi 44 gün ərzində işğaldan azad edən və hətta hərbi əməliyyatların gedişində də yenə insan itkilərinin qarşısını almaq üçün Ermənistana dəfələrlə torpaqlardan çıxmaq üçün konkret qrafik verməsini təklif edən Azərbaycan öz konstruktivliyini postmünaqişə dövründə də qoruyur. Qafqazda sülh və əməkdaşlıq erasını fəal şəkildə təşviq edir.

Azərbaycanın açıq bəyan etdiyi sülh gündəliyi və gələcək əməkdaşlığa dair təşəbbüsləri Cənubi Qafqazda regional inkişaf üçün yeni imkanların yaradılmasına yönəldilib. Bu, təkcə Azərbaycan və Ermənistana deyil, ümumiyyətlə, Cənubi Qafqaza aid məsələdir.

Dövlət rəhbərimiz çıxışlarında bu məsələlərlə bağlı aydın izahlar verir, Azərbaycanın konstruktiv mövqeyini dünya ictimaiyyətinin diqqətinə çatdırır. Öz prinsiplərini ortaya qoyur. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi təcrübəsinin ləyaqət, ərazi bütövlüyü və ədalət naminə bütün ölkələr üçün əhəmiyyətli olmasının zəruriliyini göstərir. Heç vaxt işğalla barışmamağı, öz resurslarına bel bağlamağı, müstəqil siyasətin önəmini əsas prinsiplər olaraq irəli sürür. Azərbaycanın bütün münaqişələrin həllində beynəlxalq hüququn müddəalarını rəhbər tutduğunu vurğulayır.

Azərbaycan son onilliklərdə bütün dünyada multikulturalizmi, tolerantlığı, fərqli mədəniyyətlər arasında qarşılıqlı hörmət mühitini təşviq edən aparıcı ölkələrdəndir. 2008-ci ildən Azərbaycanın təşəbbüsü ilə başlanmış "Bakı prosesi" bu istiqamətdə böyük uğur qazanıb. Çoxmillətli ölkə olan Azərbaycanın tarixi təcrübəsi, əsrlərlə formalaşmış milli ənənələri xalqlar arasında sülhün əldə olunmasına aydın istiqamətlər verir. Əlbəttə, müharibənin ağrı-acılarını unutmaq, vurduğu yaraları sağaltmaq hər iki tərəf üçün çox çətindir və heç mümkün də deyil. Amma bu faciələrin gələcəkdə bir daha təkrarlanmaması üçün xalqlar barışa ortaq imkanlar tapıb onlardan faydalanmağı bacarmalıdırlar. Kin-küdurəti unudub gələcəyə baxmalıdırlar. Bu, bütün dünyada müharibə aparan xalqlar arasında tarixən belə olub. Faciələri yadda saxlamaq, unudulmağa qoymamaq isə qarşılıqlı nifrət üçün deyil, əksinə, tarixin ibrət dərslərindən nəticə çıxarmaq, sülhü qorumaq üçün lazımdır.

Coğrafiya, qonşuluq bir taledir. Bu taleyə uyğun birgəyaşayış qaydalarını müəyyənləşdirmək zəruridir. Dövlət rəhbərimizin apardığı müstəqil siyasət, postmünaqişə dövrünün reallıqlarını təmkinlə, bölgənin gələcəyini aydın nəzərlərlə dəyərləndirməsi, qonşuluq məsələlərinə baxışları bu qaydalar əsasında regionda gözəl bir inkişaf mühitinin təmin olunmasına imkanlar yaradır.

Qarabağda yaşayan erməniləri öz vətəndaşları kimi qəbul etdiyini, dövlətimizin onların bütün hüquqlarını və təhlükəsizliklərini təmin etməyə hazır olduğunu hər zaman bəyan edib. Qarabağda yaşayan ermənilər Azərbaycan dövlətində özlərini daha təhlükəsiz və rahat hiss edə bilərlər. Bunun üçün onlar ilk növbədə separatizm meyillərinə son qoymalı, reallıqları anlamalıdırlar. Xəritəyə, coğrafiyaya nəzər yetirməlidirlər. Başa düşməlidirlər ki, yüz minlərlə azərbaycanlı ən yaxın gələcəkdə Kəlbəcərə, Laçına, Şuşaya, Ağdama qayıdacaq və onlar belə bir mühitdə, qonşuluq şəraitində yaşamalı olacaqlar. Son vaxtlar Qarabağdakı ermənilərdən Azərbaycana müsbət mesajların daxil olması onlar arasında artıq bu həqiqətləri anlamağa başlayanların sayının artmasına dəlalət edir.

## Avropa İttifaqının rolu təqdirəlayiqdir

Azərbaycanla Ermənistan arasında ictimai diplomatiya imkanlarından istifadə otuz illik münaqişə dövrünün psixoloji maneələrinin tədricən aradan qalxmasına, iki xalqın yaxınlaşaraq gələcəyə birgə baxmasına, xüsusilə Ermənistanda hökm sürən nifrət və revanşizm iddialarının qarşısının alınmasına böyük fayda verə bilər. Azərbaycan dövləti Avropa İttifaqının, ABŞ və Rusiyanın dəstəyi ilə bu cür təmasların olmasını, müxtəlif görüşlərin keçirilməsini, tərəflərin bütün səviyyələrdə danışıqlara başlamasını zəruri sayır. Bununla bağlı konstruktiv mövqeyini ortaya qoyur.

Avropa İttifaqının Ermənistan və Azərbaycan üçün ayırdığı maliyyə paketlərinin bir hissəsi də əlaqələrin qurulmasına və insanlar üçün daha yaxşı imkanların yaradılmasına sərf oluna bilər. Ümumiyyətlə, postmünaqişə dövründə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması prosesində Avropa İttifaqının rolu təqdirəlayiqdir. Avropa İttifaqının bu mövqeyi səbəbsiz deyil. Azərbaycanın bu təşkilatla münasibətlərində məqsədyönlü, praqmatik davranışlarının, strateji önəminin, regionun gələcəyi ilə bağlı aydın hədəflərinin qarşılığıdır. Eyni zamanda Azərbaycanın tutduğu müstəqil mövqeyə, yürütdüyü siyasətə, regionda həqiqətən sülhün, davamlı inkişafın təmin olunması ilə bağlı səmimi istəklərinə verilən dəyərin ifadəsidir.

Azərbaycan öz məqsədyönlü, müstəqil siyasətinə uyğun olaraq dünyanın əksər aparıcı qurumları kimi Avropa İttifaqı ilə münasibətlərini də ehtimallarla deyil, praqmatizm, qarşılıqlı fayda və maraqlar üzərində qurur. Ölkəmiz regionda sülh və davamlı inkişaf arzuladığı kimi, Avropa İttifaqı da öz sərhədlərində sabitlik istəyir. Azərbaycanın enerji potensialı, nəqliyyat-kommunikasiya infrastrukturu bu nüfuzlu təsisat üçün son dərəcə maraqlıdır. Ümumiyyətlə, ortaya qoyduğu mövqe Avropa İttifaqının yeni reallıqları tam qəbul etdiyini göstərir. Azərbaycan da Avropa İttifaqı ilə yaxın münasibətlərin qurulmasının tərəfdarıdır. Qarşısına üzvlük kimi qeyri-real hədəflər qoymur. Müasir texnologiyalara, Avropanın enerji bazarına daha geniş çıxış imkanlarına can atır. Bu da, Avropanın enerji strategiyası ilə tamamilə uzlaşır. Azərbaycan Avropa İttifaqının Cənubi Qafqaz ölkələrinə eyni bucaq altında yanaşmasını istəyir. Bu baxımdan, Avropa İttifaqının postmünaqişə dövründə tutduğu mövqe, danışıqlar prosesində oynadığı rol təşkilat haqqında müsbət rəylər yaradır. Bu məqamı Azərbaycan Prezidenti son çıxışlarında da xüsusi vurğulayıb. Dövlət rəhbərimizin belə yüksək qiyməti Avropa İttifaqının ədalətli vasitəçi olmasına, normallaşma prosesində fəal rol oynamasına obyektiv münasibətindən irəli gəlir.

Bütün bunlar bir daha Azərbaycanın müstəqil siyasətini, regionun gələcəyi ilə bağlı səmimi niyyətlərini, heç bir ölkəyə, beynəlxalq təşkilata qarşı qərəzli mövqedə olmamasını göstərir. Azərbaycan sadəcə Qafqazda daimi sülhün olmasını həqiqətən istəyənlərlə, buna çalışanlarla ATƏT-in Minsk qrupu kimi illəri boşa verib münaqişəni gələcəyə ötürməyə çalışanları bir-birindən ayırır. Onların hər birini dünyaya öz əməli, əldə etdiyi nəticə, yaxud nəticəsizliklə təqdim edir. Fikrimizcə, dünyadakı gələcək proseslər üçün bütün bu təcrübələr son dərəcə önəmlidir.

Əfsuslar olsun ki, bu proseslərdə mənfi təcrübə formalaşdıran təkcə ATƏT-in Minks qrupu deyil. Bu, UNESCO təşkilatına da aiddir. Dünyada mədəni irsin qorunub saxlanmasını öz fəaliyyət prioriteti elan etmiş UNESCO 30 illik işğal dövründə Ermənistanın Azərbaycan xalqına məxsus mədəni irsi dağıtmasına göz yumub. "Siyasi məsələlərlə məşğul olmamaq" bəhanəsi ilə həmin ərazilərə missiya göndərməkdən imtina edib. Torpaqlarımız işğaldan azad edildikdən sonra isə bu təşkilatın fəallaşması və "erməni tarixi irsinin" müdafiəsinə qalxması müşahidə edilir. Bu hallar UNESCO kimi təşkilatların da öz prinsiplərindən uzaq düşdüyünü, əslində mədəni irsi deyil, erməni vandalizmini müdafiə mövqeyində dayandığını və qeyri-obyektivliyə yol verdiyini göstərir.

## Milli maraqların müəyyən etdiyi inkişaf yolu

Azərbaycanın müstəqil xarici siyasəti xalqımızın milli maraqlarına əsaslanır və maksimal nailiyyətlərin əldə olunmasına yönəlib. Azərbaycan regionda təhlükəsizlik və əməkdaşlıq məsələlərinə bu günümüz və sabahımız prizmasından yanaşır, bütün qonşularla xoş münasibətlərə malikdir. Azərbaycanla Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi iki ölkə arasında əməkdaşlıq və qardaşlığın mahiyyətini əks etdirir. Azərbaycanla Rusiya arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamə də ölkəmizin strateji maraqlarına əsaslanır. Bütün bunlar ümumilikdə Cənubi Qafqaz regionunda sülhə və davamlı inkişaf mühitinə xidmət edir. Bu gün regionun gələcək inkişaf mənzərəsini Azərbaycan müəyyənləşdirir.

On il sonranın Cənubi Qafqazında Azərbaycan daha da güclü olacaq. Sülh arzusunun reallaşması istiqamətində göstərilən səylər nəticəsində həmin vaxta kimi Ermənistanla olan anlaşılmazlıqlar, problemlər öz həllini tapacaq. Cənubi Qafqaz regionunda möhkəm inteqrasiya prosesləri gedəcək və üç Cənubi Qafqaz ölkəsi arasında sıx əməkdaşlıq yaranacaq. İndiyə qədər bir çox regional layihələrin müəllifi kimi Türkiyə və Gürcüstan arasında üçtərəfli əməkdaşlıqda mühüm rol oynamış Azərbaycan güclü iqtisadi potensiala malik ölkə, sərvət və sabitlik yaradıcısı kimi bu prosesdə liderliyi öz üzərinə götürəcək.

Azərbaycanın Çinlə münasibətlərinin strateji xarakteri, ölkəmizin "Bir kəmər - bir yol" layihəsində iştirakı, müasir enerji strategiyasının parlaq nəticələri və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin getdikcə artan rolu, eləcə də bərpa olunan enerji potensialı, dünyanın aparıcı şirkətləri ilə bu istiqamətdə görülən işlər də Prezident İlham Əliyevin apardığı müstəqil siyasətin tarixi nailiyyətləridir.

Bütün bunlar dövlət başçımızın da bəyan etdiyi kimi nəyi, necə və nə vaxt etməyi gözəl bilən, hər sözünə imzası qədər dəyər verən və bunu əməldə sübuta yetirən qətiyyətli liderin gələcəklə bağlı təsvir etdiyi və addım-addım reallığa çevirdiyi aydın mənzərədir. Azərbaycanın yeri bu mənzərədə daha da qüdrətli görünür.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Təbii resurslarımız ölkənin inkişafına, xalqın rifahına xidmət edir

### Prezident İlham ƏLİYEV: "Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır"

Ölkəmizin son onilliklərdə həyata keçirdiyi nəhəng neft-qaz və ixrac layihələri beynəlxalq aləmin diqqət mərkəzindədir. Ən önəmlisi də budur ki, Azərbaycan dövləti həmin layihələrin reallaşması nəticəsində əldə olunan gəlirlərdən səmərəli şəkildə istifadə edərək digər sahələrdə mühüm işlər həyata keçirir, dünyanın hər yerinə yollar çəkir, dəhlizlər açır, körpülər salır. Ölkəmizdə neft kapitalı insan kapitalına çevrilib. Təəssüf ki, təbiətin bizə böyük səxavətlə bəxş etdiyi bu sərvətdən əsrlər boyu lazımınca faydalana bilməmişik. Bu yalnız ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra mümkün olub.

Azərbaycanın adı keçmiş zamanlardan dünya tarixinə neftin vətəni kimi həkk edilib. İlk dəfə sənaye üsulu ilə neft 1846-cı ildə məhz Bakıda çıxarılıb. Əlbəttə, o zaman belə bir sərvət böyük ölkələrin iri kapitalistlərinin diqqətini çəkməyə bilməzdi. Odur ki, həmin dövrlərdə neft maqnatları Azərbaycana axışıblar. Nobellər, Mantaşevlər, Rotşildlər torpağımızın qara qızıl "qan"ını sovurub aparmaq üçün özlərini oda-közə vurublar. Sovet dönəmində də Azərbaycanda böyük həcmdə neft çıxarılıb. Lakin keçmiş SSRİ-nin planlı təsərrüfatı, ittifaqa daxil olan bütün respublikaların ümumi büdcədən eyni dərəcədə faydalanmasına əsaslanan qaydaları bu zənginlikdən xalqımızın lazımınca bəhrələnməsinə aman verməyib.

Müstəqilliyini bərpa etdikdən sonra isə ilk illər Azərbaycan üçün çətin keçdi. Ölkəni idarə edənlərin məsuliyyətsizliyi və səriştəsizliyi ucbatından neft-qaz sənayesi də tənəzzülə uğradı. Dönüş yalnız Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra baş verdi. 1994-cü ildə dünyanın ən tanınmış neft şirkətləri ilə "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi üçün saziş imzalandı. Azərbaycan iqtisadiyyatının "qəddini düzəldən", ölkənin gələcək inkişafına təkan verən bu möhtəşəm kontrakt "Əsrin müqaviləsi" adını aldı. "Əsrin müqaviləsi" ölkəmizin yeni neft-qaz strategiyasının əsasını qoydu və təsdiqlədi ki, müstəqil Azərbaycanın xalqı suveren hüquqlara malikdir və öz sərvətinin sahibidir.

Yeni neft strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyev o zaman uzaqgörənliklə demişdir: "Azərbaycanın böyük neft və qaz sərvətlərinə malik olması bizim xalqımızın xoşbəxtliyidir və bu gün üçün, gələcək üçün, xalqımızın yaxşı yaşaması üçün, ölkəmizin inkişaf etməsi üçün əsas amildir". Bu sərvətlərin ali məqsədlərə yönəldilməsi üçün Ulu Öndər "Əsrin müqaviləsi" imzalandıqdan 5 il sonra - 1999-cu ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunu (ARDNF) yaratmışdır.

Çıxışlarının birində Ümummilli Lider bu məsələni belə şərh etmişdir: "Sual olunur nə üçün Azərbaycan, Bakı dünyanın neft və qaz mərkəzlərindən biri kimi indiyədək bugünkü qədər tanınmamışdı? Səbəbi ondan ibarətdir ki, birincisi, Azərbaycan öz dövlət müstəqilliyini əldə etmişdir və dünya birliyində özünə yer tutan müstəqil dövlət kimi təbii sərvətlərinin sahibi olmuşdur, onlardan istifadə edilməsi üçün lazımi yeni tədbirlər görməyə başlamışdır. İkincisi, ondan ibarətdir ki, müstəqil Azərbaycan, onun dövləti öz iqtisadiyyatını inkişaf etdirmək və böyük təbii sərvətlərindən, xüsusən neft və qaz sərvətlərindən istifadə etmək üçün yeni neft strategiyası işləyib hazırlamış və onu həyata keçirməyə başlamışdır".

Prezident İlham Əliyev də bu barədə çox dəqiq və dəyərli fikir söyləmişdir: "Azərbaycanda çıxarılan neft Azərbaycan xalqının maraqlarına xidmət etmirdi. Əgər biz o vaxt müstəqil ölkə olsaydıq, mən tam əminəm ki, Azərbaycan dünyanın ən zəngin ölkəsinə çevrilə bilərdi. Ancaq biz müstəqil deyildik".

Müstəqilliyimizin bəhrəsi olan qlobal layihələr, o cümlədən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri artıq təkcə Azərbaycana deyil, bütün regiona xeyir-bərəkət gətirir. Öz yaradıcısının - Heydər Əliyevin adını şərəflə daşıyan BTC neçə-neçə yeni layihəyə yol açıb. Prezident İlham Əliyev Azərbaycanın neft-qaz strategiyasını uğurla davam etdirərək və günün tələbləri baxımından inkişaf etdirərək ölkəmizi yeni zirvələrə çatdırıb. Azərbaycan "Cənub qaz dəhlizi" kimi nəhəng bir layihənin reallaşmasının təşəbbüskarı və lideri kimi çıxış edib, onu müvəffəqiyyətlə yekunlaşdırıb.

"Cənub qaz dəhlizi" qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatın inkişafında mühüm amil olacaq. Bu layihə ölkəmizin regionda və Avropada nüfuzunun artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirir. Azərbaycanın enerji ixrac edən və tranzit ölkə kimi əhəmiyyətini daha da artırır. Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət əldə edir.

Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, Azərbaycanın təbii resursları xalqımızın milli maraqlarına xidmət edir. Azərbaycan neftdən və qazdan gələn gəlirləri eyni zamanda nəqliyyat sektoruna yönəldib. Bakı-Tbilisi-Qars dəmir yolu kimi əhəmiyyətli bir layihəni maliyyələşdirib. Bunlar Azərbaycanı nəinki bölgədə, bütün Avrasiya məkanında nəqliyyat mərkəzinə çevirib. Görülmüş işlər indi ölkəmizin ərazisindən böyükhəcmli yüklərin Şərqdən Qərbə, Qərbdən Şərqə daşınmasına imkan verir.

Neftdən əldə olunan gəlirlər, o cümlədən Azərbaycan Ordusunun gücünü, qüdrətini artırıb, silah-sursatla təchizatını yüksək səviyyəyə çatdırıb. Dövlət başçısı bu barədə belə demişdir: "Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir".

Azərbaycan Ordusunun işğalçı Ermənistana qarşı apardığı müharibədə, düşmən tapdağında olan torpaqlarımızı azad etmək üçün döyüşlərdə göstərdiyi şücaət və qəhrəmanlıq, qazanılan böyük qələbə deyilənlərin əyani təsdiqidir. Bu gün Azərbaycanın güclü iqtisadiyyatı və güclü ordusu var. Neft gəlirləri, eləcə də ölkə qarşısında dayanan digər ümdə problemlərin həllinə, təhsilin, səhiyyənin inkişafına, infrastrukturun təkmilləşdirilməsinə, geniş quruculuq işlərinə və s. yönəldilir. Təsadüfi deyil ki, ölkəmizin sosial-iqtisadi sahədə qazandığı nailiyyətlər nüfuzlu beynəlxalq maliyyə qurumları tərəfindən dönə-dönə etiraf olunur. Azərbaycanın adı həmin qurumların reytinq cədvəllərində ildən-ilə daha irəliyə çəkilir. Dövlət başçısı bunu belə vurğulayır: "Azərbaycanda neft rifah, inkişaf, sabitlik, güc gətirir. Bu gün Azərbaycanın müstəqil ölkə kimi yaşamasında, iqtisadi potensialımızın formalaşmasında neft-qaz amili çox böyük rol oynayır".

Xoşbəxt o xalqdır ki, vətəninin yeraltı və yerüstü sərvətləri onun bugünkü xoş güzəranına və daha işıqlı sabahına xidmət edir. Azərbaycan dövləti öz əməli fəaliyyətində, həyata keçirdiyi islahatlarda bu məqsədi rəhbər tutur. Prezidentimizin dediyi kimi: "Biz azad, müstəqil ölkədə yaşayırıq, öz taleyimizin sahibiyik. Bizim təbii resurslarımız xalqımızın maraqlarına xidmət edir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Cümhuriyyət ideyalarına sadiqliyin nümunəsi

Tariximizin qan yaddaşında, babaların ruhundan, min illik mənəvi varlığımızdan yol alıb gələn Azərbaycan bayrağı! Bu gün daha gözəl, daha əzəmətlisən. Vətənin bütün guşələri sənin rənginə boyanıb. Xalqımızın qəhrəman oğulları rəngindən güc alıb, əlində silah getdilər düşmən üstünə. Güllədən, silahdan çox sənin əzəmətin qorxutdu yağı düşməni… Qəhrəmanlığımızın, birliyimizin, ucalığımızın rəmzi Azərbaycan bayrağı! Sən bu gün bizə bir də ona görə daha əzizsən ki, Şuşada, Ağdamda, Füzulidə, Cəbrayılda, Laçında, Kəlbəcərdə, Zəngilanda, Qubadlıda, Hadrutda dalğalanırsan. Sən ona görə əzizsən ki, o torpaqlara həsrətinlə yanan, o torpaqlarda dalğalanman üçün canını bu vətənə fəda etmiş oğulların sinəsində getmisən oralara. Sən bir daha ona görə əzizsən ki, o torpaqlarda səni xalqımızın müzəffər oğlu Ali Baş Komandan İlham Əliyev ucaldıb…

## Yaddaş

Üçrəngli bayraq ideyasını gündəmə ilk dəfə milli ideoloq Əli bəy Hüseynzadə gətirib. Onun 1907-ci il iyun ayının 10-da "Füyuzat" jurnalında nəşr etdiyi məqaləsində "Türk hissiyatlı, islam etiqadlı, firəng qafalı" kimi ilk dəfə işlətdiyi bu fikri sonralar böyük mütəfəkkir Ziya Göyalp belə ifadə etmişdi: "Türk qanlı, islam imanlı, Avropa mədəniyyətli".

Əli bəy Hüseynzadə tərəfindən səslənən və Ziya Göyalp tərəfindən inkişaf etdirilən bu şüar sonralar Azərbaycan bayrağında öz əksini tapıb.

M.Ə.Rəsulzadə 1915-ci ildə " Açıq söz" qəzetinin ilk sayında "Tutacağımız yol" adlı məqaləsində əsası vaxtı ilə Əli bəy Hüseynzadə tərəfindən qoyulan məşhur üçlük düsturunu belə təqdim etmişdi: "Hər bir millət azadə yaşayıb da tərəqqi edə bilmək üçün 3 əsasa istinad etmək məcburiyyətindədir" Dil, Din və Zaman… Dilcə - biz türküz, türklük milliyyətimizdir… Dincə - müsəlmanız. Hər bir din inanları arasında məxsusi bir mədəniyyət vücuda gətirmişdir ki, bu mədəniyyət də bir beynəlmiləliyyət səbəbi təşkil edir… Zamanca da - biz texnikanın, elm və fənnin möcüzələr yaradan bir dövründəyiz… Demək ki, sağlam, mətin və oyanıq məfkurəli bir milliyyət vücuduna çalışmaq istərsək ki, zaman bunu tələb ediyor - mütləqa 3 əsasa sarılmalıyız: Türkləşmək, müasirləşmək və islamlaşmaq".

Dövlət bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada (indiki Azərbaycan Dövlət Neft Şirkətinin binası) Fətəli xan Xoyskinin sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin iclasında onun milli bayraq haqqında məruzəsi dinlənildikdən sonra rəsmi status alıb. Həmin iclasda milli dövlət bayrağının dəyişdirilməsi haqqında aşağıdakı qərar qəbul edildi: "Yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq milli bayraq hesab edilsin" (Azərbaycan Respublikası Dövlət Arxivi, fond 894, siyahı 1, iş 25, vərəq 142). Bayraqdakı mavi rəng türkçülüyü, qırmızı müasirliyi, qərb demokratiyasını, yaşıl isə islam ideologiyasını ifadə edir.

1918-ci il dekabırın 7-də parlamentin ilk iclasında çıxış edən M.Ə.Rəsulzadə öz çıxışında "...səadət və hürriyyət istiqlaldır. İştə bunun üçün əfəndilər, müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı Şurayi-Milli qaldırmış, türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtidarı - əhrarınəsini təmsil edən bu üç boyalı bayraq daima başlarımızın üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir" deyərək ideyalarımızın və bayrağımızın əbədiyaşarlığına əminliyini ifadə etmişdir. Nə yazıq ki, 1920-ci ildə ölkəmizin bolşevik-rus istilasından sonra bayrağımız endirilmişdir. 70 il sovet repressiya maşınının əsarətində qalan bayrağımız ürəklərdə yaşayaraq yenidən ucalacağı, zirvələrə yol alacağı günü gözləmişdir.

Xalqımızın milli-mənəvi dəyərlərinin yaşadılmasında və qorunub gələcək nəsillərə çatdırılmasında müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyev cümhuriyyət irsinin qorunub yaşadılmasının və həyata yenidən vəsiqə almasının ilk təşəbbüskarı və müəllifidir. Məhz onun təşəbbüsü və rəhbərliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan MR Ali Məclisinin sessiyasında Xalq Cümhuriyyətinin bayrağı qaldırılmış və Naxçıvan MR-in dövlət bayrağı kimi təsdiq edilmişdir. Bununla kifayətlənməyən Ulu Öndər Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli müqəddəs bayrağımızın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsadət də qaldırmışdır. Məhz bundan sonra ozamankı ölkə rəhbərliyi məcburiyyət qarşısında qalaraq 1991-ci il fevralın 5-də qürurumuz olan bayrağımızı dövlətin rəsmi bayrağı kimi təsdiq etmişdir. Cümhuriyyət ideyalarına sədaqət, ənənələri yaşatmaq, dəyərləri öz əməlləri ilə qorumaq Ulu Öndərin fəaliyyətinin əsas məzmunu olub. Ümummilli Liderin 2003-cü il 1 fevral tarixli "Azərbaycan Xalq Cümhuriyyətinə abidə ucaldılması haqqında" sərəncamı, əslində, milli mənəvi ruha sədaqətin, sadiqliyin bariz numunəsi idi.

## Böyük yolun paralelləri

2003-cü il oktyabrın 15-də Azərbaycanda prezident seçkisi keçirildi. III minilliyin müstəqil Azərbaycanının bu ilk seçkisi yeni eranın və yeni əsrin ilk onilliyinin siyasi oriyentirini müəyyən etdi. Cənab İlham Əliyev xalqın iradəsi ilə Prezident seçildi və Ulu Öndər Heydər Əliyevin siyasi kursunu və strateji xəttini davam etdirəcəyini bəyan etdi. Və bu təkcə söz olaraq qalmadı. Əməldə, işdə, bacarıqda, qətiyyətdə təsdiqini tapdı. Ardıcıllıqda özünü göstərdi. Eyni zamanda bu ardıcıllıq Azərbaycan Xalq Cümhuriyyətinə, onun qurucularına olan münasibətdə də dəyişməz olaraq qaldı.

İstiqlaliyyət küçəsində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə İstiqlal Bəyannaməsi abidəsinin ucaldılması və 2007-ci ilin 25 mayında abidənin açılışında iştirakı, 2018-ci ilin Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi ilə əlaqədar ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi, 2018-ci ildə Bakının işğaldan azad edilməsinin 100 illiyi ilə əlaqədar keçirilmiş möhtəşəm hərbi parad cümhuriyyət ideyalarına sadiqliyin, ehtiramın ən gözəl nümunəsidir.

2018-ci ildə Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi tədbir təşkil olundu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin tədbirdə iştirak etdilər. Dövlət başçısı çıxışında Azərbaycan Demokratik Cümhuriyyətinin qısa müddətdə gördüyü işləri yüksək dəyərləndirərkən demişdir: "Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi".

Cümhuriyyət qurucularının arzuları vətəni azad, dövləti qüdrətli görmək, yurdun hər qarışına sahib olmaq, bütöv görmək idi...

Bayrağı ucaltmaqdan, vətəni gülüstana çevirməkdən, dövləti qüdrətli etməkdən şərəfli, müqqəddəs nəyinsə olduğunu düşünmək absurddur. İllər idi ki, ermənilər tərəfindən işğal olunmuş, xarabazarlığa çevrilmiş Qarabağımıza indi can verilir. Bu gün şəhid qanı ilə suvarılmış o torpaqlarda Azərbaycan bayrağı daha əzəmətlə, daha qürurla dalğalanır. Bu gün illərdir ürəymizin yarası bildiyimiz, iftixarımız, qürur yerimiz Şuşa dirçəlir. Bu gün həm də ona görə qürurluyuq ki, o müqəddəs torpaqlarda endirilmiş bayrağımızı xalqımızın böyük oğlu, Müzəffər Ali Baş Komandan İlham Əliyev qaldırıb.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

SOCAR
SOCAR PETROLEUM QSC
xalqımızı
Müstəqillik Günü
münasibətilə təbrik edir,
sülh, əmin-amanlıq,
xoş gələcək arzulayır




"Bakı Abadlıq Xidməti" MMC
Azərbaycan xalqını



28 May - Müstəqillik Günü
münasibətilə təbrik edir,
yüksək tərəqqi və
xoş günlər arzulayır



Müstəqilliyi ardı-arası kəsilməyən ağır, gərgin ictimai-siyasi hadisələrin baş verdiyi günlərdə elan olunmuşdu. Qurucuları Azərbaycan Xalq Cümhuriyyətini yaşatmaq üçün həm ölkənin daxilində, həm də xaricində kök salmış düşmənlərə qarşı mübarizə aparırdılar. 1918-ci il sentyabrın 15-də Qafqaz islam ordusu qızğın döyüşlərlə Bakını daşnak-bolşevik birləşmələrinin işğalından azad etdi. Sentyabrın 17-də Fətəli xan Xoyski hökuməti Gəncədən bu şəhərə köçürdü. Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı oldu. Azərbaycan Milli Şurası 1918-ci il iyunun 17-də Gəncədə dayandırdığı fəaliyyətini həmin il noyabrın 16-da bərpa etdi. Noyabrın 19-da Məhəmməd Əmin Rəsulzadənin sədrliyi ilə Azərbaycan Milli Şurasının iclası keçirildi. İclasda Milli Şuranın Azərbaycan ərazisində yaşayan bütün millətləri təmsil etdiyi diqqətə çatdırıldı.

# Məqsədi Azərbaycanın səadəti olanların yetmiş il sonra reallığa çevrilən arzuları

Noyabrın 29-da Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin Azərbaycan Cümhuriyyəti Parlamentinin çağırılması ilə bağlı Azərbaycan və rus dillərində "Bütün Azərbaycan əhalisinə!" Müraciətnaməsi dərc olundu.

Parlamentin açılışı mərasiminə hazırlıq görüldü. O tarixi iclas təyin olunduğu gün - 1918-ci il dekabrın 3-də keçirilməli idi. Ancaq Bakıda fəaliyyət göstərən rus və erməni milli şuraları Azərbaycan Parlamentinin fəaliyyətə başlamasına müttəfiq qoşunlarının baş komandanı general Tomsondan istifadə etməklə mane olmağa cəhd göstərdilər. Tomsonla danışıqların aparılması və qəzalardan bütün deputatların Bakıya gələ bilməməsi diqqətə alınaraq parlamentin ilk iclası dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin Bakının Nikolayev (hazırda İstiqlaliyyət) küçəsində yerləşən "Qızlar məktəbi"nin binasında (indiki AMEA-nın Əlyazmalar İnstitutu) keçirildi. Parlamentin stenoqrafçıları iclasın "...günorta saat 1-25 dəqiqədə Şurayi-Milli rəisi Məhəmməd Əmin Rəsulzadə əfəndinin nitq iftitahilə" açıldığını yazdılar.

Azərbaycan Milli Şurasının sədri geniş nitqinə belə başladı: "Möhtərəm məbuslar! Azərbaycan Cümhuriyyətinin ilk Məclisi-Məbusanını açmaq yomi-səadəti, siz möhtərəm məbusları təbrik etmək şərəfinin öhdəmə düşməsilə müftəxirəm".

Məhəmməd Əmin Rəsulzadə Parlamentin ilk iclasının iştirakçıları barədə məlumatında bildirdi: "Bu gün əqəliyyət təşkil edən millətlərin nümayəndələri ilə qəzaların yeni nümayəndələri dəvət olunmaq üzrə iştə bu Məclis təşkil edilmişdir. Bu Məclis ümumi seçki üsulu ilə toplanaraq Azərbaycan Məclisi-Müəssisanı toplanıncaya qədər məmləkətimizin sahibi olacaq. Burada Azərbaycanda bulunan bütün millətlərin, təbəqələrin və müxtəlif cərəyanların nümayəndələri olduğundan bu Məclis vətənimizi tamamilə təmsil edə bilər".

Rəsulzadə parlamentə sədr və sədr müavini seçilməsini təklif etdi. Namizədlərin müzakirəsinə başlanıldı. Şəfi bəy Rüstəmbəyov "Müsavat" və bitərəflər namından rəisliyə Əlimərdan bəy Topçubaşov, birinci müavinliyə doktor Həsən bəy Ağayevin namizədliyini" təklif etdi. Təklif müzakirəyə qoyuldu. Və qəbul olundu.

O gün Cümhuriyyət Parlamentinin sədri seçilən Əlimərdan bəy Azərbaycanda olmadığına görə iclasda iştirak etmirdi. Söz sədr müavini Həsən bəy Ağayevə verildi. Həsən bəy göstərdikləri etimada görə, Parlament üzvlərinə təşəkkür etdi: "Rəis cənabları gələnə kimi onun ağır vəzifəsinin ifası öhdəmə buraxıldı. Bu ağır vəzifəni ifa edə biləcəkmiyəm, yoxmu, bunu deməyə cəsarət edəmirəm. Zira vəzifə xeyli məsuliyyətli və ağırdır. Burası hamınıza məlumdur. Fəqət hamının məqsədi sevgili Azərbaycanın səadəti, buraya toplanmamızdan murad əziz vətənimizi sahili-nicata çıxarmaq olduğundan ümidvaram acizləriniz sizinlə bərabər məqsədə nail və sizin müavinətiniz ilə vəzifəmi hüsnü-ifayə müvəffəq olacağam".

Parlamentin 3 nəfərdən ibarət katibliyi seçildi. Mehdi bəy Hacınski baş katib oldu.

Azərbaycan Cümhuriyyəti müvəqqəti hökumətinin sədri Fətəli Xan Xoyski çıxışına təbriklə başladı: "Bugünkü gün Azərbaycan üçün böyük, əziz mübarək gündür ki, yuxumuzda görməzdik, əqlimizə gəlməzdi. Bu gün o gündür ki, muxtariyyəti əlinizə aldınız. Hökumət vəkalətilə özümüzü də sizinlə bərabər təbrik edirəm".

Fətəli xan Xoyski çıxışının sonunda öz hökumətinin istefasını qəbul etməyi yeni yaranmış parlamentdən xahiş etdi. İstefa qəbul olundu. Və hökumətin tərkibini formalaşdırmaq yenidən ona həvalə edildi.

Parlament haqqında qanunda erməni nümayəndələrinə 21, rus nümayəndələrinə 10, həmkarlar ittifaqı nümayəndələrinə 3 yer ayrılsa da, onlar bu, tarixi iclasa qatılmadılar.

Fəaliyyətini ilk gündən demokratik qaydalar əsasında həyata keçirən Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti 17 ayda 145 iclas keçirdi. Vətəndaşlıq haqqında, ümumi hərbi mükəlləfiyyət haqqında, mətbuat haqqında, Milli Bankın təsisi haqqında, Bakı Dövlət Universitetinin yaradılması haqqında, gömrük və poçt-teleqraf xidmətinin təkmilləşdirilməsi haqqında, məhkəmə qanunvericiliyi haqqında və başqa mühüm sənədlər Parlamentdə müzakirəyə çıxarıldı və qəbul olundu.

Azərbaycan Cümhuriyyəti Parlamentinin müzakirəsinə çıxarılan 270-dən yuxarı qanun layihəsinin 230-a yaxını təsdiq olundu. Parlamentin işi onun nizamnaməsi rolunu oynayan "Azərbaycan Parlamentinin nakazı (təlimatı)" ilə tənzimlənirdi.

1919-cu ilin axırlarına doğru Parlamentdə 96 deputat 11 müxtəlif partiya fraksiyası və qrupunu təmsil edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin fəaliyyəti ölkənin sosial-iqtisadi və maliyyə problemlərinin həlli, ərazi toxunulmazlığı, vətəndaşların hüquqlarının qorunması, xarici ölkələrlə siyasi, iqtisadi və ticarət əlaqələrinin yaradılması və digər vacib məsələlərə istiqamətləndi.

Azərbaycan istiqlaliyyətini beynəlxalq aləmdə tanıtmaq qarşıda duran ən mühüm vəzifələrdən biri idi. Xarici siyasətdə ilk addımlar atılırdı. Azərbaycanın dövlət müstəqilliyinin bərqərar edildiyi barədə dünya ölkələrinin xarici işlər nazirliklərinə məlumat verilirdi.

1920-ci ilin aprelində müharibə elan etmədən, qara yel kimi işğalçı XI Qırmızı Ordunun hissələri gəlməkdə idi. Aprelin 26-dan 27-nə keçən gecə işğalçı ordunun döyüşçüləri müstəqil Azərbaycan dövlətinin sərhədlərini keçib Bakıya doğru irəlilədilər. Cümhuriyyət dövlətinin paytaxtı dənizdən də əhatəyə alındı. Aprelin 27-si səhəri bolşeviklərin silahlı dəstələri şəhər daxilində və kənarlarında mühüm obyektləri ələ keçirdilər. İşğalçıların tapşırığına uyğun olaraq, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsi, Rusiya Kommunist (bolşeviklər) Partiyası Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi Fəhlə Konfransı adından Azərbaycan Parlamentinə hakimiyyəti təhvil vermək barədə ultimatum göndərildi.

1920-ci il 27 apreldə Azərbaycan Parlamentinin 145-ci, təcili fövqəladə axşam iclası başladı. Müstəqil dövlətin müqəddəratı həll olunurdu. Çox çətin olsa da, Parlament qərarını verməliydi...

İclasın sədri Məhəmməd Yusif Cəfərov, katibi Rza bəy Qaraşarlı idi. Səs çoxluğu ilə açıq keçirilməsinə qərar verilən iclasda Məhəmməd Əmin Rəsulzadə söz aldı: "Çıxardığımız tarixi qərarı millətdən bixəbər çıxarmayaq. Ölkə parlamentinin qapısını açıq qoyaq ki, hər kəs nə cür təhlükəli vəziyyət içində olduğumuzu, nə cür qərar qəbul edəcəyimizi bilsin. Ona görə də təklif edirəm ki, məclisimizin qapılarını millət üzünə bağlamayaq və millətdən bixəbər qərar qəbul etməyək".

Xüsusi Komissiyanın sədri Məhəmməd Həsən Hacınski "Azərbaycan kommunist" firqəsindən gəlmiş, artıq məzmunu hamıya məlum olan məktubu bir də oxudu. Rus dilində oxuduqlarını müxtəsər tərcümə etdi: "Mərkəzi Azərbaycan kommunist firqəsi bizə təklif edir ki, axşam saat 7-yə qədər hökuməti onlara təslim edək. Bununla belə, əmin edirlər ki, onların şərtlərini qəbul etsək, Qızıl Ordu əsla Bakıya gəlməyəcək və Qızıl Ordunun Bakıya gəlməməsi üçün onlar əllərindən gələni edəcəklər. Onlar deyirlər ki, hökumət Azərbaycan kommunistlərinin əlində olarsa, Qızıl Ordu heç bir vədə buraya gəlməyəcək. Hökumət mexaniki surətdə təslim edilməlidir. Nə kimi məmurlar varsa, hamı öz yerlərində qalacaqlar. Yalnız hökumət başında olanlar kənar edilib, yerlərinə Azərbaycan kommunistləri keçir və müsəlmanlardan başqa orada kimsə yoxdur. Altıncı şərtləri budur: - əgər bu gecə bu məsələ həll olunarsa, onlar bir deklarasiya çıxarırlar ki, Azərbaycan Parlamentinə daxil olan siyasi firqələr musavi (bərabər) və azad fəaliyyət göstərəcəklər. Onlara qarşı və xüsusən, hökumət üzvlərinə qarşı heç bir xüsusi tədbir görülməyəcək və onlar təqib olunmayacaqlar. Sonra gələn Qızıl Ordunun məqsədləri məzlum millətə yardım etməkdir. Biz tərəfdən də bir neçə təklif verildi. Lakin onlar qəbul etmədilər. Onlar bir şeyi də söylədilər ki, hərgah onların təklifi qəbul olunmasa, gələcəkdə məsuliyyət parlament üzvlərinin üzərinə düşəcək". Hacınski sərhəddə lazımi qədər düşmənə qarşı mütəşəkkil müdafiəyə hazır olmadıqlarını tənqidi şəkildə diqqətə çatdırdı.

Parlamentdə müxtəlif fikirlər irəli sürüldü. Səmədağa Ağamalıoğlu təslimdən başqa çarə olmadığını dedi: "Məsələ burasındadır ki, millətin əmin-amanlığını qorumaq lazımdır. Onlar da buna söz verirlər və deyirlər ki, Azərbaycanın istiqlaliyyəti qorunacaq və mən də yəqin edirəm ki, indiki istiqlaliyyət əvəzinə Azərbaycan digər istiqlaliyyətə nail olar".

Aslan bəy Səfikürdlünün fikri isə belə oldu: "Məhəmməd Əmin demişkən, öz edamımıza özümüz qol çəkirik. Bu da doğrudur. Amma etiraf etməliyik ki, bu ixtiyarı və hökuməti öz camaatımıza veririk. Azərbaycanın ixtiyarını Azərbaycan fəhlələrinin nümayəndələrinə veririk. Bu nümayəndələr deyirlər ki, bütun məsuliyyəti biz öz üzərimizə götürürük. Biz Azərbaycan kommunistlərinin təklifini rədd etməyib, qəbul etməli və hakimiyyəti bununla birlikdə millətin ixtiyarını onlara verməliyik".

10 dəqiqəlik tənəffüsdən sonra Məhəmməd Əmin Rəsulzadə söz alaraq təmsil etdiyi fraksiyanın mövqeyini açıqladı: "Fəqət, firqələrin əksəriyyətinin tələbinə görə və camaatımızın arasında daxili müharibə salmamaq üçün və əlavə bugünkü kommunist firqəsinin müstəqilliyimizi müdafiə edəcəklərini nəzərə alaraq bütün ixtiyarın onlara verilməsinin tərəfdarıyam, bu şərtlə ki, kommunistlər istiqlaliyyət, millət və məmləkətimizi layiqincə müdafiə etsinlər. Yox, əgər bunlara əməl olunmazsa, ixtiyarımızı geri alaraq haqqımızı özümüzdə saxlayacağıq".

Hacıkərim Sanıyev də dedi ki, etimad göstərilən şəxs vəzifəsini layiqincə yerinə yetirə bilməzsə, onda bu etimad geri götürülür, onlar da bu cür edəcəklər.

Bütün ixtiyaratın kommunistlərə verilməsi, hökumət və parlamentin onların rəyi əsasında təşkil olunması təklifi səsə qoyuldu. Bir nəfər təklifin əleyhinə səs verdi, üç nəfər bitərəf qaldı, üç nəfər isə səsvermədə iştirak etmədi.

"Əhrar fraksiyası"ndan İslam bəy Qardaşov yerindən sual verdi: "Bəs bu parlamentin taleyi?"

Ağa Aşurov real vəziyyəti dilə gətirdi: "Orada proletar hakimiyyəti var və özlərini kəndli və fəhlə hökuməti adlandırırlar. Biz isə burada dövləti, tacir və o şəxslərik ki, hərəsi bir yerdən gəlibdir. Siz onlarla bir yerdə işləyə bilməyəcəksiniz. Onların fikirlərinə görə, bu vaxta qədər olan hökumət parlamentə qulluqçu idi. Amma indi elə deyil. O adam sənə hökm edir, sən də qəbul edirsən. Məsələ bu növ bitir. Parlamentin qalmasını heç onlar da istəmirlər. Qəbul etsələr belə, yeni bir nəticə verməyəcəkdir".

Məhəmməd Həsən Hacınski dedi: "Bu məsələ bizim müzakirəmizdə olanda onlar bizə belə cavab verdilər ki, inqilabi hökumət ilə parlament yaşaya bilməz. Məsələ orasındadır ki, parlament öz ixtiyarını həmin inqilab komitəsinə verir".

Muxtar Mahmudov şimaldan gələn bu qüvvəni dəf etməyə gənc Azərbaycanın qüvvəsinin olmadığına görə, parlamentin öz işini dayandırdığını təəssüflə bildirdi: "Deyirlər ki, təzə firqə bəlkə parlamenti qovub dağıtsın, lakin parlament bütün Azərbaycan millətinin nümayəndələrindən olduğu üçün onu kimsə dağıda bilməz. Nə vaxta qədər ki, parlament öz dağılması haqqında qərar çıxartmayıb, yenə parlamentliyində qalır". O, parlamentin öz hüquqlarını layiqincə saxlamasını, təmin etməsini təklif etdi: "Parlamentin dağılması barədə qərar çıxarmaq üçün başqa iclas lazımdır, yoxsa belə hay-küylə iş getməz".

Aslan bəy Qardaşov rica etdi ki, müzakirə olmasın. "Sədr - Beləliklə, parlamentin məsələsi bağlanır. Ona görə də iclası qapalı elan edirəm". Axşam saat 20:45-də başlayan iclas 23:25-də başa çatdı.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk iclası təmtəraqlı, təntənəli, sevincli olduğu qədər sonuncusu qüssəli, kədərli keçdi. Ancaq Azərbaycanın böyük vətənpərvərləri, milli mücahidləri ümidlərini itirmədilər. Onlar inandılar ki, "Bir kərə yüksələn bayraq bir daha enməyəcək", bir gün Azərbaycanın müstəqilliyi geri qaytarılacaq. Bu qırılmayan ümidin, bitməyən inamın yenidən reallaşması çox uzun, 70 il çəkdi. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin ilk və son iclaslarının iştirakçıları o gözəl, o müqəddəs günün intizarı ilə bu dünyadan köçdülər...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# 28 May Müstəqillik Günü qeyd olunmuşdur







Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Milli Məclisin deputatı Pərvin Kərimzadə və digər şəxslər iştirak etmişlər.

Tədbirdən əvvəl qonaqlar kollecdə yaradılan yeni laboratoriyalarla tanış olmuşlar. Kollecin direktoru, Əməkdar həkim Mehman Rzayev məlumat verərək diqqətə çatdırmışdır ki, kollecdə tələbələrin praktik məşğələlər keçməsi və əyani şəkildə biliklərə yiyələnmələri üçün geniş imkanlar yaradılmışdır: "Artıq yeni laboratoriyalarda tibbi bacarıqlar praktik olaraq robot-maniken üzərində həyata keçirilir. Bununla yanaşı, TİKA tərəfindən yaradılan "Əczakimya analitik laboratoriyası" tezliklə istifadəyə veriləcəkdir".

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlamışdır. Sonra ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Çıxış edənlər bildirmişlər ki, müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104 illiyi tamam olur. Cümhuriyyət qısa bir dövr yaşasa da, Azərbaycanın milli dövlətçilik tarixində silinməz izlər qoymuşdur. Qeyd olunmuşdur ki, 1991-ci il oktyabrın 18-də Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etmişdir. Bu gün Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə və reallıqlarına uyğun uğurla davam etdirilir. Ən böyük uğurumuz isə 30 ilə yaxın işğal altında olan ərazilərimiz 44 günlük Vətən müharibəsi nəticəsində ermənilərdən təmizlənmişdir.

Kollec tələbələrinin iştirakı ilə təqdim olunan musiqi nömrələrindən və göstərdikləri ədəbi-bədii kompozisiyadan sonra dövlət müstəqilliyimizdən bəhs edən videoçarx və sənədli filmlər nümayiş etdirilmişdir.

*S.ƏLİYEV,*
*"Azərbaycan"*

# Gəncə Dövlət Universitetində Məzun günü keçirilmişdir









Məzun gününə bu il universiteti bitirən yüzlərlə bakalavr və magistrlərlə yanaşı, 44 günlük Vətən müharibəsində qazi olmuş universitet tələbələri, həmçinin şəhid anaları da qatılmışdılar. İkiillik pandemiyadan sonra Məzun gününün keçirilməsi müəllim və tələbələrə böyük sevinc bəxş etmişdir.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlamışdır. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra söz universitetin rektoru, professor Yusif Yusibova verilmişdir. Rektor çıxış edərək bu il universitetdən 1928 tələbə və magistrin məzun olduğunu diqqətə çatdırmış, GDU-nun əldə etdiyi nailiyyətlərdən danışmışdır. 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etməklə böyük qələbənin qazanılmasında gənclərin rolundan söz açan natiq Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın, o cümlədən GDU-nun 16 şəhid məzununun xatirəsinin daim əziz tutulduğunu qeyd etmişdir.

Sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək məzunları təbrik etmiş, onlara gələcək həyatlarında uğurlar və ölkəmizin daha da çiçəklənməsi naminə səy və bacarıqlarını əsirgəməməyi arzulamışdır.

Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, Milli Məclisin deputatı Pərvin Kərimzadə, şəhid anası Brilliyant Əsgərova, universitetin tələbəsi, 44 günlük Vətən müharibəsinin qazisi Tural Zeynalov və başqaları çıxış edərək məzunlara xoş arzularını bildirmişlər.

Sonra mükafatlandırma mərasimi olmuşdur. Universitetin ictimai-siyasi həyatında fəallıq göstərən, təhsildə fərqlənən bir qrup məzuna fəxri fərman təqdim edilmişdir. Məzunlar qonaqlarla xatirə şəkli çəkdirdikdən sonra böyük bayram konserti olmuşdur. Tədbir iştirakçıları universitet tələbələrinin ifasında səsləndirilən qəhrəmanlıq mahnılarını, eləcə də rəqs qrupu üzvlərinin çıxışlarını alqışlarla qarşılamışlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Uzun yolun yolçusu



Böyük fikir sahibləri ideyalarını tam olaraq həyata keçirə bilməyəcəklərini bəzən anlasalar da, onları yaşadan ali dəyərlərin inkişaf edib həyata vəsiqə alacağına, səpdikləri toxumun bir gün bar verəcəyinə inamları olur. İstiqlal məfkurəmizin banilərindən biri Əlimərdan bəy Topçubaşov da belə vətənpərvərlərdən idi. O, Azərbaycanın müstəqil dövlət olacağına inanırdı. Ona görə də bütün ömrünü bu yolda mücadiləyə həsr etmişdi.

...1863-cü il mayın 4-də Tiflisdə zadəgan ailəsində anadan olmuşdur. Əslən Gəncədən olsa da, ulu babalarından biri Tiflisə, digəri isə İrəvana köçüb orada yaşamışlar. Ə.Topçubaşovun ulu babası sonuncu gürcü kralının yanında çalışıb, Tiflis Qalabəyisi mövqeyinə qədər yüksəlib. Babası Mirzə Cəfər Topçubaşov isə 1790-cı ildə Gəncədə anadan olub. Türk, ərəb, fars, rus, gürcü, erməni dillərini mükəmməl bilib. 1819-cu ildə Peterburq İmperator Universitetinə dəvət alıb, 1849-cu ilədək orada çalışıb. Səmərəli fəaliyyəti yüksək dəyərləndirilərək 1-ci və 2-ci dərəcəli "Müqəddəs Anna", 3-cü dərəcəli "Vladimir", 1-ci dərəcəli "Müqəddəs Stanislav" və İranin məşhur "Şiri-Xurşud" ordenləri ilə təltif edilib. Mirzə Cəfər London Kral Asiya Cəmiyyətinin həqiqi üzvü, 1835-ci ildən Peterburq Akademiyasının kafedra müdiri olub. 1843-cü ildə professor dərəcəsi alıb.

Əlimərdan bəyin atası Ələkbər bəy 1843-cü ildə Zaqafqaziya müsəlman suvari polkunda hərbi xidmətə başlayıb. 1845-ci ildə həmin polkun müsəlmanlardan ibarət taqımının komandiri olub. 1853-1856-cı illərdə Krım müharibəsində, o cümlədən Varşavada rus ordusu sıralarında xidmət edib. Poruçik rütbəsinə qədər yüksəlib.

Kiçik yaşlarından atasını, sonra isə anasını itirən Əlimərdan bəy nənəsinin himayəsində böyüyüb. İlk təhsilini müsəlman mədrəsəsində alıb, sonra Tiflis Birinci klassik gimnaziyasında oxuyub.

Sonra Peterburq Universitetinin Tarix-filologiya fakültəsinə qəbul olub. Birinci semestrdən sonra təhsilini Hüquq fakültəsində davam etdirib. Siyasi fəaliyyətə də orada oxuduğu ilk illərdən başlayıb. Əlimərdan bəy universiteti qurtaran ili uğurla dissertasiya müdafiə edir, hüquq elmləri namizədi adını alır. Lakin 1885-ci ildən mövcud olan "Xristian olmayanların universitetdə elmi vəzifə tutmağı yasaq edilməsi" nizamnaməsi onun ali məktəbdə dərs deməyinə imkan vermir. Ona ali məktəbdə qalmaq üçün dinini dəyişmək təklif edilir. Ə.Topçubaşov dinini dəşmək təklifindən imtina edir və Tiflisə qayıdıb, Dairə məhkəməsinin katibi, müstəntiq, hakim vəzifələrində çalışır.

## Əlimərdan bəy Topçubaşov Bakıda

1893-cü ildə böyük mütəfəkkir H.Zərdabinin qızı Pəri xanımla ailə quran Ə.Topçubaşov 1896-cı ildə Bakıya köçüb fəaliyyətini burada davam etdirir. Şəhər Dairə Məhkəməsinin vəkili kimi işə başlayan Əlimərdan bəy qısa zamanda şəhər əhalisi, ziyalılar arasında böyük nüfuz qazanır. 1897-ci ildə Həbib bəy Mahmudbəyov və Fərrux bəy Vəzirovla birgə Şəhər Dumasına seçilən ilk müsəlman ziyalılarından olurlar. 1898-ci ildə Topçubaşov H.Tağıyevin satın aldığı "Kaspi" qəzetinə baş redaktorluq edir. Bu vəzifədə 1907-ci ilə qədər çalışır. 1900-cü illərdə Topçubaşov artıq mətbuatdakı fəaliyyəti ilə yanaşı, ictimai-siyasi sahələrdə də fəallıq göstərirdi. 1901-ci il oktyabrın 29-u və noyabr ayının 18-də yeni qaydalar əsasında dörd il müddətinə Bakı Şəhər Dumasına keçirilən seçkilərdə buna görə böyük üstünlüklə qələbə qazanır.

## Diplomatik fəaliyyəti

Bu dövrdə Ə.Topçubaşov diplomatik işlə də məşğul olurdu. O, rus hökuməti Nazirlər Kabinetinin nümayəndələri ilə görüşüb danışıqlar aparır, bəzi vacib problemlərin həlli üçün ciddi çalışırdı. 17 bənddən ibarət "Müsəlmanların ehtiyacı haqqında ərzihal" ilk proqram xarakterli sənədi hazırlayaraq rus hökumətinin maliyyə nazirinə təqdim etmişdir. Əlimərdan bəy rus hökuməti qarşısında bir ana dilli qəzetinin çıxarılması haqqında vəsatət qaldırmışdır. Bu vəsatətdən aydın olur ki, nəzərdə tutulan qəzet "Azərbaycan" adlandırılmalı, orada Əlimərdan bəylə yanaşı, yaxın dostları, məsləkdaşları - Əhməd bəy Ağayev və Əli bəy Hüseynzadə də naşir olmalıdırlar. Uzun danışıqlardan sonra çar hökuməti "Azərbaycan" deyil, Topçubaşovun naşirlik hüququ ilə "Həyat" qəzetinin nəşrinə icazə verir. Beləliklə, 1905-ci il iyunun 7-də "Həyat" qəzetinin ilk nömrəsi çapdan çıxır. Bütün bunlar göstərir ki, Ə.Topçubaşov əsl məfkurə sahibi, xalq, vətən naminə canını fəda edənlərdən idi.

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan hökuməti elan edilərkən Ə.Topçubaşov qiyabi olaraq bu hökumətə daxil olur. Yenicə müstəqilliyini elan etmiş ADR üçün ilk növbədə beynəlxalq münasibətlərin qurulması və tənzimlənməsi önəmli məsələ idi. Osmanlı hökuməti ilə diplomatik əlaqələrin qurulması üçün avqustun 18-də Əlimərdan bəy fövqəladə səlahiyyətli nazir statusunda İstanbula yola düşür. 1918-ci il oktyabrın 2-də Berlin səfərindən geri dönən Osmanlı baş naziri Tələt Paşa Azərbaycan diplomatını qəbul edir. Baş nazirin beynəlxalq mənzərəyə dair anlatdığı arayışdan məlum olur ki, hələ nə Avstriya, Macarıstan, nə də Almaniya Azərbaycanın müstəqilliyini tanımaq fikrində deyil. Rusiyanın münasibəti isə təbii ki, bəlli idi. Bir gün sonra Əlimərdan bəy Topçubaşov hərbi nazir Ənvər Paşa ilə görüşdə Azərbaycan Ordusu üçün kadr hazırlığı, silah-sursat təchizatı kimi mühüm məsələləri müzakirə edir. Oktyabrın 6-da isə Azərbaycan hökuməti İstanbula fövqəladə səlahiyyətli nazir kimi ezam olunmuş Əlimərdan bəy Topçubaşovu xarici işlər naziri təyin edir.

1918-ci il dekabrın 7-də ilk Azərbaycan Parlamentinin birinci iclasını Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə açdı. Gərgin keçən müzakirələrdən sonra İstanbulda diplomatik missiyanı yerinə yetirən Əlimərdan bəy Topçubaşov milli parlamentin ilk sədri seçildi. Fəqət, Əlimərdan bəydən ötrü bir vəzifə vardı. O, Milli İstiqlal fədaisi idi. Onun Versal Sülh Konfransında Aərbaycan həqiqətini bəyan etməkdən ayrı amacı yox idi.

Konfransa az vaxt qalırdı. Qısa müddətdə Topçubaşov Türkiyə, Ukrayna İngiltərə, Rusiya, İtaliya Krallığı və ABŞ nümayəndələri ilə faydalı görüşlər keçirmişdi. Dekabrın 28-də Azərbaycan hökuməti Paris Sülh Konfransına yollanacaq nümayəndə heyətinin tərkibini təsdiqləmişdi. Topçubaşov sədr, Məhəmməd Həsən Hacınski onun müavini təyin edildi. Əhməd bəy Ağayev və Əkbər ağa Şeyxislamov heyət üzvü, Mir Yaqub Mehtiyev, Məmməd Məhərrəmov və "Azərbaycan" qəzetinin baş redaktoru Ceyhun Hacıbəyli isə məsləhətçilər qrupunda yer almışdılar. Sülh heyətinə Azərbaycan dövləti adından siyasi, iqtisadi və maliyyəyönümlü müqavilələr imzalamaq səlahiyyəti verilmişdi.

Yanvarın 6-da Əlimərdan bəy Amerika nümayəndəsi Heyklə, bir neçə gün sonra Hollandiya nümayəndəsi ilə görüşüb onlarda Azərbaycana qarşı maraq oyatsa da, ruslarla görüşü gərgin keçmişdi.

1919-cu il yanvarın 18-də Versal sarayında Paris Sülh Konfransının açılış mərasimi olur. Fəqət, Azərbaycan nümayəndə heyəti konfransa buraxılmır. Topçubaşov öz heyəti ilə ermənilərin yaratdıqları süni əngəllərin məngənəsində çarpışırkən, Ermənistan və İran nümayəndələri Azərbaycana qarşı ərazi iddialarını səsləndirirlər. Əlimərdan bəyin mütəmadi yazışmalarından sonra, nəhayət, martın 6-da Londondan cavab gəlir. Böyük Britaniya Azərbaycan nümayəndə heyətinin konfransda iştirakının əleyhinə olmadığını bildirir.

Martın 21-də Əlimərdan bəy Topçubaşovun imzası ilə konfransa müraciət göndərilir. Nəhayət, Azərbaycan nümayəndə heyəti Parisə çağırılır. Mayın 12-də Azərbaycan nümayəndə heyəti Versal Sülh Konfransında rəsmi fəaliyyətə başlayır.

Mayın 28-də günün ikinci yarısında ABŞ Prezidenti Vilson Azərbaycan nümayəndə heyətini qəbul edir. Görüşdə Vilsona kiçik xalqların öz taleyini həll etmək haqqında altı bənddən ibarət prinsipin müəllifi kimi yanaşıldığını anladıb Azərbaycanın müstəqilliyinin tanınılması xahiş edilir. Vilsonla görüş zamanı qərara alınır ki, vəziyyəti yerində öyrənmək üçün Qafqaza xüsusi missiya ilə Amerika nümayəndələri göndərilsin.

Bu arada gənc Azərbaycan Cümhuriyyəti Denikin və Kolçak təhlükəsi ilə üzbəüz qalmışdı. Antanta dövlətlərinin başçıları bəyanatlarında Omsk hökumətini bütün Rusiya hökuməti kimi tanıyacaqlarını bildirmişdilər. Bu xəbərlərdən əndişələnən Topçubaşov mayın 31-də Sülh Konfransının sədrinə və müttəfiq dövlətlərin baş nazirlərinə etiraz bəyanatı göndərir. Bəyanatda qeyd edilirdi ki, "Azərbaycan hökuməti öz ərazisini bolşeviklərdən təmizləmək üçün yarım il mübarizə aparmış, çoxlu qurban vermiş, maddi itkilərə məruz qalmışdır. Yüz ilə yaxın tərkibində olduğu Rusiya hökuməti Azərbaycan xalqına yad bir rejim idi və bu rejim xalqın taleyində çox ağır izlər qoymuşdur.

Rusiyada hansı hökumətin tanınmasından asılı olmayaraq, yalnız öz parlament və hökumətini tanıyan Azərbaycan Rusiyanın hüdudlarına daxil olmayacaqdır".

Əlimərdan bəy Topçubaşovun təşəbbüsü ilə yeni yaranmış digər respublikaların nümayəndələri də bu etiraza qoşuldular. İyunun 17-də Estoniya, Gürcüstan, Latviya, Şimali Qafqaz, Belarus və Ukrayna nümayəndələri adından imazalanan birgə etiraz notası ABŞ Prezidenti Vilsona təqdim olundu. Təəssüf ki, bəyanat gözlənilən effekti vermədi.

1920-ci il yanvarın 10-da Böyük Britaniyanın təşəbbüsü ilə Paris Sülh Konfransının sessiyası çağırıldı. Sessiyada Cənubi Qafqaz respublikalarının məsələsi müzakirə predmetinə çevrildi. İngiltərənin xarici işlər naziri Kerzon Azərbaycan və Gürcüstanın de-fakto tanınması təklifi ilə çıxış etdi. Beləliklə, 1920-ci il yanvarın 11-də Müttəfiqlərin Ali Şurası Kerzonun təklifi əsasında qərar qəbul etdi. Yanvarın 15-də Azərbaycan və Gürcüstan nümayəndələri Fransa Xarici İşlər Nazirliyinə dəvət olundular. Azərbaycanın de-fakto tanınması haqqında Paris Sülh Konfransının rəsmi qərarı Əlimərdan bəy Topçubaşova təqdim edildi.

Təəssüf ki, aprelin sonunda İtaliyada San-Remo şəhərində keçirilən konfransdan qayıdan nümayəndə heyəti Fransa mətbuatından məlum acı xəbəri aldı...

Azərbaycan adına mücadilə isə davam edirdi... 1923-cü ilin fevralından sonra Əlimərdan bəy Topçubaşov vizadan və diplomatik toxunulmazlıq statusundan məhrum edildi...

1934-cü il noyabrın 5-də saat 12 radələrində xalq və dövlət yolunda fədakarcasına çarpışan bu böyük şəxsiyyət əbədiyyət yolçuluğuna rəvan oldu. Əlmərdan bəy ömrünü Azərbaycanın müstəqilliyinə, onun dünyada müstəqil dövlət kimi tanınmasına həsr etmiş bir milli fədai idi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Cümhuriyyət qurucuları

## İstiqlaliyyət Bəyannaməsini imzalayan səkkiz deputatdan biri - Mustafa Mahmudov

O, pedaqoq, maarifçi idi. Ana dilinin qorunması və inkişafı, təhsilin ana dilində tədrisi uğrunda yorulmadan mübarizə aparanların sırasındaydı. Milli mədəniyyəti təbliğ edirdi. Onun bütün fəaliyyətinin, əməllərinin, arzu və niyyətinin mayəsində millətsevərliyi dayanırdı. Azərbaycan Xalq Cümhuriyyətinin Bəyannaməsini imzalayan 8 nəfərdən biri - Mustafa Mahmudovu millətinin istiqbalı uğrunda ölüm-dirim savaşına bu sevgi aparmışdı....



### Peşəsini çox sevən, qabaqcıl müəllim...

O, 1878-ci il yanvarın 31-də Bakı quberniyasının Göyçay qəzasının Kürdəmir kəndində dünyaya gəlib. İbtidai təhsilini Kürdəmir kənd məktəbində alıb. Göyçay qəza məktəbində oxuyub. Sonra təhsilini Qori şəhərində yerləşən Zaqafqaziya Müəllimlər Seminariyasında davam etdirib. 1899-cu ildə seminariyanın müsəlman şöbəsini bitirib. Təyinatı o zamanlar Yelizavetpol quberniyası Nuxa qəzasının ərazi bölgüsünə daxil edilmiş Vəndam kəndinə verilib. Ancaq Mustafa Mahmudova şəhər məktəbində çalışmaq nəsib olub.

Bakı Quberniyası və Dağıstan Vilayəti Xalq Məktəblər İdarəsində keçirilən qəbul imtahanlarının aparıcı komissiya üzvlərindən olan Həsən bəy Məlikov (Zərdabi) və Əlimərdan bəy Topçubaşov Mustafa Mahmudovun elmi və pedaqoji hazırlığını yüksək dəyərləndirib, onun təyinatının Bakıya dəyişdirilməsinə kömək ediblər. Beləliklə, Mustafa Mahmudov 675 manat illik əməkhaqqı ilə Bakıdakı 3-cü rus-tatar məktəbinə müəllim təyin edilib. O, 1904-cü il setyabrın 15-də öz xahişi ilə Sultan Məcid Qəniyevin rəhbərlik etdiyi 2-ci rus-tatar məktəbinə keçərək pedaqoji fəaliyyətini davam etdirib. Bu təhsil ocağında dərs alan Məhəmməd Əmin Rəsulzadə və başqa şagirdlərin savadlı, açıq fikirli gənclər kimi yetişməsində, dünyagörüşlərinin formalaşmasında, ölkənin ictimai-siyasi həyatında əhəmiyyətli yer tutmalarında məktəbin direktoru Sultan Məcid Qəniyev və Mustafa Mahmudov kimi savadlı, millətpərvər müəllimlərin mühüm rolu olub.

1903-cü ildə onun böyük qardaşı Kürdəmirdə dünyasını dəyişib. Mustafa Mahmudov müəllim məvacibi ilə qardaşının yetim qalmış üç övladını və özü, arvadı, qızı və onlarda qalan bacısı oğlundan ibarət dörd nəfərlik ailəsini dolandırmalı olub.

### II Dövlət Dumasının ən fəal deputatlarından biri...

Öz dövrünə görə mükəmməl təhsil almış M.Mahmudov çox sevdiyi pedaqoji işlə məşğul idi. Bəlkə də həyatı belə davam edəcəkdi. Amma xalqının, vətəninin müqəddəratının həll olunduğu illər idi. Vətənpərvər ziyalıların əksəriyyəti kimi, Mustafa Mahmudov da ictimai-siyasi hadisələrə seyrçi qalmır. O, 1907-ci il fevralın 6-da Dumaya üzv seçilir. Deputatlığı ilə əlaqədar iş yerindən ayrılır. Fətəli xan Xoyski, Xəlil bəy Xasməmmədov, Məhəmməd ağa Şahtaxtlı, Zeynal Zeynalovla bərabər, II Dövlət Dumasının üzvü kimi Peterburqa gedən 5 azərbaycanlı deputatdan biri olur. 1907-ci ilin 20 fevralında Rusiyada II Dövlət Duması fəaliyyətə başlayıb.

Rus dilində səlis danışan ən fəal türkdilli deputatlardan biri olan Mustafa Mahmudov II Dövlət Dumasının 9 şöbəsinin, 4 komissiyasının üzvü olub. Onun çıxışlarında irəli sürdüyü məsələlər ciddi müzakirələrlə nəticələnib. Xalq maarifi naziri tərəfindən təqdim olunan qanun layihəsinə Dumanın xalq təhsili üzrə komissiyasının üzvü kimi münasibət bildirən Mustafa Mahmudov müsəlman müəllimlərin problemlərinə diqqət çəkib. Pedaqoji fəaliyyət göstərmiş, vəziyyəti dərindən bilən deputat müsəlman müəllimlərin insan ləyaqətindən, xalq təhsili üzrə bu və ya digər vəzifəni tutmaq hüququndan məhrum edildiyini, xüsusi bir təbəqəyə ayrıldıqlarını, onların ana dilində danışmaq hüququnun olmadığını, buna görə də sıxışdırıldıqlarını nəzərə çatdırıb. O, xalq təhsili nazirini ana dilində təhsilə, müəllimlərin nüfuzunun yüksəldilməsinə qayğı göstərməyə səsləyib.

Mustafa Mahmudov II Dövlət Dumasının 13 mart 1907-ci il tarixli 9-cu iclasında - "Hərbi-səhra məhkəməsinin ləğvi haqqında" qanun layihəsinin müzakirəsində odövrkü bütün böyük Rusiyanı çox milyonlu xəstələri olan lazaretə, yəni kiçik hərbi xəstəxanaya bənzədib.

Mustafa Mahmudov əməkdaşlıq etdiyi "İrşad" qəzetində, Bakıda rus dilində nəşr olunan qəzetlərdə xeyriyyə tədbirləri və II Dövlət Dumasına keçirilən seçkilər barədə maraqlı yazılar dərc etdirib.

Çar II Nikolay 1907-ci il iyunun 3-də II Dövlət Dumasını buraxır. İyulun 14-də Mustafa Mahmudov yenidən 1-ci rus-tatar məktəbindəki işinə - direktor vəzifəsinə geri dönür. 1908-ci ilin sentyabrında o, bu vəzifədən çıxarılır. Araşdırıcılar bunu Mustafa Mahmudovun II Dövlət Dumasındakı cəsarətli çıxışları ilə əlaqələndirirlər.

Pedaqoji fəaliyyətindən uzaqlaşdırıldıqdan sonra o, müxtəlif yerlərdə çalışır. 1910-cu il avqustun 4-də yenidən öz sevimli peşəsinə qayıdır.

### Dövrünün siyasi çağırışlarına səs verən ziyalı

1917-ci ildə baş verən inqilabi hərəkat Romanovlar sülaləsinin üç yüz illik hakimiyyətinin süqutu ilə nəticələnir. İmperiyanın müstəmləkəsindən qurtulan ölkələrin qabaqcıl övladları dövlət müstəqilliyini təsdiq etmək, əbədiləşdirmək uğrunda mübarizələrini genişləndirirlər.

Tiflisdə 1918-ci ilin fevralında Zaqafqaziyadan seçilmiş deputatlar Zaqafqaziya Seymini yaradırlar. Azərbaycanı Seymdə 44 deputatdan ibarət dörd müsəlman partiyası - "Müsavat" və ona qoşulan demokratik bitərəflər qrupu, "Müsəlman sosialist bloku", "Rusiyada Müsəlmanlıq" ("İttihad"), "Hümmət" (menşevik) partiyaları təmsil edir.

Mustafa Mahmudov 1918-ci il fevralın 9-da Müəllimlər Komissiyasının sədrinə məktubunda Zaqafqaziya Seyminə üzv seçilməsi xəbərini verir. O, Seymin fəaliyyətində iştirak edən ən fəal müsəlman deputatlardan olur.

Zaqafqaziya Seyminin son iclası 26 may 1918-ci ildə keçirilir. Mayın 27-də yaranmış siyasi vəziyyəti müzakirə etmək məqsədilə keçmiş Seymin Müsəlman fraksiyası tərəfindən fövqəladə iclas çağırılır. İclasda Zaqafqaziya Seyminin müsəlman fraksiyasının üzvləri Azərbaycanın istiqlaliyyətini elan edərək müstəqil dövlət yaratmaq, Azərbaycanın idarə edilməsini öz üzərlərinə götürmək, Müvəqqəti Milli Şura yaratmaq qərarını verirlər. Mayın 28-də Tiflisdə keçmiş Qafqaz Canişininin sarayında Həsən bəy Ağayevin sədrliyi, Mustafa Mahmudovun katibliyi ilə Azərbaycan Milli Şurasının ilk iclası olub. Tarixi iclasda Azərbaycanın istiqlalının elanı, Azərbaycan Cümhuriyyətinin yaradılması haqqında qərar qəbul edilir. Səsvermədə iştirak edən 24 nəfərdən 22-si müstəqilliyin lehinə səs verir. Sultan Məcid Qənizadə və Cəfər Axundov bitərəf qalırlar.

İstiqlal Bəyannaməsini Azərbaycan Milli Şurasının üzvlərindən Həsən bəy Agayev, Fətəli Xan Xoyski, Nəsib bəy Yusifbəyli, Camo bəy Hacınski, Şəfi bəy Rüstəmbəyli, Nəriman bəy Nərimanbəyov, Cavad Məlik-Yeqanov, Mustafa Mahmudov imzalayıblar.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulması Mustafa Mahmudovun illər boyu uğrunda mabarizə apardığı arzuların reallığa çevrilməsi idi. O, Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində üzvü olduğu Müsavat Partiyasını təmsil edib. Parlamentdə fəallığına görə, Azərbaycan Kənd Təsərrüfatı Komissiyasına üzv seçilib. Qərar və qanunların qəbul edilməsində iştirak edib.

Bolşeviklərin Azərbaycan Xalq Cümhuriyyətini süquta uğradaraq hakimiyyəti ələ keçirməsi ilə Mustafa Mahmudovun arzuları yarımçıq qalıb. Elə günlər gəlib ki, vətəndə qalmaq da, tərk edib getmək də mənəvi əzaba çevrilib. Mustafa Mahmudov nə qədər ağır olsa da, vətəndə qalmağı seçib.

Azərbaycan Xalq Cümhuriyyətinin İstiqlal Bəyannaməsini imzalayanlardan biri, Müsavat Partiyasının üzvü olmuş Mustafa Mahmudov sovet hakimiyyətinin nəzərində günahkar idi və mütləq cəzalanmalıydı. Odur ki, repressiya siyasətinə qurbanlar seçilərkən o da "unudulmadı". 1937-ci il noyabrın 23-də həbs edildi. Həmin il dekabrın 20-də güllələndi.

Mustafa Mahmudovun yaxın qohumlarının, ailə üzvlərinin çoxu repressiyaya məruz qalıb. Onun üç övladından biri - yeganə oğlu hələ kiçik yaşlarında vəfat edib. Qızları Sara və Səfurə atasız qalıb. Onlar repessiya olunmuş atanın övladları kimi yaşamağın əzab-əziyyətlərinə qatlaşıblar...

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Malayziyada Azərbaycanın Müstəqillik Günü təntənəli şəkildə qeyd olunub

Azərbaycanın Malayziyadakı səfirliyi tərəfindən 28 May Müstəqillik Günü münasibətilə rəsmi qəbul keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Malayziya hökuməti tərəfindən fəxri qonaq qismində bu ölkənin parlamentinin yuxarı palatasının - Senatının üzvü, milli birlik nazirinin müavini, senator Van Ahmad Fayhsal, həmçinin səfirliyin iqamətgahının yerləşdiyi Selanqor ştatının şahzadəsi Süleyman ibni Sultan Abdual Aziz Şah, diplomatik missiya rəhbərləri, Malayziya Xarici İşlər Nazirliyinin rəhbər şəxsləri, mətbuat işçiləri, çoxsaylı QHT və biznes qurumlarının nümayəndələri, elm və təhsil ocaqlarının əməkdaşları, eləcə də Azərbaycan icmasının təmsilçiləri iştirak ediblər.

Tədbirin əvvəlində nazir müavini, senator V.A.Fayhsal və Azərbaycanın Malayziyadakı səfiri İrfan Davudov xalqlarımıza tərəqqi və firavanlıq arzulayıb, iki ölkənin dövlət başçılarına fəaliyyətlərində uğurlar diləyiblər.

Sonra səfir İ.Davudov Azərbaycanın bu əlamətdar günüylə bağlı çıxış edib. Diplomat ölkəmizin şərəfli müstəqillik tarixindən bəhs edərək, xalqımızın 1918-ci ildə müsəlman dünyasında ilk parlamentli respublika qurduğunu, həmin dövr üçün bu addımın olduqca mütərəqqi nailiyyət hesab edildiyini diqqətə çatdırıb. Bildirib ki, növbəti illərdə tarixin ağır sınaqlarına baxmayaraq, Azərbaycan xalqı milli özünəməxsusluğunu, mənsubiyyətini böyük mübarizə hesabına qoruya bilib, 1991-ci ildə öz dövlətçilik irsini yenidən canlandıraraq müstəqilliyini bərpa edib. Lakin müstəqilliyin ilk illərinin kifayət qədər çətin, mürəkkəb və xaotik mərhələdən keçdiyi xüsusi vurğulanıb.

İ.Davudov 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti və həyata keçirdiyi hərtərəfli islahatlar, əsasını qoyduğu neft strategiyası nəticəsində Azərbaycanın dövlətçilik təməlinin iqtisadi əsaslarının möhkəmləndirildiyini, 2003-cü ildən sonra Azərbaycan Prezidenti İlham Əliyevin strateji zəkası nəticəsində ölkəmizin dinamik inkişaf yolunda uğurla irəliləməyə başladığını və regionda lider dövlətə çevrildiyini diqqətə çatdırıb.

Azərbaycan diplomatı bildirib ki, əldə olunan nailiyyətlərin zirvə nöqtəsi düşmən tapdağı altındakı torpaqlarımızın 2020-ci ildə Vətən müharibəsi nəticəsində işğaldan azad edilməsi olub. İ.Davudov bu gün Azərbaycanın regionda və beynəlxalq müstəvidə sülhə, təhlükəsizliyə, dövlətlərin ərazi bütövlüyünə və suveren hüquqlarına ən qətiyyətli və güclü dəstək verən ölkələrdən biri olduğunu vurğulayıb.

Tədbir bədii hissə ilə davam edib. Kuala Lumpur şəhər bələdiyyəsinin tanınmış simfonik orkestrinin Azərbaycanın klassik musiqisindən səsləndirdiyi nümunələr böyük rəğbətlə qarşılanıb. Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin "Arazbarı" simfonik muğamı isə xüsusilə alqışlanıb. Malayziyalı ifaçılar tədbir boyunca görkəmli Azərbaycan bəstəkarları Qara Qarayevin, Cahangir Hacıyevin və Tofiq Quliyevin bir-birindən gözəl əsərlərini səsləndiriblər.

Sonda qonaqlara ziyafət verilib.

# ABŞ-ın Sanni Ayls Biç şəhərində 2022-ci il 28 may tarixi "Azərbaycanın Müstəqillik Günü" elan olunub



ABŞ-ın Florida ştatındakı Sanni Ayls Biç (Sunny İsles Beach) şəhər meriyasında keçirilən toplantıda 2022-ci il 28 may tarixi "Azərbaycanın Müstəqillik Günü" elan edilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən Florida-Azərbaycan Cəmiyyətinin rəhbəri Esmira Bayramova 1918-ci il mayın 28-də müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycanda demokratik, hüquqi və dünyəvi dövlətin qurulduğunu diqqətə çatdırıb. O, Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixi, həyata keçirdiyi demokratik islahatlar, o cümlədən qadınlara ilk dəfə səsvermə hüququnun verilməsi barədə ətraflı danışıb. Qeyd edib ki, xalqımız cümhuriyyət qurucularının miras qoyduqları irsi davam etdirərək çətin mübarizə yolu keçib və 1991-ci ilin payızında ölkəmizin dövlət müstəqilliyinin bərpasına nail olub.

Sonra şəhər meriyasının qəbul etdiyi bəyannamə Esmira Bayramovaya təqdim olunub.

# Əlcəzair mətbuatında Azərbaycanın Müstəqillik Gününə həsr olunmuş məqalə dərc olunub

Əlcəzairin "Əl Şuruq", "Əl Hivar" qəzetlərində və Afrika qitəsinin geniş oxucu kütləsinə malik olan "AfrikEconomy" nəşrində ölkəmizin Əlcəzairdəki müvəqqəti işlər vəkili Rəfail Bağırovun "Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104-cü ildönümü" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Xalq Cümhuriyyətinin tarixindən ətraflı bəhs edilib. Müəllif diqqətə çatdırıb ki, müsəlman Şərqində ilk demokratik cümhuriyyət qısa müddətdə böyük islahatlar həyata keçirib, ilk parlament, nizami ordu yaradıb, Azərbaycan tarixinin şanlı səhifələrini yazıb.

Məqalədə qeyd olunub ki, xalqımızın azadlıq uğrunda mübarizəsi 70 ilə yaxın bir müddətdən sonra Azərbaycanın yenidən öz müstəqilliyini bərpa etməsi ilə nəticələnib, Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti nəticəsində dövlətçiliyimiz qorunub saxlanılıb və möhkəmlənib. Xalqımızın Ümummilli Liderinin qurduğu müasir Azərbaycan dövləti qısa zamanda beynəlxalq aləmdə böyük nüfuz qazanıb, onun iqtisadi qüdrəti artıb və regionun lider ölkəsinə çevrilib. Bu siyasi kursu davam etdirən Prezident İlham Əliyev Azərbaycanın daha güclü dövlətə çevrilməsini, nəhəng transmilli enerji, kommunikasiya layihələrinin həyata keçirilməsini təmin edib. Artıq ölkəmiz bir çox nüfuzlu beynəlxalq təşkilatlarda söz sahibi kimi çıxış edir, hazırda Qoşulmama Hərəkatına sədrlik edir. İslam Əməkdaşlıq Təşkilatının(İƏT) fəaliyyətinə də töhfələr verən Azərbaycan, eyni zamanda, ərəb və İslam dünyası, Afrika ölkələri, o cümlədən Əlcəzairlə sıx əməkdaşlıq edir.

Müəllif vurğulayıb ki, Ulu Öndər Heydər Əliyevin vəsiyyətini yerinə yetirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 ilə yaxın Ermənistanın işğalı altında olan Azərbaycan torpaqları Ordumuz tərəfindən azad edilib, ölkəmizin ərazi bütövlüyü təmin olunub. Bu gün azadlığına qovuşmuş qədim Qarabağ diyarında quruculuq işləri aparılır, ermənilərin dağıtdığı və məhv etdiyi infrastruktur, həmçinin tarixi abidələr və məscidlər bərpa edilir.

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Müstəqillik Günü münasibətilə təbrik edir, hər bir ailəyə sevinc, səadət dolu günlər arzulayır

28 MAY

Azpetrol şirkəti Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edir!



AZPETROL

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyası 2022-ci ilin daimi seçicilər siyahısının tərtib edilməsi və dəqiqləşdirilməsinə yekun vurub

Seçki qanunvericiliyinin tələblərinə əsasən 2022-ci il yanvar ayının əvvəllərindən etibarən ölkə üzrə vahid seçicilər siyahısının dəqiqləşdirilməsinə start verilib, ardıcıl, sistemli və intensiv şəkildə aparılan genişmiqyaslı və çox əhatəli prosesdən sonra cari il üçün seçici siyahılarının hazırlanması başa çatıb.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Seçki Məcəlləsinin tələblərinə əsasən, hər ilin əvvəlindən etibarən daimi seçici siyahıları müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib olunduqdan sonra Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edilməlidir. Bununla əlaqədar müvafiq iş aparıldıqdan sonra həmin siyahılar mayın 30-dan gec olmayaraq müvafiq məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunmalı və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək ictimailəşdirilməlidir. 2022-ci ilin daimi seçici siyahıları məhz seçki qanunvericiliyinin yuxarıda sözügedən tələblərinə uyğun şəkildə tərtib edilib dəqiqləşdirildikdən sonra prosesə yekun vurulub.

Mayın 27-də MSK üzvləri media nümayəndələrinin də iştirakı ilə komissiyanın inzibati binasında vahid seçicilər siyahısının cari il üzrə yenidən tərtib edilmiş variantı və saxlanma şəraiti ilə yaxından tanış olublar. Seçici siyahılarının tərtib edilərək dəqiqləşdirilməsində dövlət avtomatlaşdırılmış informasiya sisteminin yaratdığı imkanlar, daha da təkmilləşdirilən proqram təminatları barədə komissiya üzvləri və media təmsilçiləri ətraflı məlumatlandırılıb.

Təqdimat mərasiminin ardınca media nümayəndələrinin də iştirakı ilə MSK-nın iclası keçirilib. Məzahir Pənahovun sədrlik etdiyi iclasda 2022-ci ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, dəqiqləşdirilməsi, təsdiqi və ictimailəşdirilməsi məsələləri müzakirə olunub. İclasda ilin əvvəlindən mayın sonunadək gerçəkləşdirilən irimiqyaslı fəaliyyət barədə geniş məlumat verilib. Sədr aparılan prosesə yaxından köməklik göstərən Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, yerli icra hakimiyyəti orqanları və digər aidiyyəti qurumlara təşəkkür edib.

İclasda bildirilib ki, müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən daimi seçici siyahıları tərtib olunarkən bir sıra seçki məntəqələrinin ərazisində seçici sayının Seçki Məcəlləsi ilə müəyyən edilmiş saydan çox olması müəyyən edilmişdir. Bu səbəbdən də komissiya seçici sayı qanunvericiliklə müəyyənləşdirilmiş saydan çox olan seçki məntəqələrinin ərazisində təxirə salınmadan əlavə seçki məntəqələrinin yaradılmasını müvafiq dairə seçki komissiyalarına həvalə edib.

Komissiyanın iclasında həmçinin 2022-ci ilin daimi seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək siyahıların məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunması üçün müvafiq dairə seçki komissiyalarına göndərilməsi, Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısının dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək, Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiq olunduqdan sonra komissiyanın internet saytında yerləşdirilməklə ictimailəşdirilməsi qərara alınıb.

Qeyd edək ki, dəqiqləşdirmə prosesinin sonunda ölkə üzrə vahid seçicilər siyahısına 6 401 955 seçici daxil edilib, onların 47,18 faizi kişilər, 52,82 faizi isə qadınlardır.

İclasda MSK-nın bəzi normativ xarakterli aktlarına dəyişikliklər olunması, habelə bir sıra seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilməsi barədə də qərar qəbul olunub.

### Qərar № 2/7

**Azərbaycan Respublikasında 2022-ci ilin daimi seçici siyahılarının yenidən tərtib edilməsi, dəqiqləşdirilməsi, təsdiq olunması və ictimailəşdirilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) tələblərinə uyğun olaraq hər ilin əvvəlindən başlayaraq daimi seçici siyahıları müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının, hərbi hissə komandirlərinin aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən tərtib edildikdən sonra Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilməli, bununla əlaqədar müvafiq iş aparıldıqdan sonra həmin siyahılar may ayının 30-dan gec olmayaraq müvafiq məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq olunmalı və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək ictimailəşdirilməlidir.

Cari ilin seçici siyahılarının tərtib edilməsi işi yuxarıda göstərilən qaydada aparılaraq yekunlaşmış və onların aşağı seçki komissiyaları tərəfindən təsdiq edilməsi və dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilməklə ictimailəşmə mərhələsi başlanmışdır.

Müvafiq icra hakimiyyəti orqanları və bələdiyyə qurumu başçılarının aktiv seçki hüququna malik olan seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə və dairə seçki komissiyaları tərəfindən daimi seçici siyahıları tərtib edilərkən bir sıra seçki məntəqələri ərazisində seçici sayının Seçki Məcəlləsinin 35.3.1-ci maddəsi ilə müəyyən edilmiş saydan çox olması müəyyən edilmişdir. Ona görə də həmin məntəqələrin daxil olduğu seçki dairələrində Seçki Məcəlləsinin 35.1-ci və 35.2-ci maddələrinə uyğun olaraq əlavə seçki məntəqələrinin yaradılması zərurəti yaranmışdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Seçki Məcəlləsinin 19.14-cü, 28.2-ci, 28.4-cü, 35.1-ci, 35.2-ci, 35.3.1-ci, 45.2-ci, 46.1-ci və 46.12-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. Azərbaycan Respublikasında 2022-ci ilin daimi seçici siyahılarının tərtib edilməsi və dəqiqləşdirilməsi işi başa çatmış hesab edilərək siyahılar məntəqə və dairə seçki komissiyaları tərəfindən təsdiq edilməsi üçün müvafiq dairə seçki komissiyalarına göndərilsin.

2. Tərtib edilmiş seçici siyahılarının qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə təsdiq edilməsi işinin təşkili müvafiq dairə seçki komissiyalarına həvalə edilsin.

3. Seçici sayı Seçki Məcəlləsi ilə müəyyən edilmiş saydan çox olan seçki məntəqələri ərazisində təxirə salınmadan əlavə seçki məntəqələri yaradılması müvafiq dairə seçki komissiyalarına həvalə edilsin.

4. Azərbaycan Respublikası üzrə seçicilərin daimi siyahısı dövlət avtomatlaşdırılmış informasiya sistemi vasitəsilə tərtib edilərək Seçki Məcəlləsinin tələbləri nəzərə alınmaqla təsdiq edildikdən sonra Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməklə ictimailəşdirilsin.

5. Qərarın icrası Mərkəzi Seçki Komissiyasının Katibliyinə və müvafiq dairə seçki komissiyalarına həvalə edilsin.

6. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*27.05.2022*

### Qərar № 2/6

**Mərkəzi Seçki Komissiyasının 17 mart 2022-ci il tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 17 mart 2022-ci il tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*27.05.2022*

### Qərar № 2/8

**Mərkəzi Seçki Komissiyasının bəzi normativ xarakterli aktlarına dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) qüvvədə olan "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında Təlimat"ının 2.3-cü bəndini, "Bələdiyyə seçkilərinin hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında Təlimat"ının 12-ci hissəsini, "Referendumun hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki (referendum) komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında Təlimat"ının 10-cu hissəsini və "Azərbaycan Respublikasının Prezidenti seçkilərinin hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında Təlimat"ının 3.3-cü bəndini "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi" barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarına uyğunlaşdırmaq məqsədilə həmin struktur elementlərə dəyişiklik edilərək adıçəkilən təlimatlara əlavələr yeni redaksiyada təsdiq olunmalıdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 75.2-ci, 78.2-ci, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. Mərkəzi Seçki Komissiyasının 2005-ci il 8 iyul tarixli 15/52 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.3-cü bənddə "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 30 may 2006-cı il tarixli İ-51 saylı əmri ilə təsdiq edilmiş idarələrin xərclər smetasının icrası haqqında 2 nömrəli hesabat formasına uyğun tərtib olunur" sözləri "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarına uyğun tərtib olunur (Təlimata əlavə)" sözləri ilə əvəz edilsin;

1.2. Həmin Təlimata əlavə yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

2. Mərkəzi Seçki Komissiyasının 2006-cı il 24 iyun tarixli 30/122 saylı Qərarı ilə təsdiq edilmiş "Bələdiyyə seçkilərinin hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

2.1. 12-ci hissədə "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 2006-cı il 30 may tarixli İ-51 saylı əmri ilə təsdiq edilmiş idarələrin xərclər smetasının icrası haqqında 2 nömrəli hesabat formasına" sözləri "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarına" sözləri ilə əvəz edilsin;

2.2. Həmin Təlimata əlavə yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

3. Mərkəzi Seçki Komissiyasının 2008-ci il 30 dekabr tarixli 31/141-4 saylı Qərarı ilə təsdiq edilmiş "Referendumun hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki (referendum) komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

3.1. 10-cu hissədə "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş idarələrin xərclər smetasının icrası haqqında 2 nömrəli hesabat formasına uyğun tərtib olunur" sözləri "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarına uyğun tərtib olunur (Təlimata 1 saylı əlavə)" sözləri ilə əvəz edilsin;

3.2. Həmin Təlimata 1 saylı əlavə yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

4. Mərkəzi Seçki Komissiyasının 2013-cü il 18 iyun tarixli 6/40 saylı Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Prezidenti seçkilərinin hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında Təlimat"da aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.3-cü bənddə "Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin 15 iyul 1998-ci il tarixli İ-62 saylı əmri ilə təsdiq edilmiş idarələrin xərclər smetasının icrası haqqında 2 nömrəli hesabat formasına uyğun tərtib olunur" sözləri "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarına uyğun tərtib olunur (Təlimata 1 saylı əlavə)" sözləri ilə əvəz edilsin;

4.2. Həmin Təlimata 1 saylı əlavə yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

5. Mərkəzi Seçki Komissiyası öz səlahiyyətləri daxilində bu Qərarın rəsmi dərc edilməsi və qüvvəyə minməsi ilə bağlı qanunvericilikdə nəzərdə tutulmuş tədbirlərin görülməsini təmin etsin.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*27.05.2022*

### Qərar № 2/9

**Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı**

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Mahmud Balaqardaş oğlu Məmmədzadə 13 saylı Xəzər - Pirallahı, Ramil Saleh oğlu Cəfərov 59 saylı Salyan, Araz Tofiq oğlu Əhmədov 61 saylı Neftçala, Şakir Əliş oğlu Əliyev 93 saylı Bərdə şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Elvin Təbiət oğlu Qasımzadə 13 saylı Xəzər - Pirallahı, Ruziyyə Rafael qızı Vəliyeva 39 saylı Kəpəz birinci (Gəncə), Xeyrulla Eldar oğlu Quliyev 59 saylı Salyan, Emin Sabir oğlu Lətifov 73 saylı Lənkəran şəhər, Əsgərxan İsmayıl oğlu Həsənov 90 saylı Ağdaş seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*27.05.2022*

Coca-Cola
şirkəti Azərbaycan xalqını
28 May - Müstəqillik Günü
münasibətilə
təbrik edir,
ruzi-bərəkət və
xoş günlər arzulayır
Bayramınız mübarək!

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ
Azərbaycan xalqını
28 May - Müstəqillik Günü
münasibətilə təbrik edir, bolluq,
firavanlıq və işıqlı gələcək arzulayır




# "Azercell"in baş sponsorluğu ilə "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya festivalı keçirilir

## Lider operatorun "Rəqəmsal Yaşam Studiyası"nda ziyarətçiləri əyləncəli proqram və bol hədiyyələr gözləyir





Azərbaycanda ilk dəfə olaraq Türkiyə Teknoloji Takımı Vakfı (T3 Vakfı), Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Türkiyə Respublikası Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı və "Azercell Telekom" MMC-nin baş sponsorluğu ilə "TEKNOFEST" Aerokosmik və Texnologiya festivalı keçirilir. Bu möhtəşəm tədbirdə "Azercell", həmçinin xüsusi "Rəqəmsal Yaşam Studiyası" konsepsiyası ilə iştirak edir.

"Azercell" "TEKNOFEST" ziyarətçilərinə onları maraqlandıran və texnoloji tanış edən həllər, məhsul və yeniliklər təqdim edir. Şirkət "Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədini əsas tutaraq "TEKNOFEST Azərbaycan" festivalındakı stendində həyatın müxtəlif sahələrində internetin rolunu əks etdirmək üçün öz "Rəqəmsal




Yaşam Studiyası"nda "ağıllı şəhər" konsepsiyası, elektron mütaliə, əyləncə, sənət və digər mövzularda innovativ həllərə xüsusi yer verib. Əlavə olaraq, şirkətin stendində yer alan "Azercell Life və Azercell Akademiyası" guşəsi gənclərin təhsil və inkişafına imkan yaradan fərqli proqramlar haqqında ziyarətçiləri məlumatlandırır.

"TEKNOFEST Azərbaycan" özündə rəqəmsal məhsullar və xidmətlər sərgisi, texnologiya sahəsində müxtəlif yarışma və əyləncəli proqramları təqdim edir. Festival çərçivəsində 8 texnoloji müsabiqə və 3 beynəlxalq tədbirin keçirilməsi gözlənilir.

Sərgi pavilyonlarında Azərbaycan və Türkiyənin dövlət və özəl qurumlarının innovativ həllər və layihələri nümayiş olunmaqdadır. 2018-ci ildən etibarən Türkiyədə keçirilən ən böyük aviasiya, kosmos və texnologiya festivalının məqsədi gənclərə, tələbələrə, məktəblilərə, startaplara və sahibkarlara geniş fürsətlər yaratmaqdan, onların bilik və bacarıqlarının üzə çıxarılmasına yardımçı olmaqdan ibarətdir.

# Mənəviyyat terrorçuları

## Yutuba transformasiya olunan "reket media"ya qarşı ciddi tədbir görülməlidir




Şərəfli tarixi keçmişi olan Azərbaycan mətbuatı bu gün yeni inkişaf dövrünü yaşayır. Ölkədə söz, mətbuat, özünüifadə azadlığının təmin edilməsi istiqamətində bütün şərait yaradılıb və hazırda çoxsaylı çap, internet mediasının sərbəst fəaliyyət göstərməsi bunun əyani təzahürüdür. Hazırda hər hansı bir media qurumunun, həmçinin xəbər portallarının yaradılması üçün heç bir məhdudiyyət tətbiq edilmir. Bundan əlavə, ölkədə internetdən, sosial şəbəkələrdən geniş istifadə etmək üçün lazımi imkanlar yaradılıb. İnsanlar sosial şəbəkələrdə öz fikir və rəylərini rahat şəkildə ifadə edə bilirlər.

Amma təəssüflər olsun ki, bu imkanlardan sui-istifadə edənlərin sayı az deyil. Bəziləri söz, mətbuat, özünüifadə azadlığından çirkin məqsədləri üçün istifadə etməyə çalışır, şər-böhtandan, şantaj etməkdən çəkinmir, bu vasitə ilə pul qazanmağa can atır. Başqa sözlə, "reket media" ilə məşğul olanlar şantaja əl atmaqla yanaşı, həm də böyük ənənələri olan Azərbaycan mətbuatının adına ləkə gətirirlər.

Son zamanlar jurnalistikadan xəbəri olmayan bəzi şəxslər internetin yaratdığı imkanlardan istifadə edərək özlərinə müxtəlif adda "TV kanallar" yaradıb "qazanc yeri" tapıblar. Yəni "reket media" indi yeni platformaya - yutuba transformasiya olunub və bu seqmentdə jurnalistikaya heç bir aidiyyəti olmayan kanallar sürətlə artmaqdadır.

Düzdür, müasir informasiya texnalogiyalarının sürətlə inkişaf etdiyi dövrdə internet TV kanalların sayının artması heç də pis tendensiya deyil. Yutuba da saysız-hesabsız- bəzən normal, bəzən də anormal informasiyaların yayıldığını və paylaşıldığını diqqətə alsaq, oturuşmuş xəbər agentliklərinin və ciddiliyinə şübhə edilməyən portalların internet üzərindən yayım həyata keçirmələri tamamilə təbiidir. Amma 2-3 nəfərlə "TV kanal" açıb müxtəlif məqsədlərə xidmət edən informasiyaları, videomaterialları yayımlayanların "fəaliyyəti" narahatçılıq doğurmaya bilməz. Təbii ki, bu kanalları yaratmaqda məqsəd jurnalistika ilə məşğul olmaq yox, insanları şərləmək, böhtan atmaq, şantaj etməklə pul qazanmaqdır.

Reket jurnalistikaya qarşı müəyyən mübarizə tədbirlərinin həyata keçirilməsinə baxmayaraq, görünən odur ki, bu şəbəkə hələ də mövcuddur və hazırda internet medianın imkanlarından "bəhrələnməkdədir". Bəzi kanal rəhbərlərinin bundan istifadə edərək müxtəlif strukturlardan, o cümlədən rayon icra hakimiyyətləri başçılarından, iş adamlarından külli-miqdarda vəsait almalarına dair çoxsaylı faktlar da bunu bir daha təsdiqləyir.

Elə bu günlərdə belə kanallardan birinin şantaj yolu ilə bir rayonun icra başçısından, mebel fabrikinin rəhbərindən böyük məbləğdə pul alması faktı da deyilənlərin sübutudur. Araşdırmaların nəticəsində bəlli olub ki, həmin şəxs insanları şərləməklə, hədələməklə əldə etdiyi "qazanc"la hətta özünə Türkiyədə mənzil alıb və yeni biznes qurub.

Hətta həmin kanallara rəhbərlik edən bəzi şəxslərin şəxsi həyatında ciddi əxlaqi problemlərin olması, bununla bağlı əsaslı məlumatların mövcudluğu onu deməyə əsas verir ki, belələrinin efirə çıxıb qeyrət, namus, əxlaq dərsi keçməsi, kimlərisə ittiham etməsi, sözün əsl mənasında, ikrah doğurur. Amma onu da etiraf etməliyik ki, belə şəxslər barədə ortada saysız-hesabsız faktlar olmasına rəğmən hüquq-mühafizə orqanlarının onların barəsində heç bir ölçü götürməməsi müəyyən suallar yaradır.

Bir vaxtlar cəmiyyət reket, dələduz, şantajçı və böhtançıların əlindən təngə gəldiyi halda, bu gün azad internet üzərində qorxulu oyunlar oynayan "reket media" yaranıb. Əlbəttə ki, vaxtında tədbir görülməsə, bunun daha ciddi fəsadlara yol açacağı bəllidir. Şantaj, böhtan kampaniyası azmış kimi, həmin kanallar indi də "söyüş müxalifətini" ölkənin informasiya məkanına daşımağa başlayıb. Kanalın abunəçilərinin sayını artırmaq, izləyici toplamaq üçün kanal "söyüş müxalifəti" üçün platformaya çevrilir. Kim nə istəyir danışır, kimi istəyir tənqid və təhqir edir və efirdə ən nalayiq ifadələr işlədir.

Əlbəttə ki, bu yola əl atanların qazanc məqsədilə hətta antiazərbaycançı şəbəkə ilə iş birliyinə getməsi də qaçılmazdır. Belə olan halda isə Azərbaycanı sevməyən xarici dairələr həmin kanallar vasitəsilə ölkəmizə qarşı müxtəlif kampaniyalar apara bilərlər. Hətta erməni lobbisinin maliyyə dəstəyi ilə "qidalanan" bəzi qüvvələr təxribatçı məlumatlarla gündəmin dəyişdirilməsinə cəhdlər edə, aranı qarışdırmağa çalışarlar. Yəni istənilən yolla qazanc əldə etmək üçün TV kanal yaradan şəxs Vətəni də pula satmağa hazır ola bilər. Ona görə də hüquq-mühafizə orqanlarının məhz belə şəxslərə qarşı vaxtında ciddi tədbir görmələri çox vacib məsələlərdən biridir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# "ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti
## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT 31.12.2021-Cİ İL TARİXİNƏ

*(Azərbaycan manatı ilə)*

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Banklardakı nağd pul vəsaitləri | 1,118,952 | 123,286 |
| Əsas brokerlərdən alınacaq vəsaitlər | 30,669 | 50,378 |
| İnvestisiya qiymətli kağızları | 14,410,588 | 11,555 |
| Alınacaq komissiya haqları | 12,026 | - |
| Əmlak və avadanlıqlar | 3,341 | - |
| Qeyri-maddi aktivlər | 62,750 | 62,750 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | - | 9,501 |
| Digər aktivlər | 27,523 | 4,124 |
| **CƏMİ AKTİVLƏR** | **15,665,849** | **261,594** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | |
| ÖHDƏLİKLƏR: | | |
| Müştərilərə ödəniləcək vəsaitlər | 560,153 | - |
| Repo müqavilələri üzrə borc alınmış vəsaitlər | 11,267,430 | - |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 119,181 | - |
| Vergi öhdəlikləri | - | 255 |
| Digər öhdəliklər | 25,874 | 52 |
| **Cəmi öhdəliklər** | **11,972,638** | **307** |
| KAPİTAL: | | |
| Səhmdar kapitalı | 3,000,000 | 300,000 |
| Bölüşdürülməmiş mənfəət/(hesablanmış kəsir) | 174,582 | (38,713) |
| İnvestisiya QK üzrə realizasiya olunmamış xalis gəlirlər | 518,629 | - |
| **Cəmi kapital** | **3,693,211** | **261,287** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **15,665,849** | **261,594** |

**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT**
**31.12.2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ** *(Azərbaycan manatı ilə)*

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| Effektiv faiz dərəcəsindən istifadə etməklə hesablanmış faiz gəliri | 645,745 | - |
| Repo müqavilələri üzrə borc alınmış vəsaitlər üzrə faiz xərci | (257,504) | - |
| **Xalis faiz gəliri** | **388,241** | **-** |
| Qiymətli kağızlarla bağlı əməliyyatlar üzrə xalis gəlir | 135,796 | - |
| Xalis haqq və komissiya gəliri | 86,128 | 235 |
| Ticarət aktivləri üzrə zərər | (4,730) | - |
| Digər gəlirlər | 19,920 | - |
| **Qeyri-faiz gəliri** | **237,114** | **235** |
| İşçi heyəti ilə bağlı xərclər | (251,266) | (42,603) |
| Ümumi və inzibati xərclər | (72,275) | (5,770) |
| Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərəri xərci | (34,265) | - |
| Xarici valyuta əməliyyatları üzrə gəlir, xalis | (3) | (76) |
| **Qeyri-faiz xərci** | **(357,809)** | **(48,449)** |
| **Mənfəət vergisindən əvvəl mənfəət/(zərər)** | **267,546** | **(48,214)** |
| Mənfəət vergisi üzrə (xərc)/mənfəət | (54,251) | 9,501 |
| **İl üzrə xalis mənfəət/(zərər)** | **213,295** | **(38,713)** |
| | | |
| **Digər məcmu gəlir** | | |
| Borc alətlərinin ədalətli dəyərində xalis dəyişiklik | 614,021 | - |
| Borc alətlərinin ehtimal olunan kredit zərərləri ehtiyatında dəyişikliklər | 34,265 | - |
| Digər məcmu gəlir hesabatında uçota alınmış mənfəət vergisi | (129,657) | - |
| **Sonrakı dövrlərdə mənfəət və ya zərərə yenidən təsnif ediləcək xalis digər məcmu gəlir** | **518,629** | **-** |
| **İl üzrə cəmi məcmu gəlir/(zərər)** | **731,924** | **(38,713)** |

**KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT**
**31.12.2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ** *(Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Bölüşdürülməmiş mənfəət/ (hesablanmış kəsir) | İnvestisiya QK üzrə realizasiya olunmamış xalis gəlir | Cəmi kapital |
|---|---|---|---|---|
| **12.06.2020-ci il (başlanğıc tarixi)** | - | | - | - |
| Səhmdar kapitalının formalaşması | 300,000 | - | - | 300,000 |
| İl üzrə xalis zərər | - | (38,713) | - | (38,713) |
| **31.12.2020-ci il** | **300,000** | **(38,713)** | **-** | **261,287** |
| Adi səhmlərin buraxılması üzrə daxilolmalar | 2,700,000 | - | - | 2,700,000 |
| İl üzrə xalis mənfəət | - | 213,295 | - | 213,295 |
| İl üzrə digər məcmu gəlir | - | - | 518,629 | 518,629 |
| **31.12.2021-ci il** | **3,000,000** | **174,582** | **518,629** | **3,693,211** |

**PUL VƏSAİTLƏRİNİN AXINI HAQQINDA HESABAT**
**31.12.2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ** *(Azərbaycan manatı ilə)*

| | 31.12.2021 | 31.12.2020 |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:** | | |
| Mənfəət vergisindən əvvəl mənfəət/(zərər) | 267,546 | (48,214) |
| **Nağdsız vəsaitlər üzrə düzəlişlər:** | | |
| İnvestisiya qiymətli kağızları üzrə ehtimal olunan kredit zərəri xərci | 34,265 | - |
| Köhnəlmə və amortizasiya | 58 | - |
| Xarici valyuta əməliyyatları üzrə xalis zərər | 3 | 76 |
| Müştərilərin vəsaitlərində dəyişikliklər | (560,153) | - |
| Hesablanmış faiz üzrə dəyişiklik | (205,019) | - |
| Ticarət aktivləri üzrə zərər | 4,730 | - |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | **(458,570)** | **(48,138)** |
| **Əməliyyat aktivləri və öhdəliklərində dəyişikliklər** | | |
| Əsas brokerdən alınacaq vəsaitlər üzrə xalis dəyişiklik | 19,709 | (50,378) |
| Alınacaq komissiya haqlarında xalis dəyişiklik | (12,026) | - |
| Digər aktivlərdə xalis dəyişiklik | (6,570) | (4,124) |
| Müştərilərə ödəniləcək vəsaitlər üzrə xalis dəyişiklik | 560,153 | - |
| Vergi öhdəlikləri üzrə dəyişiklik | - | 255 |
| Digər öhdəliklər üzrə xalis dəyişiklik | 25,822 | 52 |
| **Ödənilmiş mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətindən daxil olan/(yönələn) pul vəsaitləri** | **128,518** | **(102,333)** |
| Ödənilmiş mənfəət vergisi | (72,310) | - |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **56,208** | **(102,333)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | |
| İnvestisiya qiymətli kağızlarının satın alınması, xalis | (13,537,589) | (11,555) |
| Əmlak və avadanlıqlar üzrə ödənişlər | (3,399) | - |
| Qeyri-maddi aktivlər üzrə ödənişlər | - | (62,750) |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **(13,540,988)** | **(74,305)** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ** | | |
| Repo müqavilələri üzrə borc alınmış vəsaitlər üzrə xalis daxilolmalar | 11,220,296 | - |
| Adi səhmlərin buraxılması üzrə daxilolmalar | 2,700,000 | 300,000 |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **13,920,296** | **300,000** |
| | | |
| Xarici valyutalar üzrə məzənnə dəyişikliklərinin təsiri | (3) | (76) |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM | 435,513 | 123,286 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 123,286 | - |
| **PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, *ilin sonuna*** | **558,799** | **123,286** |

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin Səhmdarı və İdarə Heyətinə:

***Rəy***

Biz "ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət")

31 dekabr 2021-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2021-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün Əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə dair etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətin asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, saxtakarlıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Cəmiyyətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri verilmiş şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

**"Baker Tilly Audit Azərbaycan" QSC**
**25 may 2022-ci il. Bakı, Azərbaycan Respublikası**






# Azərbaycan və Türkiyə arasında aeronaviqasiya sahəsində saziş imzalanıb

"Azərbaycan Hava Yolları"nın Mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan və Türkiyənin aeronaviqasiya təminatı provayderləri arasında kompleks aeronaviqasiya xidmətinin bütün aspektlərini əhatə edən mühüm saziş imzalanıb. Qeyd edilən sənəd 27 may tarixində "Azərbaycan Hava Yolları" QSC-nin "Azəraeronaviqasiya" Hava Hərəkəti İdarəsi (AZANS) və Türkiyənin Dövlət Hava Limanları Baş İdarəsi (DHMİ) arasında imzalanıb. Tərəflər sazişi imzalayan zaman iki təşkilatın aeronaviqasiya strategiyasının inkişafı sahəsində peşəkar qarşılıqlı əməkdaşlığının yüksək səviyyədə olduğunu, eləcə də qardaş ölkələr - Azərbaycan və Türkiyə arasında sıx dostluq münasibətlərinin olduğunu qeyd ediblər. Heydər Əliyev Beynəlxalq Aeroportunda hava hərəkətini idarəetmə qülləsini ziyarət edən DHMİ Şurasının sədri və baş direktor Hüseyn Keskinin rəhbərlik etdiyi nümayəndə heyətinə AZANS-ın tətbiq etdiyi müasir texnologiyalar barədə məlumat verilib. Qonaqlar həmçinin "TEKNOFEST Azerbaijan" Festivalı çərçivəsində Azərbaycanın paytaxtında keçirilən aviaşou zamanı uçuşların idarə edilməsi prosesi ilə tanış olublar. DHMİ-nin fəaliyyət sahəsinə Türkiyə hava limanlarının idarə edilməsi, eləcə də Türkiyə hava məkanının tənzimlənməsi və nəzarət edilməsi daxildir.



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi agentliyin fəaliyyətini əks etdirən stendin hazırlanması və qurulması işlərinin satın alınması ilə bağlı təkliflər sorğusu elan edir

Təkliflər sorğusunda iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Mehdi Mehdizadə küçəsi, 27-29 (Əlaqələndirici şəxs: Şahin Qubadov (055) 900 18 88) ünvanından ala bilərlər.

**İştirak haqqı: 150 (bir yüz əlli) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: "Kapital Bank" ASC 28 May filialı**
**Kod: 200123**
**Müxbir Hesabı: AZ37NABZ01350100000000001944**
**VÖEN: 9900003611**
**SWIFT AIIBAZ2X**
**H/Hesabı: AZ47AIIB38060019440817168112**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Müqaviləni yerinə yetirmək üçün təkliflər sorğusu iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 13 iyun 2022-ci il saat 12:00-dək qəbul olunur.

İddiaçıların təklifləri 13 iyun 2022-ci il saat 14:00-da Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

11 mart 2022-ci il tarixdə Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsində və dövlət satınalmalarının vahid internet portalında yerləşdirilmiş və elektron satınalmaları proseduru çərçivəsində keçirilmiş Azərbaycan Respublikasının Mərkəzi Bankında pul nişanlarının emalı proseslərinin davamlılığının təmin edilməsi üçün qablaşdırma və sair materialların satın alınması ilə əlaqədar açıq tender üzrə Tender komissiyasının 12 may 2022-ci il tarixli qərarına əsasən "Halal-P" MMC qalib elan edilmişdir.

Qalib cəmiyyətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin struktur idarələrinə tələb olunan çarpayıların satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 06 iyun 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Aydın Cəlilova qızı

MƏRVƏNİN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5932
Sifariş 1445
Qiyməti 40 qəpik




*Müstəqillik Günü münasibətilə dost və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, tərəqqi, rifah və əmin-amanlıq arzulayırıq*

**TEKFEN İNŞAAT**